RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 78 (10098) 6 may 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## 45 ölkədən 447 şirkətin iştirak etdiyi sərginin coğrafiyası daha da genişlənib

### Prezident İlham Əliyev 19-cu "Caspian Agro Week" və 31-ci "InterFood Azerbaijan" sərgiləri ilə tanış olub

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Bakı-Ekspo" Mərkəzində 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu - "Caspian Agro Week" və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi - "InterFood Azerbaijan" ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilər barədə məlumat verdi.

Bildirildi ki, 45 ölkədən 447 şirkətin iştirak etdiyi sərgilərin coğrafiyası bu il daha da genişlənib. İlk dəfə olaraq burada Braziliya, Efiopiya, Şimali Kipr milli pavilyonlarla təmsil olunur. Ümumilikdə isə sərgilərdə Almaniya, Belarus, Braziliya, Cənubi Koreya, Gürcüstan, İtaliya, İndoneziya və Niderlandın milli stendləri var.

"Caspian Agro Week" sərgisi kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma, qablaşdırma, logistika, elektron kənd təsərrüfatı, innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, bitkiçilik, baytarlıq, tullantıların emalı sahələrini əhatə edir. Eyni zamanda sərgidə "Smart Agro" istiqaməti üzrə süni intellekt, "ağıllı kənd", startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və "green agro" bölmələri nümayiş olunur.

3

# Qarşılıqlı hörmət və bərabərliyə əsaslanan əməkdaşlıq



## Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin Kaya Kallasla görüşləri məmnunluqla xatırlandı, onun 2025-ci ildə ölkəmizə səfəri zamanı əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd edildi.

Kaya Kallas Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Koştaya çatdırmağı xahiş etdi.

2

## Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında iştirakı tarixi hadisədir

### Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Martin Çunqonqla görüşləri məmnunluqla xatırlandı.

Parlamentlərarası İttifaqın baş katibi Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər, həmçinin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

2

## Prezidentin sosial şəbəkə hesablarında Ciorcia Meloninin Azərbaycana səfəri ilə bağlı videoçarx paylaşılıb



Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Azərbaycana səfəri ilə bağlı videoçarx paylaşılıb.

**https://video.azertag.az/site/video/313035**

## Bakı-Brüssel xətti: strateji tərəfdaşlıq yeni mərhələdə

### Kaya Kallasın Azərbaycana səfəri ölkəmizin regional təhlükəsizlik və qlobal enerji arxitekturasında artan rolunun göstəricisidir

Avropa İttifaqının ali rəsmisinin Bakıya səfəri "Cənub qaz dəhlizi" nin genişləndirilməsi və Avropanın enerji xəritəsində Azərbaycanın rolunun möhkəmləndirilməsi baxımından da mühümdür. Bu səfər regionda baş verən yeni reallıqların Qərb tərəfindən necə qəbul edildiyini göstərir. Onun Bakıdakı görüşləri Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması və kommunikasiyaların açılması prosesinə təkan verə bilər. Kallasın gəlişi Azərbaycanın, sadəcə, enerji tədarükçüsü deyil, həm də rəqəmsal transformasiya və mühüm logistik mərkəz kimi Avropa üçün əvəzolunmaz tərəfdaş olduğunu təsdiqləyir.



Avropa təsisatları arasında zaman-zaman Azərbaycana qarşı qərəzli mövqenin sərgilənməsinə rəğmən, mövcud geosiyasi və geoiqtisadi şərtlər Avropa İttifaqı üçün Bakı ilə əməkdaşlığın əhəmiyyətini ön plana çıxarır. Hazırda Aİ-nin 10 üzvü Azərbaycanın mavi yanacağını idxal edir, ümumilikdə isə tədarük coğrafiyamız artıq 16 ölkəni əhatələyir. Eyni zamanda birliyin 27 üzvündən 10-u ilə strateji tərəfdaşlıq sənədləri imzalanıb.

13

## Azərbaycan-İtaliya: dərinməzmunlu əlaqələr siyasi fürsətlərə çevrilir

Azərbaycanla İtaliya arasında siyasi əlaqələr yüksək səviyyədədir və liderlərarası davamlı dialoq bu münasibətlərin əsas hərəkətverici qüvvəsidir. Azərbaycan Prezidenti İlham Əliyevlə İtaliyanın Baş naziri Ciorcia Meloni arasında formalaşmış qarşılıqlı etimada əsaslanan münasibətlər iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfə verir. İtaliya Avropanın böyük dövlətləri sırasında Azərbaycanın ilk strateji tərəfdaşı kimi çıxış edir. Bu fakt təkcə siyasi bəyanatlarla deyil, real layihələr və intensiv qarşılıqlı səfərlərlə də təsdiqlənir.



2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya səfəri münasibətlərdə yeni mərhələnin əsasını qoydu. Sonrakı illər müxtəlif beynəlxalq platformalarda, o cümlədən Kopenhagendə keçirilən tədbirlər çərçivəsində liderlər arasında görüşlər və dialoq davam etdirildi. Bu baxımdan xanım Ciorcia Meloninin Azərbaycana səfəri həm siyasi, həm də rəmzi baxımdan xüsusi əhəmiyyət daşıyır. Onun Ermənistanda çoxtərəfli tədbirdə iştirakdan sonra Azərbaycana səfər etməsi, rəsmi Romanın Bakı ilə strateji tərəfdaşlığa verdiyi önəmi açıq şəkildə göstərdi və iki ölkə arasında dostluq münasibətlərinin möhkəmliyini təsdiqlədi.

7

## Bakı sülh missiyasını uğurla davam etdirir

### Bölgədə normallaşma prosesinə mane olmaq istəyən qüvvələrin planları bundan sonra da fiaskoya uğrayacaq

Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi və Azərbaycan Ordusunun hərbi gücü sayəsində BMT Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalan qətnamələri icra edildi, separatçılığa son qoyuldu və ölkəmizin suverenliyi tam təmin olundu. Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbə bütün regionun rahat nəfəs almasına şərait yaradan "sülh qalası"nın təməli oldu.

Azərbaycan və Ermənistan arasında münasibətlər artıq kağız üzərindəki bəyanatlardan real əməli addımlara keçib. 2025-ci ilin avqustunda Vaşinqtonda imzalanan Birgə Bəyannamə və sülh sazişi mətninin paraflanması bu prosesin hüquqi əsası olub.



Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında çıxışı zamanı sülhün insanların gündəlik həyatındakı real faydalarını konkret faktlarla diqqətə çatdırdı: "Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsulları Ermənistana ixrac edilib".

8

# Qarşılıqlı hörmət və bərabərliyə əsaslanan əməkdaşlıq

## Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Əvvəli 1-ci səh.*

Kaya Kallas Antonio Koştanın ölkəmizə səfəri zamanı dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının prezidenti tərəfindən birgə bəyanatın qəbul edilməsinin, həmin sənəddə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin strateji xarakterinin vurğulanmasının əhəmiyyətinə toxundu.

Qonaq Azərbaycanın Avropa İttifaqı üçün vacib tərəfdaş olduğunu dedi.

Prezident İlham Əliyev ölkəmizlə Avropa İttifaqı arasında enerji, bağlantılar, təhlükəsizlik, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda ölkəmizin isə enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı. Bu xüsusda dövlətimizin başçısı qeyd etdi ki, bu yaxınlarda Azərbaycan qazı Avropa İttifaqının daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

Söhbət zamanı Azərbaycan-Ermənistan sülh prosesinə toxunuldu, ölkəmizin sülh gündəliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar vurğulandı. Azərbaycanla Ermənistan arasında artıq iqtisadi-ticari münasibətlərin yaradıldığı qeyd edilərək, bu xüsusda ölkəmizin Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyəti birtərəfli qaydada aradan qaldırdığı bildirildi. Ötən gün İrəvanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında Azərbaycan Prezidentinin videobağlantı formatında iştirakı tarixi hadisə kimi dəyərləndirildi.

Görüşdə vurğulandı ki, hazırda Azərbaycanla Avropa İttifaqının gündəliyində rəqəmsal transformasiya, süni intellekt, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər var.

Söhbət zamanı Avropa İttifaqının minatəmizləmə sahəsində Azərbaycana dəstəyi təqdir edildi, TRIPP layihəsinin fəaliyyətə başlaması ilə onun regionda bağlantılar baxımından yaxşı imkanlar yaradacağı qeyd olundu.

Dövlətimizin başçısı və Kaya Kallas Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə etdilər.

# Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında iştirakı tarixi hadisədir

## Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın baş katibini qəbul edib



*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətləri qeyd edərək, ölkələrimiz arasında artıq iqtisadi-ticari münasibətlərin başladığını və Azərbaycanın birtərəfli qaydada Ermənistana gedən tranzit yüklər üzərindəki məhdudiyyəti aradan qaldırdığını bildirdi.

Azərbaycan Prezidentinin Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilmiş "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında iştirakı iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində tarixi hadisə kimi qiymətləndirildi.

Dövlətimizin başçısı Parlamentlərarası İttifaqın Azərbaycanla Ermənistan arasında parlament üzrə dialoqun eyni zamanda Azərbaycan və Ermənistan parlament sədrlərinin sülh prosesinin müzakirəsi üçün mütəmadi görüşlərinin keçirilməsinə şəraitin yaradılmasında rolunu müsbət qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Parlamentlərarası İttifaq arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.

Baş katib Azərbaycanın Parlamentlərarası İttifaqın işində fəal iştirak etdiyini deyərək, ölkəmizin parlamentlərarası dialoqa verdiyi töhfəyə toxundu.

Görüşdə işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, həmçinin Azərbaycanın mina problemindən əziyyət çəkməsi, minaların mülki insanlara və quruculuq prosesinə törətdiyi maneələr vurğulandı, əməkdaşlığın mövcud vəziyyəti, əlaqələrin perspektivləri və parlamentlərarası dialoqun inkişafı ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Təhsil haqqında" və"Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab) maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddələr 11, 14, 15, 16, 21; Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunu) 102.2.8-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.2.9-cu maddə əlavə edilsin:

"102.2.9. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının.".

**Maddə 2.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 320, № 7, maddə 628; 2026, № 1, maddə 8; Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 350-VIIQD nömrəli Qanunu) 14-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 14.8-1.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.8-1.10-cu maddə əlavə edilsin:

"14.8-1.10. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladları.";

2.2. 14.8-2-ci maddədə "və 14.8-1.6-cı (ali təhsil müəssisələrinə münasibətdə)" sözləri ", 14.8-1.6-cı (ali təhsil müəssisələrinə münasibətdə) və 14.8-1.10-cu (ali təhsil və peşə təhsili müəssisələrinə münasibətdə)" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 93) aşağıdakı məzmunda 12.3-cümaddə əlavə edilsin:

"12.3. Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladları (ən çoxu 23 yaşına çatanadək) təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

**Maddə 4.** Bu Qanunun 2-ci və 3-cü maddələri ilə müəyyən olunmuş imtiyaz bu Qanun qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladlarına da (ən çoxu 23 yaşına çatanadək) şamil olunur və 2026-cı il sentyabrın15-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*

# "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il dekabrın 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*

# N.A.Yusifbəylinin Sumqayıt Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nurəli Adil oğlu Yusifbəyli Sumqayıt Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2026-cı il*

# Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri nəzərdən keçirilib

**Mayın 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər arasında keçirilmiş təkbətək və geniş tərkibdə görüşlər zamanı Azərbaycan-Aİ münasibətlərinin cari vəziyyəti və perspektivləri ətraflı nəzərdən keçirilib.

Siyasi dialoqun intensivliyi, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb, tərəfdaşlığın qarşılıqlı hörmət, bərabərlik və ortaq maraqlar əsasında inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Bununla yanaşı, Azərbaycanla Avropa arasında dialoq mexanizmlərinin, yeni ikitərəfli saziş üzrə danışıqların bərpasının və Tərəfdaşlıq Prioritetləri sənədi üzrə aparılan danışıqların önəmi vurğulanıb.

Görüş zamanı iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat və logistika, "yaşıl enerji" və rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi və etibarlı tərəfdaş kimi rolu qeyd olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın həyata keçirdiyi bərpa və yenidənqurma işləri, habelə mina təhlükəsi ilə mübarizə sahəsində görülən tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb. Ermənistan ilə normallaşma prosesi barədə fikir mübadiləsi aparılıb. Azərbaycanın bölgədə davamlı sülh və sabitliyin təmin olunmasına sadiqliyi bir daha vurğulanıb.

Tərəflər həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsi aparıblar. Bu kontekstdə çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq, eləcə də qlobal çağırışlara qarşı birgə fəaliyyət imkanları müzakirə olunub.

Görüş zamanı, habelə Azərbaycan ilə Aİ arasında müxtəlif institutlar və proqramlar çərçivəsində əməkdaşlığın inkişaf perspektivləri nəzərdən keçirilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# *İtalyan ekspert:* "Ciorcia Meloninin səfəri münasibətləri qlobal çağırışlara qarşı strateji müdafiəyə yönəltdi"

**"İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Azərbaycana səfəri ikitərəfli münasibətlərin inkişafına növbəti mühüm töhfə oldu. Roma və Bakı strateji tərəfdaşlardır və on üç ildən sonra İtaliyanın Baş nazirinin Bakıya səfərinin baş tutması faktı bu əlaqələrin dərinliyini və əhəmiyyətini bir daha təsdiqləyir. Enerji və nəqliyyat infrastrukturu İtaliyanın investisiyaları dəstəkləyərək, həmçinin Azərbaycanın beynəlxalq enerji və nəqliyyat şəbəkələrinə daha sıx inteqrasiyasına töhfə verərək, həlledici rol oynaya biləcəyi və oynamalı olduğu sahələrdir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, beynəlxalq ekspert Karlo Marino səsləndirib.

Onun sözlərinə görə, Meloninin Azərbaycan ilə yanaşı, Ermənistana da səfər etməsi İtaliyanın Cənubi Qafqazda sabitləşdirici rol oynamaq istəyini vurğulayır. "Roma 2026-cı ili regionun iqtisadi potensialının açılması üçün potensial olaraq "həlledici il" hesab edərək, Bakı ilə Yerevan arasında münasibətlərin normallaşdırılması prosesini dəstəkləyir. İtaliya Azərbaycan ilə əlaqələrin dərinləşməsinə bir tərəfin qazancı, digər tərəfin itkisinə bərabər olan oyun kimi deyil, Avropa təsirinin əmsalı kimi baxır. Növbəti onillikdə bu tərəfdaşlıq Avropa İttifaqının üzv olmayan dövlətlərlə "funksional inteqrasiyası" üçün şablon - lazımsız siyasi yük olmadan enerji və müdafiə sahələrində dərin institusional əməkdaşlıq formatı ola bilər", - deyə o əlavə edib.

Karlo Marino bildirib ki, uzun illər ərzində İtaliyanın ümumi qaz idxalında "Şahdəniz" yatağından Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə təchiz edilən pay 16 faiz olub. Lakin Ciorcia Meloninin Bakıya səfəri zamanı tərəfdaşlığın çoxtərəfli struktura çevrildiyi aydınlaşıb. "Geosiyasi qeyri-sabitlik fonunda Meloninin səfəri - onun Baş nazir kimi ilk səfəri və son 13 ildə İtaliya liderinin ilk səfəri - münasibətləri rəsmi olaraq "alıcı-satıcı" modelindən qlobal çağırışlara qarşı strateji müdafiəyə yönəltdi. Prezident İlham Əliyevlə danışıqların əsas nəticəsi təchizat həcminin artırılmasına dair açıq bir öhdəlik idi. TAP hazırda ən yüksək gücdə işlədiyi üçün liderlər boru kəmərinin infrastrukturunun genişləndirilməsinin zəruriliyini etiraf ediblər. Azərbaycan Prezidenti birmənalı şəkildə bildirdi ki, "Cənub qaz dəhlizi"nin son halqası olan TAP-ın genişləndirilməsi, sadəcə, bir inkişaf variantı deyil, zərurətdir. Enerji bu qapıları açsa da, tərəfdaşlığın növbəti mərhələsi təhsil, müdafiə və sənaye sahələrində əməkdaşlıqla müəyyən ediləcək", - deyə italyan ekspert vurğulayıb.

# 45 ölkədən 447 şirkətin iştirak etdiyi sərginin coğrafiyası daha da genişlənib

## Prezident İlham Əliyev 19-cu "Caspian Agro Week" və 31-ci "InterFood Azerbaijan" sərgiləri ilə tanış olub

*Əvvəli 1-ci səh.*















"InterFood Azerbaijan" sərgisində isə qida sənayesi, içkilər, meyvə-tərəvəz, qida texnologiyaları və digər bölmələr üzrə məhsullar və xidmətlər təqdim edilir.

Əsas yeniliklərdən biri indiyədək "Caspian Agro" kimi tanınan sərginin bu ildən "Caspian Agro Week" konsepti çərçivəsində təşkil olunmasıdır. Sərgi ilə yanaşı, konfrans və forumlar, həmçinin innovativ təsərrüfatlara səfərlər təşkil olunacaq.

Dövlətimizin başçısı və birinci xanım "Azərsun Holdinq" şirkətinin stendinə baxdılar. Şirkət "tarladan süfrəyə" prinsipi ilə fəaliyyət göstərərək, müasir avadanlıq və innovativ həllərlə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal edir. "Azərsun Holdinq"in fəaliyyəti bölgələrdə on minlərlə insanın daimi və mövsümi işlərlə təminatına imkan yaradır.

Azərbaycanın aqrar sektorunda 10 ildən artıq təcrübəyə malik "Agro Dairy" aparıcı kənd təsərrüfatı və qida şirkətlərindən biridir. Şirkət xammalın istehsalından emalına, logistikasından son məhsulun istehlakçıya çatdırılmasına qədər bütün mərhələləri birləşdirən güclü aqrar-sənaye ekosistemi formalaşdırıb. "Torpaqdan süfrəyədək" prinsipi əsasında qurulan dəyər zənciri məhsulun keyfiyyətini təmin edir.

Almaniyanın "Holmer" şirkəti şəkər çuğunduru yığmaq üçün özüyeriyən kombaynların istehsalında dünya lideridir. "Holmer" innovativ şirkət olmaqla, texnoloji cəhətdən qabaqcıl kənd təsərrüfatı texnikasının istehsalını və satışını həyata keçirir.

İtaliyanın "New Holland" şirkəti kənd təsərrüfatı texnikasının istehsalı sahəsində 130 illik təcrübəyə malikdir. Dünyanın 170-dən çox ölkəsində bu şirkətin məhsulları istifadə olunur. "New Holland" kombaynları və traktorları müasir texnologiyalarla təchiz olunaraq, fermerlərin işini asanlaşdırır, keyfiyyətli biçinlə yanaşı, məhsul yığımını da avtomatlaşdırır.

Rusiyanın "PhosAgro" şirkəti dünyada fosfatəsaslı gübrələrin aparıcı istehsalçılarından biridir. Şirkətin əsas fəaliyyət istiqaməti, eyni zamanda, yüksəkkeyfiyyətli fosfat süxurunun, həmçinin yem fosfatlarının, azot gübrələrinin və ammoniumun istehsalından ibarətdir. Avropanın ən iri fosfatəsaslı gübrə istehsalçısı olan bu şirkət, həmçinin ən böyük yüksəkkeyfiyyətli fosfat süxuru istehsalçısıdır.

Diqqətə çatdırıldı ki, 20 ilə yaxın təcrübəyə malik "Azera Holdinq" əkinçilik, heyvandarlıq, balıqçılıq üzrə aparıcı kənd təsərrüfatı şirkətlərini özündə birləşdirir. Qafqazın ən iri istixana komplekslərinə malik holdinq həm də işğaldan azad olunmuş ərazilərdə geniş əkinçilik layihələrini uğurla icra edir. Holdinqə daxil olan "Fruitland" şirkəti Azərbaycanda ilk dəfə "Agroland" və "BinəAgro" şirkətlərinin 200 hektara yaxın əraziyə malik istixanalarında ildə 1000 tona yaxın banan yetişdirir.

Sərgidə iştirak edən Türkiyənin "Favo Agro" şirkəti kənd təsərrüfatı texnikası, avadanlıqları və ehtiyat hissələrinin tədarükü sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətdir. "Favo Agro" kənd təsərrüfatı texnikası ilə yanaşı, suvarma, sağım sistemləri və bu məhsullara aid ehtiyat hissələri üzrə həllər təqdim edir. Şirkət həmçinin Azərbaycanda Favo və Aksan markaları ilə kənd təsərrüfatı texnikası və heyvandarlıq avadanlıqlarının istehsalını həyata keçirir.

Qeyd edildi ki, "Made in Azerbaijan" brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayan sərgilərə Kənd Təsərrüfatı Nazirliyi təşkilati dəstək göstərir. Nazirlik həmçinin burada öz stendi ilə iştirak edir. Stenddə aqrar sektorun inkişafına yönəlmiş layihələr, dövlət dəstəyi mexanizmləri, rəqəmsal həllər, innovativ yanaşmalar, "Aqrar sahədə süni zəka", "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihələri, həmçinin startap təşəbbüsləri ilə bağlı məlumatlar təqdim olunur. Burada, eyni zamanda "ağıllı kənd" təsərrüfatı texnologiyaları, rəqəmsal monitorinq sistemləri, məhsuldarlığın artırılmasına yönəlmiş texnoloji yanaşmalar, işğaldan azad olunmuş ərazilərimizdə kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi üzrə nazirliyin həyata keçirdiyi investisiya müsabiqələri ilə bağlı pilot layihə, regionlarda təşkil olunmuş aqrar biznes və məhsul festivalları barədə məlumatlar var.

Bu il sərgilərdə regionlarımızın aqrar və qida sahəsində mövcud imkanları ilə yaxından tanış olmaq mümkündür. Bundan başqa, hər il təşkilatçılar Azərbaycanın müxtəlif bölgələrindən olan fermerlər üçün sərgiyə turlar təşkil edirlər. Bu il 51 bölgədən 500-dən çox fermer sərgilər çərçivəsində ən son sənaye yenilikləri və beynəlxalq təcrübə ilə tanış ola biləcək.

Sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası tərəfindən dəstəklənir.

Sərgidə İspaniyanın "Industrıas Davıd" şirkəti də iştirak edir. Şirkət üzüm, zeytun və meyvə bağları üçün xüsusi texnologiyalı kənd təsərrüfatı avadanlıqları, o cümlədən məhsul yığımı üçün maşınlar istehsal edir.

Dövlətimizin başçısı və birinci xanım "Gürcüstan Milli Qrupu"nun stendində də oldular. Həmişə olduğu kimi, bu dəfə də Gürcüstan sərgidə iştiraka böyük maraq göstərir. Bu ölkədən 10-a yaxın şirkət öz kənd təsərrüfatı məhsullarını təqdim edir.

Kənd təsərrüfatı sistemləri sahəsində ixtisaslaşan İsrailin "AFI Projects" şirkəti kompüterləşdirilmiş təsərrüfat idarəetmə sistemləri, süd fermalarının layihələndirilməsi və tikintisi, müxtəlif növ sağım otaqları və təsərrüfatların yenidən qurulması sahəsində xidmətlər təqdim edir. "AFI Projects" həm böyük fermalar, həm də kiçik təsərrüfatlar üçün əmək və istehsal proseslərini optimallaşdırmağa dəstək verir.

"İtaliya Respublikasının Milli Qrupu"nun stendi ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkədən olan şirkətlər sərgilərdə iştiraka böyük maraq göstərir. Belə ki, budəfəki sərgilərdə İtaliyanın kənd təsərrüfatı məhsulları və avadanlıqları istehsal edən 20-yə yaxın şirkəti iştirak edir.

Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan "Az Agromila" şirkəti yeni nəsil



gübrə və biopestisit sektorunda uğurla fəaliyyət göstərir. Müasir texnologiyalar təqdim edən şirkət istixana, meyvə-tərəvəz və açıq sahə də daxil olmaqla, kənd təsərrüfatının bütün sahələrində xidmət göstərir.

Niderland Krallığı da sərgiyə böyük maraq göstərir. Bu ölkə sərgidə milli stendlə təmsil olunur. Niderland şirkətləri öz kənd təsərrüfatı məhsullarını burada nümayiş etdirir. Stenddə toxumlar, güllər, istixana üçün avadanlıqlar və digər qida və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Məlumat verildi ki, yerli aqrar şirkət olan "Amofresh" Azərbaycanda münbit torpaqlarda fəaliyyət göstərir, ənənə ilə müasir innovasiyaları birləşdirir. Şirkət ekoloji təmiz regionlarda "Amofresh" brendi altında premium meyvə və tərəvəzlərin becərilməsi ilə məşğuldur. İstehsalın bütün mərhələlərində yüksək keyfiyyətin və təbii dadın təmin olunmasına çalışır.

"METAK" da kənd təsərrüfatı məhsulları istehsal edən yerli şirkətdir. Şirkətin stendində intensiv bağ modeli nümayiş olunur. Bu model il ərzində salınmış intensiv bağın struktur və quruluşuna tam uyğun şəkildə hazırlanıb, ziyarətçilərə bu texnologiyanın üstünlüklərini yerindəcə vizual şəkildə təqdim edir.

İranın "Khazar Electric" şirkəti innovativ həllərə əsaslanaraq kənd təsərrüfatı və tullantıların emalı avadanlıqlarını istehsal edir. Məhsul çeşidinə taxılqurutma, inkubator, kəsimxana, quşçuluq avadanlıqları daxildir.

"Absheron Olive Garden" MMC zeytun yağı və süfrəlik zeytun məhsullarının istehsalı ilə məşğuldur. İstehsal prosesi beynəlxalq keyfiyyət standartlarına uyğun şəkildə təşkil olunub, müasir texnologiyalar tətbiq edilir və məhsulun keyfiyyəti daim nəzarətdə saxlanılır.

Sərgidə maraq doğuran stendlərdən biri də "Şirvan Aqro" heyvandarlıq kompleksinə aiddir. Kompleks ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan müəssisədir. "Şirvan Aqro" Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq komplekslərindən biridir.

Hazırda "Meysəri" markası ilə tanınan "Şirvan Şərabları" müəssisəsi Azərbaycanın Şamaxı rayonunun Meysəri kəndində yerləşir. O, ölkəmizdə Avropa İttifaqı tərəfindən sertifikat almış ilk orqanik şərab istehsalçısıdır.

Belarus bu dəfə də sərgilərdə fəal iştirak edir. Bu ölkənin şirkətləri qida məhsulları təqdim edirlər. Belarusun sərgidə ümumilikdə 11 şirkəti təmsil olunur. Qeyd olunub ki, bu ölkə 10 ildən çoxdur sərgilərdə iştirak edir.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə sərgidə KOB-ların bazarlara çıxışına dəstək üçün xüsusi stend təşkil olunub. Stenddə 10-a yaxın KOB subyekti tərəfindən istehsal olunmuş qənnadı məmulatları, şokolad, ət məhsulları, bal, zəfəran və pendir kimi məhsullar nümayiş etdirilir. Prezident İlham Əliyevin fərmanı ilə 2017-ci ildə yaradılmış agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyərək, kiçik və orta biznes subyektlərinə bir sıra xidmətlər göstərir, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirir.

"Braziliya Federativ Respublikasının Milli Qrupu"nun stendində ziyarətçilərə əsasən kənd təsərrüfatı məhsulları təqdim edilir. Braziliya pavilyonunda bu ölkənin ət istehsalçısı və ixracatçısı şirkəti məhsullarını nümayiş etdirir. Bundan başqa, Braziliya qəhvəsi istehsal edən müəssisənin məhsulları da sərgidə maraqla qarşılanır.

İndoneziya da sərgiyə maraq göstərən ölkələr sırasındadır. Bu ölkə tədbirə milli stendlə qatılıb. "İndoneziya Milli Qrupu"nun stendində əsasən qəhvə və qənnadı məhsulları təqdim edilir.

Sərgidə Afrika ölkələrinin birgə iştirakı ilə təşkil edilən AFAZ (Africa-Azerbaijan Cooperation) ilk dəfə öz stendi ilə təmsil olunur. Bu stenddə isə Benin, Cənubi Sudan, Efiopiya, Kot-d'İvuar, Kamerun, Nigeriya, Qana, Seneqal, Somali, Tanzaniya və Zambiyadan olan şirkətlər məhsullarını təqdim edir.

Sonra dövlətimizin başçısı və birinci xanım "Bakı-Ekspo" Mərkəzinin həyətində müxtəlif ölkələrin, şirkətlərin kənd təsərrüfatı texnikası ilə tanış oldular.

Kənd təsərrüfatı və qida sənayesi üzrə regionun ən böyük sərgiləri olan "Caspian Agro Week" və "InterFood Azerbaijan" bu iki sahədə beynəlxalq əməkdaşlıq, innovasiya və yeni biznes əlaqələrinin inkişafına xidmət edən mühüm platformadır. Bu illər ərzində sərgilər milli brend kimi dünyanın aparıcı beynəlxalq tədbirləri sırasına daxil olaraq, qlobal sərgi təqvimində mühüm yer tutub.

Sərgi həftəsi çərçivəsində kənd təsərrüfatında innovativ həllər, aqrotexnologiyalar, "ağıllı kənd" təsərrüfatı sistemləri, qida emalı texnologiyaları, qida təhlükəsizliyi, logistika və ixrac imkanları üzrə qabaqcıl məhsul və xidmətlər nümayiş etdiriləcək. Bu platforma beynəlxalq təcrübə mübadiləsinin təşviqinə və aqrar-qida sektorunda yeni tərəfdaşlıqların qurulmasına mühüm töhfə verəcək.

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

**Azərbaycan xalqının Ümummilli Lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, ilk milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi strategiyanın müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Lider Heydər Əliyevin xidmətləridir. Azərbaycan və böyük türk dünyasının görkəmli ictimai-siyasi xadimi Heydər Əliyev xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb.**



# Heydər Əliyev siyasəti ailə, qadın və uşaq məsələləri kontekstində

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqilliyini bərpa edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu qorumuşdur. Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla qısa müddət ərzində respublikada həm yüngül, həm də ağır sənaye sahəsini inkişaf etdirmişdi. Yaradılmış yeni işləri əsasında insanların rifah halı daha da yaxşılaşmışdı.

1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Ulu Öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli Lider ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ulu Öndərin ailə institutunun möhkəmləndirilməsi sahəsində əvəzsiz xidmətləri olub. Ölkəyə başçılıq etdiyi bütün dövrlərdə millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına həmişə qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirdi: "Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir". Ulu Öndər Azərbaycan ailəsinin taleyinə laqeyd qala bilmirdi. O, Azərbaycanda ailə ənənələrimizin ləyaqətlə davam etdirilməsi üçün hər bir imkan və şəraiti yaradır, bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. 1990-cı illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan mühüm beynəlxalq konvensiyalara qoşulmuş və müvafiq qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası BƏT-in "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli, BMT-nin "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər konvensiyalara qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

Müstəqil dövlətimizin ali sənədinin - Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur. Ailə üzvlərinin sağlamlığı, xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi çox önəmli məsələlərdir. Bu bir həqiqətdir ki, sağlam ailə sağlam nəsil, sağlam millət deməkdir. Bu baxımdan Ulu Öndərin imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" qanunu xüsusilə qeyd etməliyik. Heydər Əliyev ailədə sağlam uşaqların doğulması, eləcə də narahatlıq doğuran məsələlərdən biri olan qan qohumluğunun qarşısının alınması istiqamətində xüsusi fəallıq göstərir, tibb işçilərinə göstərişlər verir və ən müxtəlif səviyyələrdə müzakirələr aparırdı. Ulu Öndər 1995-ci ildə Respublika Ailə-Sağlamlıq Mərkəzinin açılışında çıxış edərkən qan qohumluğu evliliyi və onun fəsadları barədə deyirdi: "...bizim xalqımızın, millətimizin sağlamlığı üçün, həm fiziki, həm zehni cəhətdən sağlamlığı üçün yaranan problem qohumların bir-biri ilə ailə qurmasıdır. Təəssüf ki, bu, bizim millətimizin, xalqımızın qədimlərdən qalmış ənənəsidir. Biz ənənə və adətlərimizin çoxuna hörmət bəsləyirik, onları inkişaf etdiririk və inkişaf etdirməliyik. Amma o adətlər, o ənənələr insan üçün, cəmiyyət üçün zərərlidirsə, biz onlardan xilas olmalıyıq, imtina etməliyik. Bax, bu adət-ənənələrdən biri də keçmişdən bizə miras qalmış, millətimizə xas olan adət - qohumların evlənməsi, ailə qurmasıdır. Siz, tibb işçiləri və alimləri bunun həm ailələr üçün, həm də ümumiyyətlə, millətimizin gələcəyi üçün nə qədər zərərli olduğunu bilirsiniz. Amma nədənsə, bu sahədə ciddi tədbirlər görülmür. Belə bir adət-ənənələrin zərərli olduğu insanlara çatdırılmır, izah edilmir, bu sahədə lazımi profilaktik işlər, yəni izahat işləri aparılmır. Məhz bunların nəticəsində, - yəqin ki, siz bu sahədə tədqiqatlar aparmısınız, bilirsiniz, - çox adamlar anadangəlmə şikəst olur, yaxud əqli cəhətdən inkişaf etmir. Belələri yaşasalar da, fiziki cəhətdən çatışmazlıq onları həmişə incidir". Nəhayət, onun qaldırdığı bu məsələ milli qanunvericilikdə öz həllini tapdı. İlk növbədə 2005-ci ildə "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi. Eyni zamanda bir sıra irsi xəstəliklərlə bağlı dövlət proqramları qəbul olundu. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununa əsasən, nikaha daxil olmaq istəyən şəxslərin icbari tibbi müayinədən keçmələri ilə bağlı tələb 2015-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Qanunda Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 13-cü maddəsi (Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi) yeni redaksiyada verilmişdir. Bu dəyişiklikdən əvvəl nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməsi könüllülük əsasında həyata keçirilirdi. Artıq qanun qüvvəyə mindikdən sonra bu məsələ icbari xarakter aldı. 2024-cü ildə Ailə Məcəlləsində dəyişiklik edilərək nikahın bağlanmasına mane olan hallar subyektlər dairəsinin genişləndirilməsi, yəni sadə dillə desək, qohum evliliklərinin qadağan olunması oldu. Qanun layihəsi 2025-ci ildən qüvvəyə minmişdir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, artıq dünya siyasi xadimləri sırasında öz layiqli yerini tutan cənab Prezident İlham Əliyev tərəfindən bu sahədə islahatlar aparılmışdır. Xüsusilə ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması üçün 1998-ci ildən fəaliyyət göstərən Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin əsasında, Prezidentin sərəncamı ilə, 2006-cı ildə bu sahədə vahid dövlət siyasətini həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində hüquqi islahatlar aparılmışdır. Erkən nikah problemi, təəssüf ki, bu gün də cəmiyyətdə aktual problemlərdən biri olaraq qalmaqda davam edir. Bu neqativ halların aradan qaldırılması üçün 2011-ci ildə Ailə Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. Çox üzrlü, obyektiv səbəblər olduğu təqdirdə nikah yaşı müvafiq icra hakimiyyəti tərəfindən 1 il azaldıla bilərdi. Lakin təcrübədə görürdük ki, bu dəyişiklik erkən nikah hallarının sayını azaltsa da, hələ də var. Bu səbəbdən də 2024-cü ildə Ailə Məcəlləsinə, Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edildi. Dəyişikliyə əsasən, nikah yaşının azaldılması ilə bağlı istisna ləğv edilmiş, 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbinkəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyət müəyyən olunmuşdur. Bu həm valideynləri, həm də erkən yaşda qız uşaqları ilə evlənməyə cəhd edən insanları və buna rəvac verən digər strukturları məsuliyyətli davranmaları, erkən nikahları, uşaq evliliyinin ağır fəsadlarını və bunun bir cinayət olmasını dərk etmək üçün vacib dəyişiklikdir. Ailənin bütövlüyünün qorunmasında Azərbaycan qadınının özünəməxsus yeri vardır.

Heydər Əliyev qadın hüquqlarının ən böyük müdafiəçisi idi. Qadın hüquqlarının müdafiəsinin dövlət qadın siyasəti səviyyəsinə qalxması məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun bu sahəyə böyük diqqəti, imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının müdafiəsi və təminatı istiqamətində mühüm tarixi addım idi. Ulu Öndər hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər. Biz bunu istər sovet hakimiyyəti, istərsə də müstəqillik illərində görmüşük. O deyirdi: "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır".

Ulu Öndər qızların təhsilinə böyük diqqət yetirirdi. Qadınların savadlı olması, onların bu sahədə uğurlar qazanması üçün Heydər Əliyevin tapşırıqları ilə bir çox dövlət tədbiri həyata keçirilirdi. 1998-ci ildə Azərbaycan Qadınlarının I Qurultayında çıxışı zamanı qeyd etmişdi: "Azərbaycan Qadınının XX əsrdə ən böyük uğuru onun savadsızlığa son qoyması olub. Azərbaycan qadını həm özü savad alıb, həm də savadsızlığa qarşı mübarizə aparıb". O, hər zaman xarici ölkələrə təhsil almağa gedən tələbələrin siyahısına diqqət yetirər, qızların da o siyahıda olması məsələsini qaldırardı.

Qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrlə (Ailə, Mülki, Əmək, Cinayət, İnzibati Xətalar və digər) təsbit olunmuşdur. Ulu Öndərin geniş və uğurlu dövlət qadın siyasəti həm ölkə daxilində, həm də xaricdə özünü büruzə verirdi və xarici təcrübə öyrənilərək tətbiq edilirdi. Azərbaycan bir sıra beynəlxalq təşkilatlara qoşularaq onların qadın məsələlərini əhatə edən konvensiyalarını, protokollarını qəbul etmiş və qanunvericiliyimizdə qadınların hüquqları mövzusunu təkmilləşdirmişdir. 1995-ci ildə keçirilən IV Ümumdünya Qadın Konfransı Azərbaycanda qadın hərəkatının dönüş nöqtəsi kimi qiymətləndirilə bilər.

Azərbaycan 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanı ratifikasiya etdi və 2001-ci ildə bu Konvensiyaya Əlavə Protokolu qanunla təsdiq etdi. Böyük şəxsiyyət Heydər Əliyev 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" fərman da imzalamışdır. Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanı isə ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxartmışdı. Qeyd etdiyimiz kimi, 1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. MDB ölkələri içərisində yeganə bizim ölkəmizdə belə bir dövlət qurumu olub. Ümummilli Liderimiz qadın hərəkatını dəstəkləyən, onların səlahiyyətlərinin artırılması üçün bütün imkanlar yaradan dövlət başçılarından biri idi. Böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev həyatın müxtəlif sahələrində çalışan qadınlarımızın elmi fəaliyyətini, əməyini diqqətlə izləmiş, onların hüququnun qorunması üçün lazımi tədbirlər görmüşdü.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva qadınların problemlərinə, onların ictimai həyatda aktiv rolunun təmin edilməsinə böyük qayğı ilə yanaşır. Məhz "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbul olunmasında Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü olmuşdur. Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Mehriban xanımın, eləcə də fondun vitse-prezidenti Leyla Əliyevanın gördüyü işlərin mühüm göstəricisi Heydər Əliyev Fondunun timsalında əks olunub. 22 illik fəaliyyəti dövründə fond Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasını və digər mühüm işlərin icrasını təmin edir. Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılması ideyası da məhz onun təklifi olmuşdur. Parlamentin spikeri Sahibə xanım bu sahəyə xüsusi diqqət göstərir. Onun dəstəyi ilə davamlı olaraq ictimai dinləmələr keçirir, təkliflər hazırlayırıq. Bu gün də gender bərabərliyinin təmin olunması istiqamətində qanunvericiliyin daha da gücləndirilməsi sahəsində işlər davam etdirilir.

Hazırda da Azərbaycanda gender siyasətinin reallaşdırılması məsələsində yeniliklərə imza atılır. Ötən dövr ərzində milli qanunvericilikdə qadınlarla kişilərin hüquq bərabərliyinin təmin edilməsi istiqamətində qanunlara çoxlu sayda əlavə və dəyişikliklər olunub. Qadınların gender əsaslı zorakılığa və məişət zorakılığına məruz qalmaması üçün müvafiq normativ-hüquqi aktlar qəbul edilib, fəaliyyət planı və qaydalar təsdiqlənib.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".

Uşaq hüquqlarının təmin edilməsi və müdafiə olunması Azərbaycanda dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Ölkəmizdə dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmləri yaradılıb.

Uzaqgörən lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə "Uşaq hüquqları haqqında", 1999-cu ildə isə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi. 2002-ci ildə isə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyanın "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokoluna qoşulmaq barəsində", "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakultativ protokolları təsdiq olundu. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə uşaqların hərtərəfli və ahəngdar inkişafının təmin edilməsinə yönəlmişdir. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi qayğısı və diqqəti nəticəsində daha da gücləndirilmişdir. Ölkəmiz uşaq hüquqları sahəsində bir sıra beynəlxalq sənədlərə qoşulmuş, uşaq hüquqlarının müxtəlif aspektlərini özündə əks etdirən qanunlar qəbul etmiş, həmçinin milli qanunvericiliyin təkmiləşdirilməsi istiqamətində mühüm işlər görmüşdür.

"Gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır" deyən cənab Prezidentin bu fikirləri uşaq hüquqlarının müdafiəsi sahəsində prioritetləri müəyyən edir. Ölkəmiz uşaqları bu cür təhlükələrdən qorumaq məqsədilə həm də 2001-ci ildə "Kibercinayətkarlıq haqqında" Budapeşt konvensiyasına da qoşulmuşdur. 2018-ci ildə qəbul edilmiş və 2020-ci ildə qüvvəyə minmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun bu sahədə çox mühüm rol oynayır. 2019-cu ildə Azərbaycan "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasına qoşulmuşdur.

Son illər uşaq hüquqlarının müdafiəsi istiqamətində bir sıra qanun layihələrinə əlavə və dəyişikliklər edilimişdir. 2026-cı ildə "Uşaq haqqında" Azərbaycan Respublikasının yeni qanunu qəbul olunmuşdur. Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi də Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılmalıdır. Uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən çoxşaxəli təşəbbüslərin uğurla reallaşdırılması prosesində Heydər Əliyev Fondunun əvəzsiz xidmətləri var. Fondun təhsil və səhiyyənin bir sıra problemlərinin həlli, yeni məktəblərin inşası, körpələr evi və internat məktəblərinin əsaslı təmiri və yenidən qurulması prosesində yaxından iştirakı Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir.

*Hər keçən il bir daha təsdiq edir ki, sözün hər mənasında, böyük və ibrətamiz həyat yaşamış Ümummilli Lider Heydər Əliyevin ideya dünyasının, təməlini qoyduğu siyasi kursun, strateji inkişaf xəttinin ömrü daha böyükdür. Yaxın tarixə nəzər salanda bir daha şahid oluruq ki, Heydər Əliyevin xalqı, vətəni yolunda etdiyi fədakarlıqlar, göstərdiyi xidmətlər, atdığı addımlar unudula bilməz. Onun gördüyü böyük işləri yaddan çıxarmaq mümkün deyil. O, bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə dayaq olmuş, xalqı ardınca aparmışdır. Bu gün xalqımız Ümummilli Liderin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşmişdir.*

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin komitə sədri,***
***siyasi elmlər doktoru, professor***

## Ulu Öndər Heydər Əliyevin xatirəsi Ankarada ehtiramla yad edilib

Mayın 4-də Ankaradakı "Şuşa" Konqres Mərkəzində "Heydər Əliyev və türk dünyası" mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirin təşəbbüskarı kimi Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV) çıxış edib.

Müzakirələrdə Türkiyə parlamentinin üzvləri, türk dövlətlərinin diplomatik nümayəndəliklərinin, qardaş ölkənin siyasi partiyalarının təmsilçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, paytaxt universitetlərinin tələbələri və müəllim heyəti iştirak edib.

Tədbir görkəmli dövlət xadiminə həsr olunmuş videosüjetlə başlayıb.

TADİV-in rəhbəri, professor Aygün Attar çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyev bütün türk dünyası üçün bir bələdçi və nümunədir. "Heydər Əliyev türk dövlətlərinin yaxınlaşmasında və qarşılıqlı inteqrasiyasında mühüm rol oynayıb. Əminəm ki, onun adı əsrlər boyu yaşayacaq" deyən professor vurğulayıb ki, Ümummilli Liderin kursunu onun layiqli davamçısı Prezident İlham Əliyev uğurla davam etdirir. "Heydər Əliyevin ən böyük arzusu - Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirilib" deyən professor TADİV-in yaradılması ideyasının Azərbaycan xalqının dahi oğluna məxsus olduğunu xatırladıb.

Türkmənistan, Qırğızıstan və Özbəkistan səfirliklərinin nümayəndələri çıxış edərək, Ulu Öndər Heydər Əliyevin balanslı və uzaqgörən siyasətinin türk ölkələri arasında strateji əlaqələrə güclü təkan verdiyini diqqətə çatdırıblar.

Diplomatlar Azərbaycanla sıx əməkdaşlığın təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğu, onun türk dünyasında dövlətlərarası əlaqələrə təkan verdiyi ilə bağlı vahid fikri ifadə ediblər.

Bu gün türk dövlətlərində bir sıra park və küçələrin Azərbaycanın Ümummilli Liderinin adını daşıdığına diqqət çəkilib.

Qazaxıstanın Türkiyədəki səfiri Yerkebulan Sapiyev Heydər Əliyevi "Türk dünyasının qardaş ölkələri arasında əlaqələrin inkişafına xüsusi töhfələr verən ağsaqqal" adlandırıb. O, Ulu Öndərin uzaqgörənliyini yüksək qiymətləndirərək qeyd edib ki, Türk Dövlətləri Təşkilatı Heydər Əliyevin strateji baxışının nəticəsidir.

Ölkəmizin Ankaradakı səfiri Rəşad Məmmədov da çıxışında vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan tarixində rolu həqiqətən əlamətdardır. Diplomat qeyd edib ki, Ulu Öndər Azərbaycanı xaosdan xilas edərək müasir dövlətin möhkəm təməlini formalaşdırıb.

Onun sözlərinə görə, Azərbaycanın görkəmli dövlət xadimi haqlı olaraq Mustafa Kamal Atatürk kimi şəxsiyyətlərlə bir sırada yer alır.

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım və Türkiyənin Ədalət və İnkişaf Partiyasının türk dövlətləri ilə əlaqələr üzrə sədr müavini, professor Kürşad Zorlu çıxışlarında Ümummilli Lider Heydər Əliyevin böyüklüyündən danışıblar. Onların fikrincə, Heydər Əliyev doğma Azərbaycanın və bütün türk dünyasının gələcək inkişafını öncədən görən bir insan idi.

Müzakirələrdən sonra konsert proqramı təqdim edilib və Ümummilli Liderin xatirəsinə həsr olunmuş şahmat turnirinə start verilib.

# Qüdrətli dövlətçiliyin memarı

**Azərbaycan öz tarixinin ən şərəfli, qürurlu və qüdrətli dövrünü yaşayır. Bu dövr təkcə iqtisadi tərəqqi və ya hərbi güclə deyil, həm də milli suverenliyin tam bərpası, beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzi kimi formalaşmağımızla xarakterizə olunur.**

**2020-ci il Vətən müharibəsində qazanılan tarixi Zəfər, torpaqlarımızın işğaldan azad olunması və suverenliyimizin bərpası Azərbaycanın geosiyasi çəkisini artırdı. Ölkəmiz təkcə Cənubi Qafqazın deyil, Avrasiya materikinin mühüm geosiyasi və geoiqtisadi mərkəzinə çevrildi. Bu gün Bakı dünyanın ən böyük qlobal problemlərinin müzakirə edildiyi, sülh və təhlükəsizlik formatlarının müəyyənləşdiyi məkanlardan biridir. Azərbaycan həm Qərb, həm Şərq mərkəzləri ilə bərabərhüquqlu münasibətlər qurmağı bacaran nadir ölkələrdəndir.**



**Xalqımız Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü böyük ehtiram, sonsuz sevgi və dərin minnətdarlıq hissi ilə qarşılayır. Aradan illər ötəcək, nəsillər dəyişəcək, lakin Heydər Əliyevə olan ümumxalq ehtiramı əbədi və tükənməz olacaq. Çünki Heydər Əliyev xalqımızı burulğanlardan xilas edən, müasir dövlətimizi quran, tarixin ən qüdrətli Azərbaycanının sarsılmaz və etibarlı təməllərini yaradan dahi və görkəmli şəxsiyyətdir.**

Ölkəmizin etibarlı tərəfdaş kimi mövqeyi beynəlxalq arenada o qədər möhkəmlənib ki, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri məsələsi Bakısız təsəvvür edilmir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz Çindən Avropaya qədər uzanan Orta dəhlizin əsas logistik mərkəzi statusunu qazanıb. Ölkəmizin beynəlxalq arenada etibarlı tərəfdaş mövqeyinin güclənməsi, sadəcə, coğrafi üstünlüklə bağlı deyil. Bu, illərdir yürüdülən balanslaşdırılmış və milli maraqlara söykənən siyasətin, düzgün yürüdülən xarici siyasətin və iqtisadi diplomatiyanın bəhrəsidir.

Birmənalı vurğulamaq lazımdır ki, Azərbaycanın müasir dövlətçilik tarixi bir-birini tamamlayan iki böyük mərhələnin, təməlqoyma və zirvəyə ucalma dövrlərinin vəhdətindən ibarətdir. Bu günlərdə həyata göz açmasının 103-cü ildönümünü böyük ehtiram və qürurla andığımız Ulu Öndər Heydər Əliyevin strateji zəkası ilə cızdığı şərəfli dövlətçilik yolu Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Yəni dövlətçilik yolunun təməlində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri, bənzərsiz dühası, "müstəqilliyimiz əbədidir, dönməzdir" fəlsəfəsi, zirvəsində isə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Zəfər dayanır. Azərbaycanın yaşadığı şərəfli günlər məhz illər öncə Ulu Öndər tərəfindən atılmış strateji addımların məntiqi nəticəsidir.

Dövlətimizin əldə etdiyi hər uğurun təməlində Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və tarixi qərarları dayanır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider ilk növbədə dövlətin fiziki varlığını qorudu. Azərbaycanın parçalanma təhlükəsi və iqtisadi iflası fonunda xilaskarlıq missiyasını üzərinə götürən Ulu Öndər dövlətin varlığını qorumaqla yanaşı, gələcək böyük qələbələrin də əsasını yaratdı. Prezident İlham Əliyev Ulu Öndərin vəsiyyətini və strateji xəttini dövrün reallıqları ilə uyğunlaşdıraraq, Azərbaycanı regionun mütləq liderinə çevirdi.

Ulu Öndərin ən böyük arzusu torpaqlarımızın işğaldan azadlığı, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi idi. Ümummilli Lider bu istiqamətdə siyasi müstəvidə nəhəng işlər gördü, diplomatik cəbhədə Ermənistanı təcrid etmək və beynəlxalq hüquqi baza yaratmaqla azadlığa gedən yolun inşasına başladı. Ulu Öndər nizamlı ordunun əsaslarını yaradaraq, hərbi təhsil sistemini formalaşdırdı, hər çıxışında "Biz mütləq qayıdacağıq!" deyərək xalqın inamını artırdı.

Dövlətimizin başçısı İlham Əliyevin 2003-cü ildən bu yana yürütdüyü uğurlu siyasətin ana xəttini Ulu Öndərin Azərbaycanla bağlı vəsiyyətləri, arzu və istəkləri təşkil edirdi. Prezidentimizin həyata keçirdiyi strategiyanın prioriteti, bütün istiqamətlərdə qazanılan uğurların əsas hədəfi işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi, öz yurdlarından didərgin salınmış soydaşlarımızın doğma ocaqlarına qaytarılması və Azərbaycanın bütün sərhədləri boyunca üçrəngli bayrağımızın dalğalanması idi. Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına daxil edərək, onu müasir texnologiyalar və "dəmir yumruq" fəlsəfəsi ilə təchiz etdi. Dövlətimizin başçısı hüquqi və siyasi bazanı hərbi qüdrətlə birləşdirərək, Ulu Öndərin diplomatik masada başlatdığı mübarizəni həm döyüş meydanında, həm də beynəlxalq tribunalarda məntiqi sonluğa - tarixi Zəfərə çatdırdı. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə ilə 30 illik həsrətə son qoyuldu. Ulu Öndərin yaratdığı hərbi kadr potensialı Vətən savaşında düşmənə vurulan zərbənin əsas gücünə çevrildi və Ümummilli Liderin ruhu torpaqlarımızın azadlığa qovuşması ilə rahatlıq tapdı.

Heydər Əliyev ömrünün sonuna qədər qaçqın və məcburi köçkünlərin sosial rifahı üçün çalışdı, ən ağır dövrlərdə məcburi köçkünlərin sosial rifahını hər şeydən üstün tutdu, çadır şəhərciklərinin ləğvinə başladı, qayıdış ruhunu daim yaşatdı. Prezident İlham Əliyev bu siyasəti məntiqi sonluğa çatdırmaqla "Böyük qayıdış" prosesinə start verdi və soydaşlarımızın öz yurdlarına qovuşmasını reallaşdırdı. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işləri insanların öz doğma yurdlarına ən müasir şəraitdə qayıtmasını təmin edir. Ümummilli Liderin 2003-cü ildə "Mən ona özüm qədər inanıram" deyərək xalqa təqdim etdiyi cənab İlham Əliyev etimadı tam doğrultmaqla yanaşı, dahi rəhbərin böyük arzularını da reallaşdırdı.

Azərbaycanın müasir xarici siyasəti Ulu Öndər tərəfindən təməli qoyulmuş strateji kursun məntiqi davamı və yeni müstəvidə icra olunmasıdır. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanı beynəlxalq təcriddən çıxarmaq üçün balanslaşdırılmış xarici siyasət kursunu başlatdı. Ümummilli Liderin uzaqgörənliklə müəyyən etdiyi, çoxvektorlu və milli maraqlara söykənən diplomatiya bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Ölkəmizin iqtisadi yüksəlişinin təməlində də Ulu Öndər Heydər Əliyevin uzaqgörən neft strategiyası və dövlətçilik fəlsəfəsi dayanır. 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyi iqtisadi iflas və xaos şəraitində idi. Ümummilli Lider yaxşı anlayırdı ki, siyasi müstəqilliyin möhkəmlənməsi üçün güclü iqtisadi təməl əsas şərtdir. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Ulu Öndərin iqtisadi uzaqgörənliyinin məhsulu idi və bununla Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasının təməli qoyuldu. Bu, təkcə iqtisadi yox, həm də ölkənin müstəqilliyini sığortalayan siyasi bir addım idi. Bu tarixi müqavilə sayəsində xarici investisiyaların ölkəyə cəlb edilməsi dövlətin maliyyə dayanıqlığını təmin etdi. Torpaq islahatı, özəlləşdirmə proqramları və sahibkarlığa dəstək mexanizmlərinin yaradılması ilə bazar iqtisadiyyatına keçidin hüquqi bazası formalaşdırıldı. Həmin təməllər üzərində həyata keçirilən qlobal əhəmiyyətli neft-qaz və bərpaolunan enerji layihələri müasir Azərbaycanı Avropanın enerji təhlükəsizliyini təmin edən əsas təminatçılarından biri etdi.

2003-cü ildən etibarən Prezident İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi iqtisadi siyasəti yeni dövrün çağırışlarına uyğunlaşdırdı. Dövlətimizin başçısı neft strategiyasını məntiqi sonluğa çatdıraraq Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin əsas qarantlarından birinə çevirdi. "Cənub qaz dəhlizi" (TANAP və TAP) layihələrinin reallaşması Azərbaycanın iqtisadi və siyasi çəkisini qlobal miqyasda artırdı. "Qara qızılı"n insan kapitalına çevrilməsi şüarı altında nəqliyyat, logistika, İKT, kənd təsərrüfatı və turizm sahələrində nəhəng sıçrayış edildi. Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələrlə Azərbaycan Avrasiyanın logistik mərkəzinə çevrildi. Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dövriyyəyə qaytarılması, "ağıllı şəhər" və "yaşıl enerji" zonalarının yaradılması Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələləri oldu.

Ulu Öndər və Prezident İlham Əliyevin iqtisadi siyasətindəki vəhdətin ən böyük nəticəsi Azərbaycanın iqtisadi müstəqilliyidir. Ulu Öndər xarici asılılığı minimuma endirən təməlləri atdı, Prezident İlham Əliyev isə Azərbaycanı donor ölkəyə, qlobal layihələrin təşəbbüskarına və regionun iqtisadi lokomotivinə çevirdi. Bu gün Azərbaycanın valyuta ehtiyatlarının ÜDM-i üstələməsi, xarici borcun aşağı səviyyədə saxlanılması və milli rifahın yüksəlməsi məhz bu varislik və vəhdətin təzahürüdür.

Heç şübhəsiz, dövlətimizin mənəvi sütunlarından biri də milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan ağsaqqallardır. Prezident İlham Əliyevin aprelin 23-də Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayına ünvanladığı müraciət dövlətin milli-mənəvi dəyərlərə verdiyi önəmi və ağsaqqallıq institutunun müasir dövrdəki strateji əhəmiyyətini ifadə edir. Dövlətimizin başçısı müraciətində ağsaqqallıq ənənəsini Azərbaycanın milli kimliyinin və dövlətçilik tarixinin sarsılmaz təməli, nəsillərarası mənəvi körpü kimi qiymətləndirdi. Prezidentimiz Vətən müharibəsində qazanılan şanlı Qələbənin əsasında ağsaqqalların gənc nəslə aşıladığı vətənpərvərlik, milli qürur və fədakarlıq tərbiyəsinin dayandığını xüsusi vurğuladı. Dövlətimizin başçısı Ağsaqqallar Şurasını, sadəcə, məsləhətçi orqan deyil, ölkənin ictimai-siyasi və humanitar inkişafında, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində fəal iştirak edən mühüm təsisat kimi səciyyələndirdi.

Ağsaqqallar hər zaman Heydər Əliyev yoluna sadiqlik nümayiş etdiriblər, cəmiyyətdə sabitliyin və vətənpərvərliyin qorunmasında böyük rol oynayıblar. Dövlətimizin başçısının ağsaqqallara göstərdiyi diqqət və qayğıya cavab olaraq, ağsaqqallar da cənab Prezidentin siyasətini birmənalı dəstəkləyirlər, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, dövlət siyasətinin xalqa çatdırılmasında fəal iştirak edirlər və bundan sonra da edəcəklər.

*Nəticə olaraq, müasir Azərbaycanın keçdiyi yol Ulu Öndərin müəyyən etdiyi strateji kursun Prezident İlham Əliyev tərəfindən böyük məharətlə, qətiyyətlə və zəfərlə davam etdirilməsi yoludur. Heydər Əliyev irsi ilə İlham Əliyevin uzaqgörən fəaliyyəti arasında varislik prinsipi güclü və qalib Azərbaycan modelinin uğur sirridir. Ulu Öndərin ən böyük şah əsəri olan Azərbaycan bu gün hadisələri yönləndirən, regionun taleyini müəyyən edən və qlobal iqtisadiyyata töhfə verən önəmli güclərdən biridir. Tarixi keçmişinə sadiq, gələcək çağırışlara tam hazır olan Azərbaycan dövləti bundan sonra da öz milli maraqlarını uca tutacaq, regionda sülhün, tərəqqinin və inkişafın əsas rəmzi olmağa davam edəcək. İnkişafımızın və gələcəyimizin qarantı isə xalq-iqtidar birliyi və Ulu Öndər ideyalarına olan sarsılmaz sadiqlikdir.*

***Eldar QULİYEV,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin Hesablayıcı komissiyasının sədri, professor***

# Azərbaycan inkişafı və uğurları ilə yüksəlir

Tarix sübut edir ki, məhz güclü lideri olan dövlətlər və xalqlar taleyin ən ağır sınaqlarından belə uğurla çıxaraq öz hədəflərinə inamla çata bilirlər. Bu, qədim zamanlarda belə olub, çağdaş dövrümüzdə də belədir. Siyasi quruluşundan və idarəetmə formasından asılı olmayaraq, istənilən dövlətin ziddiyyətlərlə dolu müasir münasibətlər sistemində uğur qazanmasında və xarici təzyiqlərə qarşı duruş gətirə bilməsində lider faktoru aparıcı rol oynayır.

Öz dövlətinin və xalqının taleyində böyük rol oynamış çoxsaylı liderlərin adını çəkmək olar. Bu sırada yeni dünya tarixinin ən mükəmməl nümunəsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan dövləti və dövlətçiliyi qarşısındakı xidmətləridir.

Heydər Əliyev Azərbaycanın rəhbəri olduğu bütün dövrlərdə xalqının taleyini sanki özünün taleyi kimi qəbul etmişdir. O, ən çətin, mürəkkəb və taleyüklü məqamlarda məsuliyyəti üzərinə götürərək Azərbaycanı böhranlardan çıxarmış, ölkəmizi ucaltmış, inkişaf, sabitlik və tərəqqi yoluna yönəltmişdir. Məsələn, Azərbaycanın müasir tarixində ilk dəfə sovet illərində yaşanan böyük iqtisadi yüksəliş Heydər Əliyevin xalqımızın qarşısındakı ən böyük xidmətlərindən biridir. Lakin o illərdə Ulu Öndər Azərbaycanı yalnız keçmiş ittifaqın ən qabaqcıl respublikaları sırasına yüksəltməklə kifayətlənmədi. Heydər Əliyev həm də Azərbaycanda elmin, təhsilin sürətli inkişafına nail oldu, idarəetmədə sovet beynəlmiləlçiliyi adı altında yerli xalqların hüquqlarını tapdalayan prinsiplərə yer verildiyi bir vaxtda məsul vəzifələrdə azərbaycanlı kadrların daha çox irəli çəkilməsini təmin etdi. Heydər Əliyev sovet ideologiyasının hakim olduğu bir reallıqda xalqımızın milli-mənəvi dəyərlərini qorudu, onların yaşadılması üçün bütün imkanlardan cəsarətlə istifadə etdi. Heydər Əliyev Azərbaycanın tarixindən, keçmişindən, milli dəyərlərindən yazan şair və yazıçıları qorudu, onlara qarşı repressiv tədbirlərin görülməsinə imkan vermədi.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, Heydər Əliyevin istər respublikamıza sovet dövrü rəhbərliyi illərində, istərsə də Kremldə çalışdığı illərdə ermənilərin Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına imkan verməmişdi. O illərdə Ermənistan rəhbərliyinin və erməni ziyalılarının Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı Moskvaya ünvanladıqları bütün müraciətlər məhz Heydər Əliyevin qətiyyəti sayəsində nəticəsiz qalmışdı. Təəssüf ki, Heydər Əliyevin bu qətiyyətini və prinsipiallığını ötən əsrin 80-ci illərinin sonlarında respublikamıza rəhbərlik edənlər davam etdirə bilmədilər və Azərbaycan erməni separatizmi ilə üz-üzə qaldı.

Heydər Əliyev elə bir siyasi dühа idi ki, hətta heç bir rəsmi vəzifə daşımadığı dövrdə belə öz xalqına xidmət edirdi. Bu mənada Ulu Öndərin 20 Yanvar faciəsindən sonra Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlişi və etdiyi cəsarətli çıxışı yalnız sovet rəhbərliyinə edilən etiraz deyildi. Bu çıxış həm də Azərbaycanda müstəqillik uğrunda milli hərəkatın yeni mərhələyə yüksəlməsinə yol açan siyasi manifest idi. Heydər Əliyevin siyasi fəaliyyətinin 1990-cı ilin payızından başlayan Naxçıvan dövrü isə Azərbaycan xalqının müstəqillik mücadiləsinin və müasir dövlətçilik tarixinin ən parlaq səhifələridir. 1990-cı ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsdiq olunması, «sovet» və «sosialist» sözlərindən imtina edilməsi, 1991-ci ilin fevralında isə SSRİ-nin saxlanılması ilə bağlı referendumun keçirilməsinin Naxçıvan MR-də boykot edilməsi sıradan hadisələr deyildi. Heydər Əliyev qətiyyətinin və cəsarətinin təcəssümü olan bu hadisələr milli müstəqillik mücadiləsinin daha dönməz və sarsılmaz olmasını təmin etdi.

Heydər Əliyevin 1993-cü ildə Bakıya gələrək Azərbaycanın müstəqilliyini xilas etməsi isə taleyin ona həvalə etdiyi növbəti tarixi missiya oldu. Ulu Öndərin 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılması ilə başlanan yeni siyasi missiyası müstəqilliyimizi xilas etdi, torpaqlarımızın işğal edilməsinə imkan vermədi. Öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrilən Heydər Əliyev müasir Azərbaycan dövlətini yaratdı, müstəqil dövlətçiliyimizin siyasi və hüquqi əsaslarını formalaşdırdı. Heydər Əliyev Azərbaycanı yalnız bu günün deyil, gələcəyin dövləti kimi qurdu. Bu siyasətin nəticəsində Azərbaycan müasir çağırışları əsas götürən inkişaf yolu ilə getdi, beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutdu. Ulu Öndər Heydər Əliyev xalqımızın milli həmrəyliyini təmin etdi, dövlətimizin ideoloji dayaqlarını formalaşdırdı, azərbaycançılıq ideyası siyasi-mənəvi məfkurəyə çevrildi.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, milli müstəqilliyimizin qorunub saxlanılmasında və ölkəmizin hərtərəfli inkişaf yoluna çıxarılmasında müstəsna xidmətlər göstərmiş dahi şəxsiyyətin zəngin siyasi irsi bu gün də xalqımız üçün etibarlı yol xəritəsi kimi böyük əhəmiyyət daşıyır. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində formalaşan güclü dövlətçilik ənənələri müasir Azərbaycanın uğurlu inkişafının əsasını təşkil edir və gələcək nəsillərə örnək olaraq yaşayır.

Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Azərbaycanın uğurlarını təmin edən strateji xətt kimi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ötən 23 ilə yaxın müddət ərzində bu xətt Azərbaycanı uğurdan uğura aparıb. Təsadüfi deyil ki, hazırda beynəlxalq münasibətlər sistemində Azərbaycan deyəndə Cənubi Qafqazın lideri, sabitliyin möhkəm və sarsılmaz olduğu bir respublika, qlobal enerji təhlükəsizliyi məsələlərində söz sahibi olan bir dövlət göz önündə canlanır.

Ən əsası, bu gün dünyada Azərbaycanı müharibədə qalib gələn, ərazilərini döyüş yolu ilə işğaldan azad edən dövlət kimi tanıyırlar. Qeyd edək ki, Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı idi. Heydər Əliyev torpaqlarımızın işğaldan azad olunacağına əmin idi. Ulu Öndər 1990-cı illərdə çıxışlarının birində bununla bağlı demişdir: “Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerinə-yurduna, qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir”.

*2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, 2023-cü ildə isə Qarabağda erməni separatizminə son qoyulması Ulu Öndər Heydər Əliyevin ideyalarının reallığa çevrildiyini özündə əks etdirən ən möhtəşəm hadisələr oldu. Bu zəfərlər həm də bir vəsiyyətin, bir inamın və bir dövlətçilik fəlsəfəsinin həyata keçməsi idi. Bu gün işğaldan azad edilmiş torpaqlarda dalğalanan üçrəngli bayrağımız, Qarabağa və Şərqi Zəngəzura yola düşən qayıdış karvanları həm də Ulu Öndər Heydər Əliyevin həyata vəsiqə almasının ən möhtəşəm təcəssümləridir.*

*Ulu Öndərin ruhu rahatdır. Çünki artıq torpaqlarımız azaddır, artıq məcburi köçkünlər öz doğma yurdlarına geri qayıdırlar. Azərbaycan isə özünün inkişafı və uğurları ilə Ulu Öndərin arzuladığı bir səviyyəyə yüksəlib.*

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***

1923 Azərbaycanın özü qədər əbədi 2026

Tarixi gerçəkliklər sübut edir ki, siyasi liderin şəxsiyyətindən və idarəetmə qabiliyyətindən ilk növbədə onun rəhbərlik etdiyi dövlətin, xalqın taleyi asılıdır. Bu liderlər milli dövlətçilik ideyalarının praktik surətdə reallaşmasında mühüm rol oynayır, milli tərəqqi üçün dayanıqlı əsasların müəllifinə çevrilirlər. Hər bir xalqın milli özünütəsdiqinin parlaq ifadəsinə çevrilmiş müstəqil dövlətçilik konsepsiyası da məhz fenomenal liderlərin adı ilə bağlı olur. Tarixdən çox nümunələr gətirmək mümkündür. Məsələn, Hindistan öz inkişafında Mhatma Qandinin müəyyənləşdirdiyi ideoloji prinsiplərə söykənir.  Mao Tsedunun və Den Syaopinin əsasını qoyduğu "iqtisadi inqilab" Çinin hazırkı uğurlarına, dünyanın fövqəlgücünə çevrilmə məramına ciddi təminatdır. Qardaş Türkiyə Cümhuriyyəti isə məhz böyük Mustafa Kamal Atatürkün ideyaları əsasında əbədiyaşarlıq qazanıb.

# Azərbaycanın inkişaf strategiyasının təməl prinsipləri

Azərbaycan xalqı üçünsə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideya və prinsiplər müstəqil dövlətçiliyimizin qarantıdır. XX əsrdə xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyət olan Heydər Əliyevin müdrikliklə müəyyənləşdirdiyi yol Azərbaycanın alternativsiz inkişaf strategiyasına çevrilib. Ümummilli Liderlik zirvəsinə yüksəlmiş bu fenomen şəxsiyyət ilk növbədə Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını mükəmməl konsepsiya kimi formalaşdırıb. Məhz Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etməklə yanaşı, xalqın və ölkəmizin ideoloji xəttini müəyyənləşdirib.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətləri çoxəsrlik tariximizin ən parlaq səhifələrini təşkil edir. Dahi şəxsiyyətin həyat və fəaliyyətinə nəzər saldıqda bir daha şahidi oluruq ki, onun bütün fəaliyyətinin əsasında xalqımızın parlaq gələcəyinin, qüdrətli bir dövlət kimi Azərbaycanın müstəqilliyinin əbədiliyinin təmin edilməsi dayanır. İnkaredilməz həqiqətdir ki, dövlət qurmaq, müstəqil yaşamaq bəşər tarixində heç də bütün xalqlara nəsib olmur. Dünya təcrübəsi də göstərir ki, böyük şəxsiyyətlərin ideyaları cəmiyyətdə baş verən hadisələrə çox ciddi təsir göstərir. Liderin dünyagörüşü, həyat təcrübəsi və siyasi iradəsi inkişaf strategiyasının əsas istiqamətlərinin müəyyənləşdirilməsində, ən çətin məqamlarda düzgün yolun seçilməsində öz sözünü deyir. Azərbaycan xalqı da xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri olub. Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan böyük şəxsiyyətdir.

Ulu Öndər Heydər Əliyevin gördüyü işlərin, xidmətlərinin miqyası o qədər genişdir ki, onları bir çıxışda, bir məqalədə, yaxud bir tədbirdə  əhatə etmək mümkün deyil. Bugünkü Azərbaycan Ümummilli Liderin əmanətidir. Azərbaycanın müstəqilliyinin yenidən bərpasının ilk illərində yaşadıqları çoxəsrlik tariximizin faciəli səhifələri kimi hər zaman vərəqlənir. Azərbaycan o illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin olmaması, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları ucbatından müstəqilliyini itirmək, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə çətin bir zamanda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı yenidən qurub dirçəltdi. Müstəqilliyi tarixi nailiyyətimiz kimi dəyərləndirən Ulu Öndər onun qorunmasını, möhkəmləndirilməsini  qarşıda əsas vəzifə kimi qoydu.

1993-cü ildən başlayaraq Azərbaycan  uğurlu inkişaf yolu ilə gedir. Həmin vaxtdan ölkəmizdə sabitlik dövrü başladı, bütün sahələr üzrə mütərəqqi islahatlara start verildi. İlk gündən demokratik, hüquqi, sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanın bu istiqamətdə atdığı addımların uğurlu nəticələri göz önündədir. Hazırda Heydər Əliyevin müəyyənləşdirdiyi möhtəşəm inkişaf strategiyasının  real nəticələrini görürük. Bu gün Azərbaycan təkmil sosial-iqtisadi siyasəti ilə dünyada  ən islahatçı ölkələr sırasında yer alır. İqtisadi tərəqqi digər sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində mühüm addımların atılmasını şərtləndirdi.

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu sıraya təkmil siyasi sistemin, siyasi mədəniyyətin əsasının yaradılması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, həmçinin milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın müəyyənləşdirilməsi aid edilə bilər. Həmin dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Bu, müstəqil Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edən çox mühüm vasitə oldu. Ulu Öndər Heydər Əliyev dövlət başçısı kimi  andiçmə mərasimində çıxışı zamanı qeyd etmişdi: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".

Beləliklə, Azərbaycan demokratik inkişaf yolunda uğurla irəlilədi, mühüm nailiyyətlər qazanıldı. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, demokratik seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində sosiallaşmaya və siyasi mədəniyyətin inkişafına, ümumilikdə ictimai-siyasi institutların səmərəli fəaliyyətinə yol açdı. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan milli inkişaf strategiyasının fonunda həyata keçirilən sistematik işlər və görülən məqsədyönlü tədbirlər siyasi sistemin təşəkkül tapmasını, onun struktur elementlərinin mütəmadi təkmilləşməsini təmin etdi. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər eyni zamanda dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissələrindən biridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi.

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Onu da xüsusi vurğulamalıyıq ki, müstəqilliyimizin, suverenliyimizin qarantı olan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımların, formalaşan möhkəm təməlin nəticəsidir ki, Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasında qərarlaşıb. Ən əsası Silahlı Qüvvələrimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərə imza atdı, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdi. Dünya Azərbaycan Ordusunun nəyə qadir olduğunun şahidinə çevrildi.

Bu günümüzün uğurlarının zirvəsində dayanan tarixi Zəfərimiz Azərbaycanın 1993-cü ildən başladığı inkişaf yolunun təqdimatıdır. Heydər Əliyev yolu tarixi Zəfərimizin əsasını təşkil edir. Bu şanlı qələbə Azərbaycanın iqtisadi və siyasi gücünü, milli birliyini bir daha  nümayiş etdirdi. Azərbaycan dövləti ötən illər ərzində torpaqlarımızın işğaldan azad edilməsi üçün səbirlə hazırlıq işləri apardı və məqsədinə nail oldu. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Ümummilli Lider Heydər Əliyev adını tarixə müstəqilliyimizin, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev isə  Qarabağımızın xilaskarı kimi qızıl hərflərlə yazdılar. Bu, Azərbaycan xalqının xoşbəxtliyidir. Artıq azad Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir.

*Müstəqil Azərbaycan Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla, yeni zəfərlərlə addımlayır. Bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Xalqımız bu əsərin müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcək. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, yeni-yeni zəfərlər qazanacaq!*

**Pərvin KƏRİMZADƏ,**
**YAP İdarə Heyətinin üzvü,**
**Milli Məclisin deputatı**

# Milyonların qəlbində əbədi yaşayan dahi şəxsiyyət



Azərbaycan xalqı milli qürur hissi ilə ölkə üçün vacib olan tarixi bir günü - Heydər Əlirza oğlu Əliyevin, planetin bütün azərbaycanlılarının Ümummilli Liderinin anadan olmasının 103-cü ildönümünü təntənə ilə qeyd edir.

Müasir Azərbaycan tarixinin bütöv bir dövrü, önəmli bir mərhələsi Ulu Öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin 34 illik rəhbərliyi dövrü Azərbaycan tarixində ən önəmli inkişaf mərhələsi olmuşdur. Müstəqil ölkəmizin bugünkü uğurları Heydər Əliyev strategiyasının təntənəsidir. Təsadüfi deyil ki, tarixdə öz əməlləri ilə iz qoymuş şəxsiyyətlər sırasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı Vətənə və xalqa göstərdiyi misilsiz xidmətləri baxımından birincilər sırasında çəkilir. Dahi rəhbərin hakimiyyətdə olduğu dövr ərzində Azərbaycanın qazandığı bütün nailiyyətlərin fövqündə məhz onun qüdrəti və dühası, uzaqgörənliklə yürütdüyü müdrik siyasi kursu  dayanıb.

Öz tarixini, keçmişini unudan xalqın gələcəyi olmaz. Məhz bu baxımdan ötən əsrin son onilliyinin əvvəllərində Azərbaycanda gedən proseslərin, baş verən hadisələrin ölkənin gələcəyi üçün əhəmiyyəti müqayisəyə gəlməyəcək dərəcədə böyük olmuşdur. İlk növbədə birmənalı olaraq qəbul edilməlidir ki, 1993-cü ilin iyununda baş verən hadisələr Azərbaycanı bir dövlət olaraq dünya xəritəsindən silməyə hesablanmışdı. Həmin dövrdə ölkə hakimiyyətində olan insanların səriştəsizliyi, bəzilərinin isə aşkar xəyanətkar mövqe tutması, şəxsi ambisiyalarını irəli çəkməsi ölkəni yox olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Bir tərəfdən erməni işğalçıları xarici qüvvələrin dəstəyi ilə tarixi yurd yerlərimizi işğal edir, digər tərəfdən isə ölkə daxilində hakimiyyət uğrunda çəkişmələr vətəndaş müharibəsinə çevrilirdi. Xalqın ən çətin günündə Ulu Öndər Heydər Əliyev Bakıya gəldi.

Ulu Öndərin Bakıya qayıdışı Azərbaycanı xilas etdi. Millətin sönməkdə olan müstəqillik arzuları yenidən canlandı, xalqımızda  sabaha inam, ümid yarandı. 1993-cü ilin iyun ayında Ali Sovetin Sədri seçilən Heydər Əliyev xalq qarşısında çıxış edərək, mövcud dövlət böhranının aradan qaldırılmasının yollarını, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Ulu Öndər çox böyük real təhlükələri qarşısına alaraq, xalqın və dövlətçiliyimizin qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə illərdən bəri davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Uzun sürən daxili çəkişmələrdən sonra ölkədə ilk dövrlərdə kövrək olsa da, ictimai-siyasi sabitlik yarandı. Heydər Əliyev uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlaması oldu. Həmin dövrdə Azərbaycan Ordusunun əks-hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu.

Müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ ilə dünyanın aparıcı neft şirkətləri arasında, respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Azərbaycan iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan qazandı. Bu gün artıq hamıya aydındır ki, o zaman Ulu Öndər Heydər Əliyev tərəfindən bu taleyüklü addımlar atılmasaydı, ölkəmizin ərazi bütövlüyünü erməni faşizmi üzərində əldə olunmuş möhtəşəm Qələbə ilə təmin etmək də mümkün olmayacaqdı. Beləliklə, Heydər Əliyevin yenilməz siyasi iradəsi sayəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunun aliliyi, insan haqlarının qorunması kimi demokratik prinsiplər bərqərar edildi. Həmin gündən ötən dövr ərzində ölkəmizdə möhtəşəm uğurlara imza atıldı, islahatlar həyata keçirildi, iqtisadi dirçəliş baş verdi, ordu gücləndirildi. Heydər Əliyevin səyləri nəticəsində bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da əhəmiyyətli dəyişikliklərin əsası qoyuldu. Ümummilli Liderin rəhbərliyi ilə qısa müddət ərzində bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı. Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Nəticədə iqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə Ulu Öndər beynəlxalq tələblərə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi.

Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında müstəsna və misilsiz xidmətləri olmuşdur. Bu gün bütün dünya azərbaycanlıları üçün vahid birləşdirici amil olan azərbaycançılıq ideologiyasının əsasını qoymaqla, Ulu Öndər milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, onu aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli Lider Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu Öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyev tərəfindən siyasi-ideoloji müstəvidə görülən işlər milli inkişaf və həmrəyliyimizin təminatçısı qismində çıxış etmişdir. Milli-ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Ulu Öndərin təşəbbüsü və gərgin səyləri  sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi əhəmiyyətə malik addım oldu. Bunun ardınca milli-mənəvi dəyərlərin qorunması istiqamətində əhəmiyyətli tədbirlər görüldü.

Heydər Əliyev eyni zamanda Azərbaycan multikulturalizminin də əsasını qoymuşdur. Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Ümummilli Lider ölkədə mövcud olan xaos və özbaşınalığa son qoymuş, ölkəmizi vətəndaş qarşıdurması kimi böyük bəlalardan xilas etmişdir. Belə bir dövrdə Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsinə ehtiyac var idi. Ulu Öndər azərbaycançılıq məfkurəsinin prinsiplərini bəyan etməklə ölkəmizin inkişafı və tərəqqisi üçün işıqlı yolun təməlini qoydu.

1993-2003-cü illər ərzində görülmüş və əsası qoyulmuş işlər hazırda Prezident cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Prezident İlham Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi gündən keçən  dövr ərzində ölkəmizdə dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Bu illər ərzində Azərbaycan istər siyasi, istər iqtisadi sahədə böyük uğurlara imza atmışdır. Bu uğurlar bugünkü Azərbaycan reallıqlarını əks etdirir. Bu gün gücü, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir, Heydər Əliyevin ideyaları əsasında dinamik inkişaf edir. Qazanılan bütün nailiyyətlərin əsasında Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. 23 il bundan əvvəl - Azərbaycan xalqının cənab İlham Əliyevə etimad göstərməsindən sonra həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub.

*Heydər Əliyev siyasi kursunun bütün bu illər ərzində Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə və uğurla inkişaf etdirilməsi bu gün dövlətimiz və xalqımız qarşısında uzun illərdən bəri duran ən vacib problemin həllini - işğal olunmuş torpaqlarımızın azad edilməsini təmin etmişdir. Azərbaycan artıq yeni reallıqlar yaradan ölkədir və bu reallıqlar xalqımızın daha firavan yaşamasına, dövlətimizin daha qüdrətli olmasına xidmət edəcək. Tariximizin ən çətin və keşməkeşli dönəmlərində Azərbaycanın nicatı və xoşbəxt gələcəyi naminə böyük siyasət meydanına atılan Ulu Öndər Heydər Əliyevin adı və ideyaları isə qədirbilən xalqımızın qəlbində, gələcək nəsillərin qan yaddaşında əbədi olaraq yaşayacaqdır.*

**Kamaləddin QAFAROV,**
**Milli Məclisin deputatı**

# Azərbaycanın xarici siyasətinin uğurları



# Azərbaycan-İtaliya:
## dərinməzmunlu əlaqələr siyasi fürsətlərə çevrilir

**Müasir dünyamızda müxtəlif səbəblərin təsiri ilə ayrı-ayrı dövlətlər arasında ixtilafların güclənidiyi, gərginliklərin artdığı bir zamanda Azərbaycan nəinki hər hansı qütbdə təmsil olunur, əksinə, müstəqil mövqeyi, balanslı siyasəti ilə bütün dünyada sülhə, əməkdaşlığa, qarşıdurmaların aradan qaldırılmasına töhfə verməyə çalışır.**

Ölkəmizin getdikcə yüksələn beynəlxalq nüfuzu, ayrı-ayrı dövlətlərin xarici siyasətində rəsmi Bakı ilə əlaqələrin inkişafına verilən önəm, əksər ölkə rəhbərlərinin Prezident İlham Əliyevə rəğbəti, inamı və güvəni, onunla sıx kommunikasiyalara can atmaları Azərbaycanın ortaya nə qədər böyük siyasi iradə qoyduğunu və üzərinə götürdüyü tarixi missiyanı nə qədər böyük uğurla yerinə yetirdiyini göstərir.

Bu baxımdan Azərbaycanla İtaliya arasında münasibətlər son illərdə dinamik inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Əlaqələr təkcə siyasi dialoqla məhdudlaşmır, eyni zamanda enerji, iqtisadiyyat, hərbi-texniki, mədəniyyət və təhsil sahələrində geniş və çoxşaxəli əməkdaşlığı əhatə edir.

İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Avropa Siyasi Birliyinin İrəvanda keçirilən 8-ci sammitindən dərhal sonra Bakıya rəsmi səfəri, Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüş və müzakirələr bunu bir daha nümayiş etdirdi.

### Qarşılıqlı etimad

Azərbaycanla İtaliya arasında siyasi əlaqələr yüksək səviyyədədir və liderlərarası davamlı dialoq bu münasibətlərin əsas hərəkətverici qüvvəsidir. Azərbaycan Prezidenti İlham Əliyevlə İtaliyanın Baş naziri Ciorcia Meloni arasında formalaşmış qarşılıqlı etimada əsaslanan münasibətlər iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfə verir. İtaliya Avropanın böyük dövlətləri sırasında Azərbaycanın ilk strateji tərəfdaşı kimi çıxış edir. Bu fakt təkcə siyasi bəyanatlarla deyil, real layihələr və intensiv qarşılıqlı səfərlərlə də təsdiqlənir.

2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya səfəri münasibətlərdə yeni mərhələnin əsasını qoydu. Sonrakı illər müxtəlif beynəlxalq platformalarda, o cümlədən Kopenhagendə keçirilən tədbirlər çərçivəsində liderlər arasında görüşlər və dialoq davam etdirildi. Bu baxımdan xanım Ciorcia Meloninin Azərbaycana səfəri həm siyasi, həm də rəmzi baxımdan xüsusi əhəmiyyət daşıyır. Onun Ermənistanda çoxtərəfli tədbirdə iştirakdan sonra Azərbaycana səfər etməsi, rəsmi Romanın Bakı ilə strateji tərəfdaşlığa verdiyi önəmi açıq şəkildə göstərdi və iki ölkə arasında dostluq münasibətlərinin möhkəmliyini təsdiqlədi. Liderlərin mətbuata verdikləri birgə bəyanatda Prezident İlham Əliyev bu münasibəti yüksək dəyərləndirərək dedi: "Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür".

### İtaliyanın enerji təhlükəsizliyində əsas tərəfdaş

Azərbaycanla tərəfdaşlığa xüsusi diqqət İtaliya üçün ölkənin enerji təhlükəsizliyi, geosiyasi mövqeyi və iqtisadi maraqları ilə birbaşa bağlı strateji seçimdir. Azərbaycan Avropaya alternativ qaz mənbəyi təqdim edən ölkələrdəndir. Xüsusilə "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan qazının İtaliyaya çatdırılması rəsmi Romanın enerji siyasətində çox mühüm rol oynayır. Bu əməkdaşlıq İtaliyanın enerji təchizatını şaxələndirməsinə, yəni bir mənbədən asılılığını azaltmasına imkan verir. Xüsusilə son illər Avropada enerji böhranları fonunda bu faktor daha da kritik əhəmiyyət kəsb edib. Azərbaycan artıq İtaliyanın əsas qaz təchizatçılarından birinə çevrilib və bu, uzunmüddətli sabitlik deməkdir.

Hazırda Azərbaycan İtaliyanın ikinci əsas qaz təchizatçısıdır. Təkcə 2025-ci ildə ölkəmiz İtaliyaya 10 milyard kubmetr qaz ixrac edib. Ümumilikdə isə Azərbaycanın "Cənub qaz dəhlizi" vasitəsilə İtaliyaya ixrac etdiyi qazın həcmi 50 milyard kubmetrə yaxınlaşıb. Bu, ölkəmizin Avropanın enerji xəritəsində strateji oyunçu kimi mövqeyini daha da gücləndirir. "Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun üçün təbii ki, "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir" - Azərbaycan Prezidenti bəyanatında belə vurğulamışdır. Eyni zamanda Azərbaycan İtaliyanın neft təminatında da mühüm rol oynayır və bu sahədə də ikinci əsas tərəfdaş kimi çıxış edir.

### Avropa və Asiya arasında körpü

Azərbaycanın yerləşdiyi coğrafiya - Cənubi Qafqaz regionu Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Bu isə İtaliya üçün yeni nəqliyyat və ticarət marşrutlarına çıxış deməkdir. Ölkəmizlə sıx münasibətlər regionda İtaliyanın siyasi təsir imkanlarını da artırır. İtaliya Azərbaycanla sıx tərəfdaşlıq sayəsində Cənubi Qafqazda daha fəal çıxış edir və regional balansda öz mövqeyini gücləndirir.

Tərəfdaşlıq münasibətlərinin iqtisadi tərəfləri də əhəmiyyətlidir. Belə ki, İtaliya şirkətləri Azərbaycan bazarında geniş imkanlara malikdirlər. Bu gün Azərbaycanda 130-a yaxın İtaliya şirkəti fəaliyyət göstərir. Tikinti, infrastruktur, enerji, mühəndislik və dizayn sahələrində İtaliya biznesi ölkəmizdə aktiv iştirak edir. Xüsusilə Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı bərpa və yenidənqurma işləri İtaliya üçün yeni iqtisadi imkanlar açır. İndiyədək İtaliya şirkətləri həmin ərazidə 23 layihə həyata keçirib və keçirməkdə davam edirlər. Bu layihələr İtaliya üçün uzunmüddətli müqavilələr, investisiya və texnologiya ixracı deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyevlə İtaliyanın Baş naziri Ciorcia Meloni arasında formalaşmış konstruktiv dialoq İtaliya üçün etibarlı tərəfdaşla işləmək imkanı yaradır. Ölkəmiz regionda sabitlik amili kimi çıxış etdiyindən bu dövlət üçün risklərin idarə olunması baxımından da belə bir əməkdaşlıq əlverişlidir. İtaliya isə Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrində körpü rolunu oynayır ki, bu da rəsmi Romanın Avropa İttifaqı daxilində diplomatik çəkisini artırır.

### Avropa İttifaqındakı güclü tərəfdaş

İtaliya ilə münasibətlərin inkişafı ölkəmizin Avropa məkanına inteqrasiya strategiyasında da mühüm rol oynayır. İlk növbədə İtaliya Azərbaycanın Avropadakı ən böyük iqtisadi tərəfdaşlarından biridir. Enerji sahəsində əməkdaşlıq dövlətimizin beynəlxalq mövqelərini daha da gücləndirir. Azərbaycan qazının "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya, o cümlədən İtaliyaya ixracı bir tərəfdən ölkəmizin etibarlı enerji təchizatçısı kimi imicini möhkəmləndirir, digər tərəfdən də uzunmüddətli gəlirliliyini təmin edir.

İtaliya ilə tərəfdaşlıq Azərbaycanın siyasi manevr imkanlarını da genişləndirir. Aİ daxilində nüfuzlu ölkə olan İtaliya ilə sıx əlaqələr bu münasibətlərdə mühüm dayaq rolunu oynayaraq Azərbaycanın Avropa institutları ilə dialoqunu daha effektiv edir. İtaliya Azərbaycanla Avropa İttifaqı arasında dialoqun gücləndirilməsinə dəstək verən əsas tərəfdaşlardan biridir.

Eyni zamanda İtaliya şirkətlərinin Azərbaycanda, xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi layihələr ölkənin bərpa və inkişaf prosesinə ciddi töhfə verir. Müasir texnologiya, memarlıq və idarəetmə təcrübəsinin transferi Azərbaycanın iqtisadi modernləşməsinə xidmət göstərir.

Mingəçevirdə həyata keçirilən sənaye və enerji layihələrində, həmçinin Zəfər muzeylərinin layihələndirilməsində də İtaliyanın memarlıq və mühəndislik şirkətləri yaxından iştirak ediblər. Bu əməkdaşlıq iqtisadi əhəmiyyəti ilə yanaşı, estetik və mədəni dəyərlərin inteqrasiyasını da təmin edir.

Ölkələrimiz arasında hərbi-texniki sahədə də ciddi əməkdaşlıq mövcuddur. Son dövrlər Azərbaycan müdafiə nazirinin İtaliyaya səfəri bu əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımlardan sayıla bilər. Azərbaycan Hərbi Hava Qüvvələri üçün İtaliyadan yük təyyarələrinin alınması bu əməkdaşlığın konkret nəticələrindəndir. Bununla yanaşı, müdafiə sənayesi və hərbi texnologiyalar sahəsində də əməkdaşlıq perspektivləri genişdir.

Azərbaycan-İtaliya münasibətlərində humanitar əməkdaşlıq xüsusi yer tutur. ADA Universiteti nəzdində İtaliya ali təhsil proqramlarının tətbiqi və ümumilikdə İtaliya universitet modelinə əsaslanan təhsil təşəbbüsləri bu sahədə yeni mərhələnin başlanğıcıdır.

Hazırda bu proqramlar çərçivəsində Azərbaycanda 500-dən çox tələbə təhsil alır. Bu isə iki ölkə arasında uzunmüddətli intellektual və mədəni körpünün formalaşmasına xidmət edir. Prezident İlham Əliyev: "Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir". Mədəniyyət sahəsində də qarşılıqlı tədbirlər, sərgilər və layihələr vasitəsilə əlaqələr daha da möhkəmlənir.

### Yeni perspektivlər

2026-cı ilin yanvarında Azərbaycan və İtaliya arasında hökumətlərarası komissiyanın növbəti iclasının keçirilməsi iqtisadi və texniki əməkdaşlığın daha sistemli inkişafına xidmət edir. Bu mexanizm tərəflər arasında layihələrin koordinasiyası və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloni mətbuata bəyanatında xüsusi qeyd etmişdir: "2026-cı ilin ikinci yarısında burada - Bakıda biznes-forum təşkil etməyi planlaşdırmışıq ki, siyasi əməkdaşlığımızı müəssisələrimiz, işçilərimiz üçün konkret fürsətlərə çevirək".

Bütövlükdə Azərbaycan ilə İtaliya arasında münasibətlər çoxşaxəli və strateji xarakter daşıyır. Liderlər arasında davamlı və etimada əsaslanan dialoq bütün sahələrdə əməkdaşlığın inkişafına müsbət təsir göstərir.

Baş nazir Ciorcia Meloninin Azərbaycana səfəri bu münasibətlərin daha da dərinləşəcəyinin göstəricisidir. İtaliya bu gün Avropa İttifaqı məkanında Azərbaycanın ən yaxın tərəfdaşlarından biri olaraq qalır və mövcud dinamika göstərir ki, yaxın gələcəkdə bu əməkdaşlıq daha geniş miqyas alacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Enerji əməkdaşlığı üzərində qurulan iqtisadi tərəfdaşlıq

Azərbaycan və İtaliya arasında iqtisadi əməkdaşlıq getdikcə genişlənir. Bu istiqamətdə əlaqələr bir sıra sahələri əhatə etsə də, öndə enerji tərəfdaşlığıdır. Məlumdur ki, İtaliya xeyli vaxtdır Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşlarından birinə çevrilib, bu sahədə ikinci yerdədir.

Son illərin ən möhtəşəm meqalayihələrindən olan "Cənub qaz dəhlizi"nin axırıncı məntəqəsi də məhz İtaliyadır. Yəni bu dəhliz Azərbaycandan başlayaraq Gürcüstanın,Türkiyənin, Yunanıstanın, Albaniyanın ərazisindən və Adriatik dənizinin altından 3500 kilometr yol keçərək İtaliya torpağına çatır və orada ölkənin qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.



"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) ölkələrimiz arasında enerji əməkdaşlığını möhkəmləndirən vacib amildir. Bu kəmər 2020-ci il dekabrın 31-dən qaz nəql edir və İtaliyanın enerji təhlükəsizliyinə öz töhfəsini verir. Təkcə keçən il TAP-la İtaliyaya 10 milyard kubmetr qaz ixrac olunub. Ümumilikdə isə "Cənub qaz dəhlizi" ilə İtaliyaya 50 milyard kubmetrə yaxın qaz nəql edilib.




Xatırladaq ki, ölkəmizlə Avropa İttifaqı arasında əldə edilən razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. Bu həcmin Avropaya ixrac edilməsində "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi - TAP-ın da rolu böyük olacaq. Onu da deyək ki, indi bu dəhliz yeni interkonnektorlarla şaxələnir və nəticədə Azərbaycandan qaz alan ölkələrin də sayı getdikcə artır.

Ümumilikdə Azərbaycandan 16 ölkə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya qaz alır. Göründüyü kimi, bunların 10-u Avropa İttifaqına üzv dövlətlərdir.

Təsadüfi deyil ki, yüksək səviyyədə Azərbaycan-İtaliya görüşlərində həmişə enerji sahəsində ikitərəfli əməkdaşlıqdan məmnunluq ifadə edilir, bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, kəmərin İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunulur, xəttin ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparılır.

Bu il mayın 4-də İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloninin ölkəmizə səfəri çərçivəsində də bu mövzu diqqət mərkəzində olub. Məlum olduğu kimi, Prezident İlham Əliyev və ali qonaq mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı öz bəyanatında deyib: "Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun üçün təbii ki, "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir".

Bundan əlavə, İtaliyanın "Eni S.P.A" şirkəti ilə SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında əməkdaşlıq mövcuddur. İki il əvvəl dövlətimizin başçısı İtaliyada olarkən "Eni S.P.A" şirkətinin baş icraçı direktoru ilə görüşündə də neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı məsələlər müzakirə edilmişdi.

Qeyd edək ki, "Eni"ni Azərbaycanda yaxşı tanıyırlar. "Əsrin müqaviləsi" çərçivəsində ölkəmizdə aparılan işlərin müxtəlif mərhələlərində bu şirkət fəal iştirak edib. Ən mühüm faktlardan biri də budur ki, "Eni" Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin səhmdarlarından biridir və layihədə 5 faizlik iştirak payına malikdir.

İki ildir "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu" mövcuddur. 2024-cü ildə həmçinin "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu" da mübadilə edilib. Həmin vaxt mübadilə edilən sənədlər sırasında "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu" da özünə yer alıb.

İtaliyanın "Ansaldo Energia" şirkəti Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının tikintisində fəal iştirak edib. Sifariş əsasında "Ansaldo Energia" tərəfindən hazırlanan, ümumi çəkisi 3 min tondan çox olan qaz turbinləri və generatorlar, o cümlədən köməkçi avadanlıq ikinci logistika marşrutu ilə İtaliyadan Bakı limanına çatdırılıb. Hər birinin çəkisi 300 və 400 tondan artıq olan yüklərin qabariti böyük olduğundan Mingəçevirə qədər yolboyu körpülərin altı qazılıb və keçid təmin ediləndən sonra yollar bərpa olunub.

Azərbaycan Respublikası Dövlət Neft Fondu son bir neçə il ərzində İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub. İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin ölkəmizə səfəri çərçivəsində bu sərmayələrin yeni layihələrə cəlb edilməsi məsələləri də müzakirə olunub.

İtaliya şirkətlərinin də Azərbaycanda uğurlu fəaliyyətinin çox böyük tarixi var. Hazırda ölkəmizdə İtaliyanın 130-a yaxın şirkəti fəaliyyət göstərir.

Bütün bunlar getdikcə inkişaf edən Azərbaycan-İtaliya iqtisadi əməkdaşlığının parlaq nümunələridir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



# Bakı sülh missiyasını uğurla davam etdirir

## Bölgədə normallaşma prosesinə mane olmaq istəyən qüvvələrin planları bundan sonra da fiaskoya uğrayacaq

**Bu gün Cənubi Qafqaz onilliklər boyu davam edən qanlı münaqişə ocağından sabitlik və iqtisadi tərəfdaşlıq mərkəzinə çevrilib. Bu tarixi dəyişimin memarı olan Azərbaycan həm döyüş meydanında, həm də diplomatiya masasında nümayiş etdirdiyi qətiyyətlə regionda de-fakto sülh mühitini formalaşdırıb. Mayın 4-də Ermənistanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısına videobağlantı formatında qoşulan Prezident İlham Əliyevin mesajları Bakının sülh gündəliyinə sadiqliyini və yeni əməkdaşlıq modelini dünyaya bir daha bəyan etdi: "Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub".**

### Barışın real nəticələri

Azərbaycanın sülhə gedən yolu heç də asan olmayıb. Otuz ilə yaxın müddətdə Bakı münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, danışıqlar yolu ilə həlli üçün sonsuz səbir və səy nümayiş etdirdi. Lakin qarşı tərəfin qeyri-konstruktiv yanaşması regionu uzun müddət müharibə zonası kimi saxladı.

Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi və Azərbaycan Ordusunun hərbi gücü sayəsində BMT Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalan qətnamələri icra edildi, separatçılığa son qoyuldu və ölkəmizin suverenliyi tam təmin olundu. Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbə bütün regionun rahat nəfəs almasına şərait yaradan "sülh qalası"nın təməli oldu.

Azərbaycan və Ermənistan arasında münasibətlər artıq kağız üzərindəki bəyanatlardan real əməli addımlara keçib. 2025-ci ilin avqustunda Vaşinqtonda imzalanan Birgə Bəyannamə və sülh sazişi mətninin paraflanması bu prosesin hüquqi əsası olub.

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında çıxışı zamanı sülhün insanların gündəlik həyatındakı real faydalarını konkret faktlarla diqqətə çatdırdı: "Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib".

Bu, düşmənçilik səhifəsinin bağlandığının və ticarət münasibətlərinin bərpasının ən bariz göstəricisidir. Bu mühüm məqamı diqqətə çatdıran Azərbaycan Prezidenti dedi: "Sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər".

Bu layihələr Cənubi Qafqazı qlobal logistik mərkəzə çevirməklə yanaşı, iqtisadi inteqrasiyanı sülhün qarantına çevirir.

### Qərəzli qətnamələr nəyə xidmət edir?

Azərbaycanın həmin sülhsevər və qurucu fəaliyyəti fonunda bəzi beynəlxalq təsisatların qərəzli yanaşması ciddi narahatlıq doğurur. Xüsusilə Avropa Parlamenti (AP) və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayiş etdirdiyi mövqe sülh prosesinə dəstək deyil, ona maneə kimi qiymətləndirilir.

Avropa Parlamentinin cari il aprelin 30-da ölkəmizlə bağlı qəbul etdiyi növbəti qərəzli qətnamə bu qurumun reallıqdan nə qədər uzaq düşdüyünün növbəti sübutudur. Həmin tarixdə qəbul edilmiş qətnamədə növbəti dəfə ölkəmizə qarşı əsassız və qərəzli müddəalar, həqiqətdən uzaq iddialar yer alıb.

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısındakı çıxışında yuxarıda adıçəkilən qurumların ikili standartlarını sərt tənqid edərək vurğuladı: "İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı il aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir".

Dövlətimizin başçısı diqqətə çatdırdı ki, bu qərəzli qətnamələrin ən sonuncusu bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edilib: "Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib".

Bu nümunələrin özü də göstərir ki, Cənubi Qafqazın daim münaqişə ocağı olaraq qalmasında maraqlı olan AP kimi ikilistandartlı qurumlar hələ də Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirləri zamanı əldə etdiyi qələbələri həzm edə bilmirlər.

Onların qərəzli qətnamələri və manipulyasiyaları bölgədə sülhün bərqərar olunmasına maneçilik törədən xarici qüvvələrin əlində alətə çevrilir. Buna cavab olaraq Azərbaycanın Avropa Parlamenti ilə bütün əlaqələri dayandırması rəsmi Bakının milli maraqlarını və suverenliyini hər şeydən üstün tutduğunun göstəricisidir.

Eyni zamanda postmünaqişə dövründə bölgədə normallaşmaya nail olmaq üçün ölkəmizin atdığı real addımlar Azərbaycanın sülh gündəliyinə sadiqliyini bariz şəkildə ortaya qoyur.

Azərbaycanın irəli sürdüyü sülh gündəliyi bu gün dünyada mövcud olan digər münaqişələr üçün unikal model rolunu oynaya bilər. Bu model göstərir ki, sülhə yalnız siyasi iradə, qarşılıqlı iqtisadi maraqlar və humanitar dəyərlərin harmoniyası ilə çatmaq olar.

Prezident İlham Əliyevin 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin Zirvə görüşünün Azərbaycanda keçirilməsi təklifi və onun Ermənistan tərəfindən də dəstəklənməsi Cənubi Qafqazın gələcəyinin sülhdə olduğunun ən aydın mesajıdır.

Göründüyü kimi, maneə olmaq istəyən bütün qüvvələrə baxmayaraq, Azərbaycan öz sülh missiyasını uğurla davam etdirir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Regionun gələcək inkişaf modelini müəyyən edən strateji yol xəritəsi

## Prezidentin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışı Cənubi Qafqazın yeni siyasi-iqtisadi arxitekturasını ortaya qoydu

**Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar fonunda rəsmi Bakı Qərb institutlarının regiondakı fəaliyyətinə dair öz prinsipial mövqeyini hər zaman ən yüksək səviyyədə bəyan edib. Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra bəzi Avropa strukturlarının nümayiş etdirdiyi qərəzli yanaşma sülh gündəliyinə xidmət etmək əvəzinə mövcud etimad mühitinə ciddi zərbə vurur. Bu kontekstdə dövlət başçısının son bəyanatları beynəlxalq təşkilatların fəaliyyətindəki ikili standartlara qarşı diplomatik etirazın kulminasiya nöqtəsi hesab oluna bilər.**

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısındakı videobağlantı formatında çıxışı Cənubi Qafqazda formalaşan yeni siyasi-iqtisadi arxitekturanın aydın mənzərəsini ortaya qoyur. Bu çıxış, sadəcə, cari diplomatik vəziyyətin təsviri deyil, eyni zamanda regionun gələcək inkişaf modelini müəyyən edən strateji yol xəritəsidir. Dövlət başçısı regional sülh prosesinin əldə etdiyi real nəticələri diqqətə çatdırmaqla yanaşı, beynəlxalq institutların bu həssas prosesə münasibətdə sərgilədiyi fərqli və bəzən ziddiyyətli yanaşmaları dəqiqliklə ifşa etdi.



K.Bayramov qeyd edib ki, sammitin ən diqqətçəkən və gələcək üçün ümidverici məqamlarından biri Ermənistanın 2028-ci ildə "Avropa Siyasi Birliyi" Zirvə görüşünün Azərbaycanda keçirilməsinə dəstək verməsi oldu: "Bu faktı sadə bir formal diplomatik jest kimi deyil, postmünaqişə dövründə qarşılıqlı etimadın formalaşmasının ilkin və fundamental əlaməti kimi qiymətləndirmək lazımdır. Xüsusilə tərəflərin cəmi doqquz aydır sülh şəraitində yaşadıqlarını nəzərə alsaq, belə bir dəstəyin nümayişi regionda münasibətlərin normallaşması istiqamətində mühüm psixoloji və siyasi dönüş nöqtəsidir. Bu yanaşma həm də Azərbaycanın irəli sürdüyü "tarazlı platforma" prinsipinin regional səviyyədə qəbul edildiyini və mənimsənildiyini sübut edir. Sülh prosesinin yalnız siyasi bəyanatlarla məhdudlaşmadığı, onun konkret iqtisadi dividendlərlə müşayiət olunduğu da dövlətimizin başçısının çıxışında xüsusi çəkiyə malik idi".

Deputat vurğulayıb ki, Azərbaycanın konstruktiv addım ataraq Ermənistan üçün tranzit məhdudiyyətlərini aradan qaldırması regional əməkdaşlıq sisteminin real əsaslarının formalaşdığını göstərir. Qısa müddət ərzində 28 min ton yük daşınmasının təmin edilməsi sülhün, sadəcə, siyasi terminologiya olmadığını, həm də iqtisadi rifah və tərəfdaşlıq demək olduğunu praktikada nümayiş etdirdi. Beləliklə, Azərbaycanın liderliyi ilə həyata keçirilən bu siyasət regionu qarşıdurma məkanından çıxararaq, qarşılıqlı maraqlara söykənən sabitlik zonasına çevirir.

K.Bayramov diqqətə çatdırıb ki, bu müstəvidə "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" adı altında irəli sürülən nəqliyyat təşəbbüsü strateji çəkisi ilə ön plana çıxır: "Azərbaycanın əsas hissəsini Naxçıvanla əlaqələndirəcək bu xətt eyni zamanda Orta dəhlizin mühüm halqası kimi Avrasiyanın logistika xəritəsində tamamilə yeni bir dinamika formalaşdırır. Layihənin əhəmiyyəti regional hüdudları aşaraq qlobal miqyasda mühüm ticarət arteriyasına çevrilməsindədir. Ermənistan üçün isə bu marşrut onilliklərdir davam edən iqtisadi təcriddən xilas olmaq və beynəlxalq bazarlara inteqrasiya etmək şansı deməkdir. Beləliklə, sülh prosesi ilk dəfə olaraq tərəflərə konkret iqtisadi dividendlər vəd edən real bir mexanizmə çevrilir. Buna baxmayaraq, regional inkişaf fonunda bəzi Avropa institutlarının nümayiş etdirdiyi fərqli və ziddiyyətli yanaşmalar ciddi suallar doğurur. Dövlət başçısının çıxışında Avropa Komissiyasının konstruktiv mövqeyi təqdir edilsə də, Avropa Parlamenti və AŞPA-nın fəaliyyətinə qarşı olduqca sərt və kəskin tənqidi fikir ifadə olundu. Bakının əsas arqumenti ondan ibarətdir ki, bu təsisatlar regionda yaranmış yeni reallıqları obyektiv qiymətləndirmək əvəzinə siyasi qərəzə və ikili standartlara söykənərək sülh prosesinə dəstək deyil, maneə yaradan qərarlara imza atırlar. Xüsusilə 2023-cü ildə Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsindən sonra AŞPA tərəfindən tətbiq edilən məhdudiyyətlər rəsmi Bakı tərəfindən aşkar "selektiv yanaşma" kimi xarakterizə olunur".

Deputat deyib ki, Avropa Parlamentinə ünvanlanan tənqidlərin mərkəzində isə məhz bu qurumun qəbul etdiyi əsassız qətnamələr dayanır. Qısa zaman kəsiyində qəbul edilmiş çoxsaylı qərəzli sənədlər artıq institusional səviyyəyə çatmış subyektiv münasibətin bariz göstəricisidir. Burada əsas arqument ondan ibarətdir ki, Avropa Parlamenti öz daxilindəki fundamental problemləri həll etmək əvəzinə xarici siyasət gündəliyi üzərindən populist mövqe sərgiləməyə üstünlük verir. Nəticə etibarilə Azərbaycan parlamentinin bu qurumla əməkdaşlığı dayandırmaq qərarı xarici diplomatik təzyiqlərə qarşı verilmiş qətiyyətli institusional cavabdır.

Deputat vurğulayıb ki, bütün bu ziddiyyətli proseslərə rəğmən Azərbaycan sülh gündəliyinə sadiq qalaraq öz xarici siyasət kursunun ana xəttini dəyişməz saxlayır: "Dövlət başçısının çıxışının yekun hissəsində xüsusi vurğulanan bu məqam Bakının strateji prioritetinin qarşıdurma deyil, məhz bərabərhüquqlu əməkdaşlıq üzərində qurulduğunu bir daha təsdiq edir. Ermənistan rəhbərliyinin son açıqlamaları ilə üst-üstə düşən bu mövqe, regionun gələcəyinin kənar müdaxilələrdə deyil, birbaşa dialoq və qarşılıqlı etimadda olduğunu göstərir".

K.Bayramov əlavə edib ki, hazırkı mərhələdə görünən odur ki, regional dinamika artıq geriyə dönüşü olmayan yeni bir müstəviyə daxil olub və bu prosesin əsas hərəkətverici qüvvəsi məhz praqmatik əməkdaşlıqdır. Azərbaycanın nümayiş etdirdiyi qətiyyətli mövqe və konstruktiv təşəbbüslər sübut edir ki, Cənubi Qafqazın gələcəyi kənar diktələrdə deyil, region dövlətlərinin bərabərhüquqlu tərəfdaşlığında və qarşılıqlı iqtisadi maraqlarındadır. Bakının strateji təmkinlə həyata keçirdiyi bu siyasət həm qərəzli beynəlxalq dairələrin təzyiqlərini zərərsizləşdirir, həm də regionda davamlı sülh və rifahın real təməllərini möhkəmləndirir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

*Kaya KALLAS:*

## "Azərbaycan dəyərli və etibarlı enerji tərəfdaşıdır"



**"Azərbaycan Avropa İttifaqı üçün dəyərli və etibarlı enerji tərəfdaşıdır. Xüsusilə ticarət, nəqliyyat və rəqəmsal texnologiyalar sahələrində əməkdaşlığımızın dərinləşdirilməsi üçün aşkar potensial var".**

AZƏRTAC xəbər verir ki, bu fikri Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas söyləyib.

Aİ, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əlaqələrin gücləndirilməsinin ortaq strateji maraqlara uyğun olduğunu bildirən Kaya Kallas Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə də danışıb: "Azərbaycan və Ermənistan arasında sülh prosesində irəliləyiş tarixi bir fürsətdir və bu dinamikanı qoruyub saxlamaq vacibdir. Aİ-nin bunu dəstəkləmək üçün etimad qurucu tədbirlərdən tutmuş mina təmizləmə fəaliyyətinə qədər bir sıra vasitələri vardır ki, bu sahələrdə biz artıq ən böyük donoruq".

*Siyasi ekspert:*

## "Rumıniya Cənubi Qafqazda fürsətləri qaçırır"

**Cənubi Qafqaz regionu - Azərbaycan, Gürcüstan və Ermənistan Avropa üçün alternativ enerji mənbələri, nəqliyyat dəhlizləri və Mərkəzi Asiyaya çıxış baxımından strateji əhəmiyyət daşıyır.**




AZƏRTAC xəbər verir ki, bu barədə Rumıniyanın "Cotidianul" nəşrində tanınmış siyasi ekspert Mihai İsak tərəfindən dərc olunan analitik məqalədə bildirilir.

Məqalədə vurğulanır ki, bu region Avropanın enerji təhlükəsizliyi və yeni logistik marşrutların formalaşdırılması baxımından əsas platformalardan birinə çevrilir və xüsusilə Azərbaycan bu sistemdə açar rol oynayır.

Nəşrin yazdığına görə, Rumıniya üçün Cənubi Qafqaz coğrafi baxımdan Qara dəniz vasitəsilə strateji davamı hesab oluna bilərdi. Konstansa limanı, enerji infrastrukturu və Avropa İttifaqı üzvü statusu ölkəyə Avropa ilə Xəzər regionu arasında mühüm körpü rolunu oynamaq imkanı verirdi. Lakin müəllif qeyd edir ki, Rumıniya bu potensialdan tam istifadə edə bilməyib. Baxmayaraq ki, Azərbaycan ilə strateji tərəfdaşlıq 2009-cu ildə elan olunub və tərəflər arasında onlarca ikitərəfli sənəd imzalanıb, bu əməkdaşlıq kifayət qədər real iqtisadi və enerji layihələrinə çevrilməyib.

Məqalədə xüsusi olaraq vurğulanır ki, regionda ən böyük strateji əhəmiyyətə malik ölkə məhz Azərbaycandır. Azərbaycan Xəzər hövzəsinin enerji resurslarının Avropaya çıxarılmasında əsas rol oynayır və Avropa üçün etibarlı qaz təchizatçısı kimi mövqeyini gücləndirir.

Eyni zamanda qeyd olunur ki, son illərdə Avropada alternativ enerji mənbələrinə marağın artması fonunda Azərbaycan qazına tələbat da yüksəlib və bu, ölkənin geoiqtisadi əhəmiyyətini daha da artırıb.

Analitikə görə, Rumıniya vaxtında bu istiqamətdə daha fəal siyasət aparsaydı, Xəzər regionunun enerji və nəqliyyat axınlarında daha mühüm mövqe tuta bilərdi. Lakin hazırda Azərbaycan və region üzrə digər layihələr daha çox digər Avropa bazarlarına yönəlir.

Məqalədə belə nəticəyə gəlinir ki, Cənubi Qafqazda, xüsusilə Azərbaycanın iştirakı ilə formalaşan enerji və nəqliyyat dəhlizləri Avropanın gələcək strateji arxitekturasında həlledici rol oynayacaq, bu prosesdə daha çevik davranan ölkələr üstün mövqe qazanacaq.

*Parlamentlərarası İttifaqın baş katibi:*

## "Azərbaycan və Ermənistan arasındakı irəliləyişləri dəstəkləməliyik"

*"Ermənistan və Azərbaycan arasında ticarətin və digər əməkdaşlıq sahələrinin bərpası müşahidə olunur. Eyni zamanda hər iki ölkənin icraedici hakimiyyətləri səviyyəsində əməkdaşlıq artmaqdadır. İndi Azərbaycanın və Ermənistanın parlamentləri arasında da əməkdaşlıq genişlənir. Münaqişələrin hökm sürdüyü bir regionda Azərbaycan və Ermənistan arasındakı irəliləyişləri dəstəkləməliyik. Çünki regionun digər ölkələrinin münaqişəyə daha dərindən sürükləndiyini gördüyümüz halda bu iki ölkə münaqişədən çıxır, onlar əks istiqamətdə irəliləyirlər və biz bunu yüksək qiymətləndiririk".*



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın (PAİ) baş katibi Martin Çunqonq deyib.

O, Milli Məclisin Sədri və deputatları ilə çox səmərəli müzakirələr apardığını vurğulayaraq deyib: "Biz iki qurum - PAİ və Milli Məclis arasında əməkdaşlığı müzakirə etdik və bu münasibətlərin sabit, uğurlu olduğu barədə razılığa gəldik. Biz müxtəlif sahələrdə əməkdaşlığı davam etdirmək və möhkəmləndirmək əzmindəyik. Bir neçə günlük Azərbaycan səfərimin mahiyyəti də bundan ibarətdir. Bir daha demək istəyirəm ki, mən vəzifəmdən ayrılsam da, bilirəm ki, Azərbaycan və Parlamentlərarası İttifaq arasındakı əməkdaşlıq getdikcə daha da güclənəcək. Çünki mənim xələfim də regionda həyata keçirdiyimiz bu sülh gündəliyinə tam sadiqdir".

# Azərbaycanın xarici siyasətinin uğurları



# Azərbaycan-İtaliya: Strateji tərəfdaşlığın sarsılmaz modeli

**Azərbaycanın Avropa ilə çoxşaxəli diplomatik və iqtisadi münasibətləri fonunda İtaliya ilə qurulan əlaqələr strateji əhəmiyyətinə görə fərqlənir. Bu gün tam əminliklə demək olar ki, Bakı ilə Roma arasındakı siyasi əlaqələr qarşılıqlı etimadın ən yüksək mərhələsinə yüksələrək özünün tarixi zirvəsini yaşayır.**

Bu tərəfdaşlıq artıq lokal çərçivələri aşaraq, sadəcə, iki dövlətin milli maraqlarını deyil, həm də Cənubi Qafqazdan Aralıq dənizi hövzəsinə qədər uzanan geniş bir coğrafiyanın enerji xəritəsini və təhlükəsizlik arxitekturasını köklü şəkildə formalaşdıran əsas amildir. İki ölkə arasındakı bu sarsılmaz bağ Avrasiya məkanında həm iqtisadi inteqrasiyanın, həm də siyasi sabitliyin həlledici sütununa çevrilib.

İtaliyanın Azərbaycan üçün əhəmiyyəti onun təkcə qlobal iqtisadi güc olmasından deyil, həm də regional və beynəlxalq müstəvidə nümayiş etdirdiyi prinsipial mövqedən qaynaqlanır. Belə ki, İtaliya Avropanın böyük dövlətləri və G7 üzvləri arasında Azərbaycan ilə strateji tərəfdaşlıq sənədi imzalayan ilk dövlətdir. 2020-ci ilin fevralında Roma şəhərində Azərbaycan Prezidenti və İtaliyanın Nazirlər Şurasının Sədri tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" iki ölkə arasında ən yüksəksəviyyəli siyasi sənəd olmaqla növbəti illər ərzində münasibətlərin dərinləşdirilməsi üçün yol xəritəsini müəyyənləşdirib. Bu bəyannamə, sadəcə, iqtisadi əməkdaşlığı deyil, həm də siyasi, təhlükəsizlik və humanitar sahələri əhatə edən genişmiqyaslı fəaliyyət proqramına çevrilib. Bu möhkəm təməl üzərində qurulan davamlı dialoq zamanın sınağından keçmiş və qarşılıqlı hörmətə əsaslanan strateji etimad körpüsü yaradıb.

### Azərbaycan-İtaliya dostluğu fundamental xarakter daşıyır

Ölkələrimizin liderləri arasındakı yüksəksəviyyəli etimad və müntəzəm xarakter daşıyan təmaslar Azərbaycan-İtaliya bağlarını daha çevik və nəticəyönümlü müstəviyə daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev ilə İtaliyanın Nazirlər Şurasının Sədri Ciorcia Meloni arasında formalaşan konstruktiv dialoq iki ölkənin həm regional, həm də qlobal maraqlarının strateji məqamlarda üst-üstə düşdüyünün ən aydın təzahürüdür. Bu dialoq, sadəcə, ikitərəfli məsələlərin həlli ilə məhdudlaşmır, həm də Avropanın enerji xəritəsindən tutmuş Cənubi Qafqazda sülhün bərqərar olmasına qədər geniş bir spektri əhatə edir. Kopenhagendə Avropa Siyasi Birliyi zirvəsi çərçivəsində reallaşan görüşlər və əldə olunan razılaşmalar bir daha təsdiqlədi ki, Bakı və Roma müasir dünyanın qlobal çağırışlarına və mürəkkəb geosiyasi dəyişikliklərinə qarşı vahid, koordinasiyalı mövqedən çıxış etmək iradəsinə malikdir. Belə bir yüksəksəviyyəli anlaşma tərəfdaşlığın sarsılmazlığını və gələcəyə hesablanmış perspektivlərini sığortalayan ən mühüm amildir.

İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin mayın 4-də Azərbaycana səfəri xüsusilə yaddaqalan oldu. Bu səfər təkcə işgüzar xarakter daşımır, həm də özündə ciddi siyasi və rəmzi mesajlar ehtiva edir. Səfərin xronologiyası olduqca diqqətçəkəndir: Meloninin Ermənistanda keçirilən çoxtərəfli tədbirdən dərhal sonra Bakıya gəlməsi İtaliyanın Cənubi Qafqazdakı prioritetlərini və real müttəfiqlik ünvanını aydın nümayiş etdirir. Bu səfər Azərbaycan-İtaliya dostluğunun fundamental xarakter daşıdığını təsdiqləyir. Meloni bu ziyarəti ilə İtaliyanın Azərbaycanın ərazi bütövlüyünə, regional liderliyinə və sülh gündəliyinə verdiyi dəstəyi bir daha bütün dünyaya bəyan etmiş oldu.

### Azərbaycan İtaliyanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır

Ölkələrimiz arasındakı qarşılıqlı əməkdaşlıq əlaqələri özünü bariz şəkildə enerji sektorunda da büruzə verir. Azərbaycan İtaliyanın enerji təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır və bu ölkənin enerji bazarında ikinci ən mühüm tərəfdaşı kimi çıxış edir. Xüsusilə Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə çatdırılan Azərbaycan qazı İtaliya sənayesinin və məişət sektorunun sabit fəaliyyəti üçün əvəzedilməz resursdur. 2025-ci ildə Azərbaycanın İtaliyaya təxminən 10 milyard kubmetr qaz ixrac etməsi bu mövqeyi daha da möhkəmləndirib. Ümumilikdə "Cənub qaz dəhlizi" vasitəsilə İtaliyaya çatdırılan qazın həcminin 50 milyard kubmetrə yaxınlaşması bu marşrutun İtaliya üçün nə dərəcədə həyati bir arteriya olduğunu sübut edir. Eyni zamanda Azərbaycan İtaliyaya neft ixracı sahəsində də mühüm rol oynayaraq 2-ci yerdə qərarlaşıb.

Bu sıx münasibətlər iqtisadiyyatın digər sahələrinə də sirayət edir. İtaliya şirkətləri işğaldan azad edilmiş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda, eləcə də Mingəçevirdə aparılan strateji layihələrdə üstünlük təşkil edirlər. Zəfər muzeylərinin memarlıq layihələrinin hazırlanmasında italyan dizayn məktəbinin yaxından iştirakı bu tərəfdaşlığın həm də mənəvi-mədəni körpülər üzərində qurulduğunun göstəricisidir.

### İki ölkənin müdafiə sənayesi sahəsindəki əlaqələri yeni mərhələyə yüksəlir

Digər tərəfdən ölkələrarası münasibətlərin çoxşaxəli strukturunda hərbi və hərbi-texniki sahədə əməkdaşlıq strateji prioritet kimi mühüm yer tutur. Azərbaycan müdafiə nazirinin bu günlərdə İtaliyaya reallaşdırdığı yüksəksəviyyəli səfər və keçirilən səmərəli görüşlər iki ölkənin müdafiə sənayesi sahəsindəki bağlarının yeni keyfiyyət mərhələsinə yüksəldiyini nümayiş etdirir. Bu əməkdaşlığın ən bariz və praktiki nəticələrindən biri kimi Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) arsenalının müasirləşdirilməsi məqsədilə İtaliyanın qabaqcıl texnologiyalarına əsaslanan müasir yük təyyarələrinin alınması hərbi tərəfdaşlığın daha dərin və strateji müstəviyə qədəm qoyduğundan xəbər verir. Bu addım təkcə ordumuzun logistik və operativ imkanlarını genişləndirmir, həm də İtaliyanın Azərbaycanın milli təhlükəsizlik arxitekturasında NATO standartlarına uyğun etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir. Beləliklə, hərbi sahədəki bu sıx koordinasiya siyasi müttəfiqliyi real güc amili ilə tamamlayaraq regional sabitliyin qorunmasına xidmət edir.

İki ölkə arasındakı münasibətlərin mənəvi və intellektual sütununu təşkil edən humanitar sahədə İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti xüsusi strateji əhəmiyyət kəsb edir. Artıq 500-dən çox istedadlı gəncin təhsil aldığı bu müasir bilik ocağı prioritet sahələrdə italyan innovasiya ruhunu Azərbaycanın böyük inkişaf potensialı ilə sintez edən unikal bir layihədir. Bu təhsil ocağı İtaliyanın nüfuzlu universitetlərinin zəngin təcrübəsini ölkəmizə transfer etməklə iqtisadiyyatımızın müxtəlif sektorları üçün beynəlxalq standartlara cavab verən yüksəkixtisaslı kadrlar yetişdirir. Beləliklə, İtaliya-Azərbaycan Universiteti, sadəcə, bir tədris müəssisəsi deyil, iki xalqın mədəniyyətlərini birinə daha da yaxınlaşdıran, ortaq gələcəyə hesablanmış intellektual bir körpü və humanitar əməkdaşlığın ən uğurlu nümunəsidir.

### Avrasiya məkanında sabitlik və həmrəylik modeli

Azərbaycanın Avropa İttifaqı ilə çoxşaxəli və bərabərhüquqlu əlaqələrinin dərinləşməsində İtaliya ən fəal tərəfdaş olmaqla yanaşı, həm də Brüssel ilə Bakı arasında etibarlı bir körpü rolunu oynayır. Romanın rəsmi Bakının regional təşəbbüslərinə və Avropanın enerji arxitekturasındakı strateji roluna verdiyi prinsipial dəstək ölkəmizin Aİ məkanında iqtisadi və siyasi inteqrasiyasını daha da sürətləndirir. Ölkə rəhbərləri arasındakı səmimi və qarşılıqlı hörmətə söykənən dialoq bu il keçirilən Hökumətlərarası Komissiyanın iclasında da öz praktiki bəhrəsini verib. Bu iclasda qəbul edilən qərarlar təkcə mövcud ticarət dövriyyəsini artırmaqla kifayətlənməyib, həm də qeyri-neft sektoru, "yaşıl enerji" və yüksək texnologiyalar kimi sahələrdə yeni investisiya imkanları üçün konkret yol xəritəsini müəyyən edib. Beləliklə, İtaliya ilə qurulan bu institusional əməkdaşlıq Azərbaycanın Avropanın iqtisadi sisteminə daha dərindən nüfuz etməsi üçün strateji bir platforma funksiyasını yerinə yetirir.

İtaliya bu gün Avropa İttifaqı ailəsində Azərbaycanın təkcə ən böyük ticarət tərəfdaşı deyil, həm də milli maraqlarımızın müdafiəsində çıxış edən ən sadiq strateji müttəfiqlərdən biridir. İtaliyanın Nazirlər Şurasının Sədri Ciorcia Meloninin ölkəmizə reallaşdırdığı bu tarixi səfər ikitərəfli sarsılmaz bağların keyfiyyətcə yeni və daha dinamik bir mərhələyə qədəm qoymasına misilsiz töhfə verəcək. Bu səfər həm də dünyaya bir mesajdır: Bakı və Roma arasındakı sarsılmaz tərəfdaşlıq mürəkkəb geosiyasi şəraitdə belə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq əsasında necə möhkəm ittifaq qurmağın mümkün olduğunu göstərir. Beləliklə, Azərbaycan-İtaliya münasibətləri bütövlükdə Avrasiya məkanında sabitlik, iqtisadi tərəqqi və strateji həmrəylik üçün nümunəvi, uzunmüddətli və konyunkturdan asılı olmayan bir model olaraq qalmaqdadır.

*AZƏRTAC*

# *Pakistanlı ekspert:* "BƏƏ-nin Bakı ilə əməkdaşlığı yeni enerji xəritəsinin formalaşmasında mühüm vektordur"

"Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) OPEC-dən çıxmaq qərarı təkcə neft siyasətində institusional qopmanı deyil, həm də illərdir formalaşmaqda olan üçbucaqlı strukturun tamamlanmasını ifadə edir. Bu strukturda Əbu-Dabi artıq Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi hasilatçılar klubunun, sadəcə, intizamlı bir üzvü deyil, Ər-Riyadın regional çəkisi, Vaşinqtonun təhlükəsizlik arxitekturası və Asiyanın (ilk növbədə Çin və Hindistanın) tələbata əsaslanan iqtisadi gələcəyi arasında balans yaradan çevik bir güc kimi çıxış edir. Burada "məhəbbət üçbucağı" metaforası ona görə yerindədir ki, o, rəsmi diplomatik dilin çox vaxt gizlətdiyi məqamı - qlobal siyasətin nadir hallarda yalnız loyallıq üzərində qurulduğunu əks etdirir".



Bu barədə AZƏRTAC-a Avrasiya əlaqələri, resurs diplomatiyası və dayanıqlı inkişaf sahəsində ixtisaslaşan Pakistanın geoiqtisadiyyat üzrə analitiki, politoloq İmran Bhatti bildirib.

Onun sözlərinə görə, siyasət təsir rıçaqları, vaxtın düzgün seçilməsi və eyni anda bir neçə güclü tərəfdaşın investisiya marağını qoruyub saxlamaq bacarığı üzərində qurulur.

"Bu addımın əhəmiyyətini dərk etmək üçün OPEC-in ilkin məqsədindən başlamaq lazımdır. 1960-cı ildə təsis edilmiş bu təşkilat neft siyasətini əlaqələndirmək və qiymətlərin sabitliyini təmin etmək üçün nəzərdə tutulmuşdu. BƏƏ 1967-ci ildə təşkilata qoşulub və onun neft strategiyası demək olar ki, altı onillik ərzində OPEC-in institusional DNT-sinə daxil olub. Təşkilatdan bu il mayın 1-dən qüvvəyə minən çıxış strateji seçimdir. Xüsusən də BƏƏ-nin əhəmiyyətli ehtiyat güclərə malik olan azsaylı üzvlərdən biri olduğunu nəzərə alsaq, bu addım OPEC-in qlobal təklif üzərindəki nəzarətini zəiflədir. Bu, sıradan bir oyunçunun gedişi deyil; bu, bazar nəticələrini dəyişmək üçün texniki və maliyyə potensialına malik olan əsas hasilatçının gedişidir. Dəyişən "məhəbbət üçbucağı" daxilində BƏƏ-nin Azərbaycanla münasibətlərinin dərinləşməsi əmirliklərin enerji keçidi və geosiyasi manevrləri üçün ən mühüm şimal vektoru rolunu oynayır. BƏƏ "enerji gücü" anlayışını OPEC kartelindən kənarda yenidən müəyyən etməyə çalışdığı bir vaxtda onların Bakı ilə əməkdaşlığı - ilk növbədə "Masdar" və SOCAR şirkətləri arasındakı strateji tərəfdaşlıq - transregional bağlılığa can atdıqlarını vurğulayır", - deyə ekspert qeyd edib.

İmran Bhatti deyib ki, Azərbaycan da bir çox cəhətdən BƏƏ kimi "tərəddüd edən dövlət" (swing state) mövqeyini tutur, Avropanın enerjiyə olan tələbatı ("Cənub qaz dəhlizi" vasitəsilə) ilə regional güclərlə mürəkkəb əlaqələri arasında balans yaradır. Azərbaycanın bərpaolunan enerji potensialına böyük vəsait yatırmaqla (Günəş və külək enerjisi layihələrində ilkin olaraq 4 QVt gücə nail olmaq məqsədilə) BƏƏ təkcə öz portfelini şaxələndirmir. Əbu-Dabi Xəzər regionunu Avropa İttifaqı ilə birləşdirən "yaşıl enerji" dəhlizinin əsas memarlarından biri kimi prosesə daxil olur. Bu əlaqə əmirliklərə öz təsirini Avrasiya materikinə yaymağa imkan verir və faktiki olaraq "üçbucağı" OPEC-in ənənəvi məhdudiyyətlərindən kənarda fəaliyyət göstərən daha mürəkkəb bir "güclər çoxbucaqlısı"na çevirir.

Pakistanlı ekspert əlavə edib ki, hasilat sahəsindəki ambisiyalarla kvota intizamı artıq bir-biri ilə uyğun gəlmir. BƏƏ-nin ADNOC şirkəti 2027-ci ilə qədər aşağı karbonlu neft hasilatı gücünü gündəlik 5 milyon barrelə çatdırmağı planlaşdırır. Bu resursların monetizasiyasını məhdudlaşdıran kvota sistemi çərçivəsində qalmaq artıq strateji mənasını itirir. Burada daha dərin bir məntiq də var: "sonuncu böyük monetizasiya" prinsipi. Əbu-Dabi enerji keçidinə hazırlaşmaqla yanaşı, rəqabətədavamlı karbohidrogen aktivlərindən maksimum mənfəət əldə etməyə çalışır. BƏƏ-nin 2050-ci ilə qədərki enerji strategiyası bərpaolunan mənbələrin payını üç dəfə artırmağı və "Masdar" şirkəti vasitəsilə 2030-cu ilə qədər 100 QVt təmiz enerji gücünə çatmağı hədəfləyir. Bu, "enerji gücü" hüdudlarının necə genişləndiyinin nümayişidir.

"Səudiyyə Ərəbistanı Körfəzdəki neft nizamının köhnə lövbəri olaraq qalır; Birləşmiş Ştatlar əvəzolunmaz təhlükəsizlik qarantıdır; Çin isə BRICS və geniş Asiya bazarı ilə birlikdə enerji tələbatının və infrastrukturun gələcək qütbünü təmsil edir. BƏƏ hər üç tərəf arasında hibrid bir "tərəddüd edən dövlət" kimi mövqe tutur. Onların Ər-Riyadla münasibətləri kapital və istedadlar uğrunda böyüyən bir rəqabətə çevrilir. Vaşinqtonla münasibətlər həyati əhəmiyyətini qoruyur, lakin transaksional xarakter alır. Bu, asılılıqdan çox bir növ sığorta polislidir. Eyni zamanda Çin təkcə neft almır, o, enerji saxlama texnologiyaları, hidrogen və elektromobillər vasitəsilə gələcək nəsil enerji ekosisteminə daxil olur", - deyə ekspert bildirib.

İmran Bhatti vurğulayıb ki, risklərin sığortalanmasına dair sübutlar realdır. Hindistanın neft üçün ilk ödənişi rupi ilə etməsi və maye qaz (LNG) ticarətində yuanla hesablaşmalar alternativ valyutaların beynəlmiləlləşdirilməsi istiqamətində davamlı səyləri vurğulayır. Bu hadisələr petrodolların mövqeyini bir gecədə sarsıtmayacaq, lakin seçim imkanının və ehtiyat mexanizmlərin yaradılmasını normallaşdırır: "Uzunmüddətli nəticələrə struktur baxımından zəifləmiş OPEC və bazar payı uğrunda artan rəqabət daxildir. Səudiyyə Ərəbistanı sistemin yeganə "qalıq stabilizatoru" kimi təcrid olunmuş vəziyyətə düşə bilər. Körfəz dövlətləri artıq vahid blok məntiqi ilə hərəkət etmirlər; onlar konkret maraqlara əsaslanan ittifaqlar qururlar. Pakistan üçün bu, birbaşa enerji təhlükəsizliyi, pul köçürmələri və diplomatik tənzimləmələrə aiddir. Birləmiş Ərəb Əmirliklərinin - "Biz - BƏƏ 2031" proqramı çərçivəsində logistika, maliyyə və texnologiya mərkəzinə çevrilir. İslamabad regional ödəniş sistemləri təcrübələrini öyrənməli və özünü, sadəcə, işçi qüvvəsi ixracatçısı kimi deyil, ərzaq təhlükəsizliyi, liman bağlılığı və rəqəmsal infrastruktur sahəsində tərəfdaş kimi təqdim etməlidir".

Sonda pakistanlı ekspert bildirib ki, "məhəbbət üçbucağı" metaforası bu gün hakimiyyətin eyni anda bir neçə sistemin mərkəzində qala bilənlərə məxsus olduğunu təsdiqləyir. OPEC-i tərk etməklə BƏƏ hasilat, ticarət və diversifikasiya azadlığına can atdığına dair siqnallar verir. Bu, Körfəz dövlətlərinin təsirinin daha çevik və mürəkkəb mərhələsinin başlanğıcıdır. Gələcək daxili siyasətin ardıcıllığını itirmədən, strateji çeviklik və çoxqütblü dünya ilə qarşılıqlı əlaqə qurmaq bacarığı ilə formalaşacaq.

# *Gürcüstanlı nazir:* "Biz Azərbaycan, Orta Asiya ölkələri və Çin ilə fəal çalışırıq"



"Son illər dünyada və regionumuzda baş verən hadisələr ənənəvi marşrutların nə qədər kövrək olduğunu açıq şəkildə göstərdi. Risklər artıb və yeni, etibarlı və proqnozlaşdırıla bilən dəhlizlərə tələbat yaranıb. Məhz buna görə Orta dəhliz xüsusilə vacib hala gəlib".

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili bildirib.

Onun sözlərinə görə, Gürcüstan məsuliyyəti öz üzərinə götürməyə və etibarlı tərəfdaş olmağa hazırdır ki, bu da ölkə üçün təkcə iqtisadi fürsət deyil, həm də dövlətin vəzifəsidir.

"Biz Azərbaycan, Orta Asiya ölkələri və Çin ilə fəal çalışırıq. Birgə səylərlə Orta dəhliz artıq, sadəcə, bir perspektiv deyil, həm də qlobal ticarətdə real və getdikcə rəqabətli alternativə çevrilir", - deyə Mariam Kvrivişvili vurğulayıb.

# *Muhammad Nasar HAYAT:* "Azərbaycanda FAO-nun hökumətlə əməkdaşlığı ildən-ilə güclənir"

"Biz - FAO olaraq, ərzaq təhlükəsizliyi və dayanıqlı kənd təsərrüfatının inkişafına xidmət edən "Caspian Agro Week" platformasının bir hissəsi olmaqdan məmnunuq. Builki sərgi aqro-ərzaq sektoru üçün mühüm bir dövrə təsadüf edir. Təchizat zəncirlərindəki problemlər və iqlim dəyişiklikləri fonunda dayanıqlı, innovativ və özünü təmin edən kənd təsərrüfatının əhəmiyyəti daha da artır. Bu ilin proqramı da FAO-nun mandatı və Azərbaycanın prioritetləri ilə uyğunluq təşkil edir".



AZƏRTAC xəbər verir ki, bu fikirləri BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat "Bakı-Ekspo" Mərkəzində keçirilən Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ("Caspian Agro") və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisinin ("InterFood Azerbaijan") açılış mərasimində çıxışı zamanı səsləndirib.

Onun sözlərinə görə, iqlim dəyişməsi fermerlər üçün ciddi çağırışlar yaradır.

"Buna görə səmərəli su istifadəsi, sağlam torpaqlar, rəqəmsal alətlər və müasir yanaşmalar artıq seçim deyil, zərurətdir. "Caspian Agro Week" innovasiyaların praktik həllərə çevrilməsində mühüm rol oynayır. Azərbaycanda FAO-nun hökumətlə əməkdaşlığı ildən-ilə güclənir. Birgə layihələr çərçivəsində suvarma sistemlərinin təkmilləşdirilməsi, dayanıqlı torpaq və su idarəçiliyi, kooperativlərin gücləndirilməsi və fermerlərin təlimləndirilməsi istiqamətində işlər həyata keçirilir. Bu təşəbbüslər həm məhsuldarlığın artırılmasına, həm də kənd icmalarının inkişafına xidmət edir. Kənd təsərrüfatı Azərbaycanın iqtisadi inkişafında mühüm yer tutur. FAO innovasiya, rəqəmsal transformasiya və iqlim dayanıqlılığı sahəsində fermerlərin inkişafını dəstəkləməyə davam edir. Əsl inkişaf isə yalnız birgə əməkdaşlıqla mümkündür. Hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor, akademik dairələr, fermerlər və icmalar birlikdə daha dayanıqlı və məhsuldar gələcək qurmaq üçün çalışmalıdırlar", - deyə o qeyd edib.

# İtaliya və dünya mediası Baş nazir Ciorcia Meloninin Prezident İlham Əliyev ilə Bakıda apardığı danışıqları geniş işıqlandırıb



















**İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Bakıya səfəri və onun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə keçirdiyi görüşlər, həmçinin iki liderin bəyanatları İtaliya və dünya mediasının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, "RaiNews" telekanalının reportajında və onun internet saytındakı "İtaliya-Azərbaycan. Enerji və kommunikasiya sahələrində strateji alyans" sərlövhəli materialda qeyd olunub: Ciorcia Meloni və İlham Əliyev tərəfdaşlığın möhkəmlənməsini - təkcə qaz və neft həcmləri deyil, həm də İtaliyanı Avropanın enerji mərkəzinə, Bakını isə iki qitə arasında haba çevirməyi hədəfləyən sənaye layihəsini təsdiqləyirlər".

Daha sonra qeyd olunur: "İtaliyanın enerji təhlükəsizliyi Cənubi Qafqazdan keçir. Qeyri-sabitliklə xarakterizə olunan beynəlxalq kontekstdə Ciorcia Meloni ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında Bakıda keçirilən görüş, karbohidrogenlərin sadə tədarükündən daha kənara çıxan bir vektorun mərkəziliyini bir daha təsdiqləyir.

"RaiNews" Ciorcia Meloninin sözlərini sitat gətirib: "İtaliyaya qaz və neftin ixracı Ukraynaya qarşı Rusiyanın təcavüzkar müharibəsi başladıqdan sonra şərəflə təmsil etdiyim ölkənin enerji təhlükəsizliyində müəyyənedici amil rolunu oynayır. Bu əlaqələrin möhkəmləndirilməsi barədə aydın şəkildə söhbət apardıq. Biz nəinki təchizat həcmləri, xüsusilə bütün sahələr üzrə sənaye tərəfdaşlığının keyfiyyəti üzərində çalışmalıyıq. Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır. Aydındır ki, bu cür plan sərmayələri, uzunmüddətli proqramları, ölkələrimizdə istehsal və sənaye sistemlərimizin ən münasib imkanlarının bir araya gətirilməsini tələb edir. Bu səbəbdən biz 2026-cı ilin ikinci yarısında burada, Bakıda biznes-forum təşkil etməyi planlaşdırmışıq ki, siyasi əməkdaşlığımızı müəssisələrimiz, işçilərimiz üçün konkret fürsətlərə çevirək".

"Agencia Nova" Agentliyinin saytında dərc olunmuş geniş məqalədə qeyd olunur ki, enerji məsələsi hər iki liderin əsas müzakirə mövzusu olub. İlham Əliyev TAP layihəsinin mərkəziliyini və onun inkişafının davam etdirilməsinin vacibliyini vurğulayıb. Agentlik dövlətimizin başçısının sözlərini sitat gətirib: "Biz bu layihəni artıq genişləndirə bilmişik, amma addımlarımızı davam etdirməliyik".

"Ciorcia Meloni isə xatırladıb ki, Rusiya Ukraynaya qarşı müharibənin başlanğıcından bəri Azərbaycandan İtaliyaya qaz və neft tədarükü milli enerji təhlükəsizliyi üçün "həlledici" olub", -deyə agentlik yazıb. Daha sonra İtaliyanın hökumət başçısının aşağıdakı fikirləri təqdim edilib: "Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır. Aydındır ki, bu cür plan sərmayələri, uzunmüddətli proqramları, ölkələrimizdə istehsal və sənaye sistemlərimizin ən münasib imkanlarının bir araya gətirilməsini tələb edir".

Məqalədə diqqətə çatdırılır ki, ikinci mərkəzi addım iqtisadi və sənaye ölçüsü ilə bağlıdır. "Prezident Əliyev İtaliya bazarını Azərbaycan üçün çox maraqlı adlandırıb. O xatırladıb ki, İtaliyaya qoyulan Azərbaycan investisiyaları indiyə qədər üç milyard dollar təşkil edir. Meloni bu yanaşmanı bölüşərək həm İtaliyaya qoyulan mühüm Azərbaycan investisiyalarını, həm də İtaliya şirkətlərinin Bakının inkişaf planlarına olan marağını xatırladıb. O bildirib ki, strateji inkişaf planlarında, 360 dərəcə modernləşdirmədə iştirak etməkdə son dərəcə maraqlı olan bir çox İtaliya şirkəti var", - deyə agentliyin materialında vurğulanır.

"Secoli dItalia" qəzetində dərc olunmuş məqalədə qeyd olunur ki, İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Bakıya səfəri bu ölkənin enerji təhlükəsizliyində mühüm rola malik olan Azərbaycan ilə əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli hadisədir. Nəşr yazır ki, hökumət başçısının Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü çox məhsuldar olub. Ciorcia Meloni xüsusi olaraq vurğulayıb: "Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir".

Rəsmi ANSA İnformasiya Agentliyi, "Agenzia CULT", "Agenzia vista", "Domani", "la Repubblica", "ItalPress", "la Gazetta del Mezzogiorno", "Crema Oggi", "Lecodelsud", "ilNordEst", "Messagerro", "il Mattino", "il Sole", la Sentinella", "GDVNews", "La Provincia", "Motori", "Reggio", "Trentino","Sream24" mətbuat orqanlarının dərc etdiyi materiallarda İtaliyanın hökumət başçısının Azərbaycan Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşlər keçirdiyi, həmçinin iki liderin mətbuata birgə bəyanatla çıxış etdiyi vurğulanır. Diqqətə çatdırılır ki, Xəzərdən enerji tədarükünün dəyəri İrandakı müharibə və Hörmüz boğazına qoyulan embarqo səbəbindən eksponensial olaraq artıb ki, bu da Avropanı Azərbaycan kimi neytral ölkələrdə sabitlik axtarmağa sövq edib. İsrail, Rusiya, İran və AB ilə münasibətləri birbaşa münaqişələrə qarışmadan qoruya bilən Bakının mövqeyi təhlükəsizlik lövbəri rolunu oynayır. "Buna görə də Ciorcia Meloninin missiyası onun özünün uzunmüddətli olaraq müəyyən etdiyi, enerji böhranlarına epizodik yanaşmanın aradan qaldırılması vizyonunun bir hissəsidir. Azərbaycan təkcə qaz deyil, həm də neft təchizatında əsas strateji tərəfdaş kimi özünü təsdiqləyib. Cənub dəhlizinin sabitliyi və yeni təchizat müqavilələri üçün bazar sınaqlarının həyata keçirilməsi İtaliyanın ənənəvi marşrutların qlobal müharibə qeyri-sabitliyi ilə təhdid edildiyi bir vaxtda bütün Avropa üçün təhlükəsiz enerji qapısı olmaq vədini yerinə yetirmək qabiliyyətini müəyyən edəcək".

İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Azərbaycana səfəri dünyanın digər mətbuat orqanlarının da diqqət mərkəzində olub.

ABŞ-nin "Bloomberg" agentliyinin və "Energynewsbeat" nəşrinin "İtaliya enerji təchizatında Azərbaycan ilə daha yaxın əlaqələr qurmaqda maraqlıdır" sərlövhəli məqaləsində qeyd olunub ki, Ciorcia Meloninin Azərbaycan Prezidenti ilə görüşündə davam edən qlobal fasilələr fonunda tədarükü təmin etmək üçün İtaliyanın daha geniş strategiyasının bir hissəsi olaraq iki ölkə arasında enerji əməkdaşlığını dərinləşdirmək qərara alınıb. "Meloni hazırda İtaliyanın qaz idxalının 16 faizini və neft tədarükünün 17 faizini təşkil edən Azərbaycan qazı və neftini Rusiyanın 2022-ci ildə Ukraynaya tammiqyaslı işğalından bəri ölkənin enerji təhlükəsizliyi üçün "vacib" adlandırıb. O, İran müharibəsinin yaratdığı son təchizat sıxıntısını həll etmək üçün "bu tərəfdaşlığı dərinləşdirməyə" söz verib", - deyə Amerika mətbuatı yazır. Diqqətə çatdırılır ki, bu səfər İtaliyanın bərpaolunan enerji mənbələrinə keçid dövründə etibarlı idxalı qoruyan dəyişkən mənbələrdən uzaqlaşmaq üçün aqressiv enerji diplomatiyasını vurğulayır.

Türkiyənin "Anadolu" Agentliyi, həmçinin "Haberglobal", "Haberler.com", "Ekoturk", "Orta Doğu Gazetesi", "Eplis Haber.com" mətbuat orqanları da İtaliyanın hökumət başçısının Azərbaycan Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşləri, həmçinin iki liderin mətbuata birgə bəyanatları ilə bağlı materiallar dərc edib. Məqalə və reportajlarda Prezident İlham Əliyev və Baş nazir Ciorcia Meloninin sitatları təqdim olunub.

Bundan başqa, Venesuelanın "Confirmado", Pakistanın "The Gulfobserver", Qətərin QNA rəsmi Xəbər Agentliyi, İranın "ycr.ir" portalları da İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin Bakıya səfəri və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirdiyi görüşlər, həmçinin iki liderin bəyanatları haqqında materiallar dərc ediblər.

# Dünya mətbuatı Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışını işıqlandırmaqda davam edir












**Dünyanın aparıcı mətbuat orqanları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışını işıqlandırmaqda davam edir.**

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının "Commonspace.eu" nəşri dövlətimizin başçısının çıxışının tam mətnini dərc edib.

Türkiyənin "Hürriyet" qəzetinin "Prezident Əliyevdən Ermənistana barış mesajı" sərlövhəli məqaləsində Azərbaycan-Ermənistan münasibətlərində faktiki sülh mühitinin yarandığı diqqətə çatdırılır, iqtisadi və nəqliyyat əməkdaşlığı üzrə ilk addımların atıldığı qeyd olunur. "İlham Əliyev bildirib ki, Azərbaycan Ermənistana 12 min ton neft məhsulları ixrac edib, həmçinin öz ərazisindən 28 min ton yükün tranzitini asanlaşdırıb", - deyə nəşr yazır.

Məqalədə həmçinin Azərbaycanın dövlət başçısının Avropa institutları, xüsusilə Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana münasibətdə ikili standartlar tətbiq etməsi barədə fikirləri də yer alıb. Materialda Azərbaycanın öz mövqeyini daha sərt və prinsipial şəkildə beynəlxalq auditoriyaya çatdırdığı vurğulanır. Qeyd olunur ki, Prezident İlham Əliyev Avropa Parlamentinin və AŞPA-nın Azərbaycana qarşı qəbul etdiyi qətnamələri "təhqir və yalanlarla dolu" adlandıraraq onları açıq şəkildə tənqid edib.

Qardaş ölkənin "TRT World", "Akşam", "Cumhuriyet", "Haber Global", "Star", "Aydınlık", "Yeşil İğdır", "Mersin Haber", "Haber 1", "Ankahaber" media orqanları da Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışından əsas məqamları dərc edib.

İranın "Tasnim" Xəbər Agentliyi, "Şafaqna" və "Xabarpru" portalları da Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışını işıqlandırıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti bazar ertəsi günü Avropa Parlamentini Azərbaycanla Ermənistan arasındakı sülh prosesini sabotaj etməkdə ittiham edib. "İlham Əliyev İrəvanda keçirilən Zirvə toplantısında videobağlantı vasitəsilə çıxışında bildirib ki, Avropa Parlamenti son beş ildə Bakıya qarşı təhqiramiz tonda 14 qətnamə qəbul edib", - deyə İran mediası yazır.

Misirin "NDB Masr" nəşri, Yəmənin "Saba" və Livanın NNA xəbər agentlikləri, "Leboanon files" portalı, Qazaxıstanın "Ulısmedia" qəzeti, Tacikistanın "Xabarixuş" saytı da dövlətimizin başçısının "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışına geniş yer verib. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində irəliləyişlərin olduğunu vurğulayıb və bunu konkret iqtisadi və nəqliyyat addımları ilə əsaslandırıb. Həmçinin Azərbaycan Prezidentinin Avropa Parlamenti və digər qurumların qəbul etdiyi qətnamələri kəskin tənqid etdiyi və bu yanaşmanın ədalətsiz olduğunu bildirdiyi də diqqətə çatdırılıb.

# *Şalva PAPUAŞVİLİ:* "Cənubi Qafqaz Avropa ilə Asiya arasında mühüm birləşdirici halqadır"

**"Cənubi Qafqaz Avropa ilə Asiya arasında mühüm birləşdirici halqadır. Məhz buna görə də Avropa İttifaqının siyasəti anlaşılmazdır. Onların, məsələn, Gürcüstana münasibətdə yanaşmaları "öz ayağına atəş açmağa bənzəyir".**



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili söyləyib.

Onun sözlərinə əsasən, Brüsselin siyasəti təkcə Gürcüstana münasibətdə deyil, qlobal miqyasda qarışıqdır. "Avropa İttifaqı qlobal siyasətdəki rolunu faktiki olaraq tamamilə itirib. Görürük ki, artıq böyük qlobal məsələlərdə ondan soruşmurlar və hətta regional məsələlərdə də çox vaxt söz demək imkanı olmur. Gürcüstan və ümumilikdə region Avropa İttifaqını onun iqtisadiyyatı üçün vacib olan resurslar və marşrutlarla birləşdirən bir halqadır və bu iqtisadiyyat hazırda durğunluq yaşayır", - deyə Şalva Papuaşvili bildirib.

# *Rumıniya nəşri:* Qlobal enerji bazarında baş verən dəyişikliklər Azərbaycanın iştirak etdiyi layihələrin əhəmiyyətini artırır

**Qlobal enerji bazarlarında baş verən dəyişikliklər fonunda neft yenidən geosiyasi alət kimi ön plana çıxıb və bu proses dünya iqtisadiyyatına ciddi təsir göstərir.**




"Brent" markalı neftin qiyməti qısa müddətdə 125 dolları ötdükdən sonra yenidən azalıb. Bununla yanaşı, Yaxın Şərqdə baş verən proseslər, xüsusilə mühüm enerji marşrutlarının fəaliyyətində yaranan məhdudiyyətlər qlobal təchizat zəncirinə təsir edir.

AZƏRTAC xəbər verir ki, Rumıniyanın "Economedia" portalında dərc olunan analitik məqalədə qeyd olunur ki, bu proseslər fonunda Avropa ölkələri enerji təchizatını diversifikasiya etməyə çalışır və bu istiqamətdə Azərbaycan kimi etibarlı tərəfdaşların rolu daha da artır.

Qeyd olunur ki, Azərbaycan həm enerji ixracatçısı, həm də alternativ marşrutların əsas iştirakçısı kimi Avropanın enerji təhlükəsizliyində mühüm mövqe tutur.

Məqalədə vurğulanır ki, qlobal enerji bazarında baş verən dəyişikliklər neftin geosiyasi təsir aləti kimi rolunu tədricən zəiflətsə də, yeni enerji və nəqliyyat marşrutlarının, o cümlədən Azərbaycanın iştirak etdiyi layihələrin əhəmiyyətini daha da artırır və bu ölkəni beynəlxalq enerji sistemində əsas oyunçulardan birinə çevirir.

# Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası

## Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib





**Mayın 5-də "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib.**

Tədbirdən öncə Bakı Slavyan Universitetinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Sonra BSU-nun Heydər Əliyev adına muzey-lektoriyasında YAP sıralarına yeni qəbul olunmuş tələbə-gənclərlə görüş keçirilib və onlara partiyaya üzvlük vəsiqələri təqdim olunub.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının Media Qrupunun hazırladığı "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş videoçarx nümayiş olunub.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsinin hesabatını təqdim edib. O bildirib ki, artıq ənənə halını almış Rəqəmsal İdeya Müsabiqəsinə hər il gənclərin diqqəti daha da artmaqdadır: "Belə ki, bu il sayca 4-cü dəfə keçirilən müsabiqəyə respublikanın 65 inzibati ərazi vahidindən ümumilikdə 1418 müraciət daxil olub. Qeydiyyatdan keçən gənclər arasından ən uğurlu 120 iştirakçı seçilib. İştirakçıların seçimi zamanı gender bərabərliyi də əsas prinsiplərdən biri olaraq götürülüb".

Z.Musayevanın sözlərinə görə, 30-dan çox təhsil müəssisəsini və 20-dən çox şəhər və rayonu təmsil edən gənclər komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar: "Rəqəmsal İdeya Müsabiqəsinin başlıca məqsədləri Prezident İlham Əliyevin gənclərin qarşısına qoyduğu strateji hədəflərə uyğun olaraq intellektual, innovativ düşüncəyə malik gənc liderlərin formalaşdırılmasına töhfə vermək, gəncləri şəhərsalma və memarlıq sahəsində tətbiq olunan müasir yanaşma və alətlərlə tanış etmək, o cümlədən cəmiyyətə faydalı texnoloji həllərin tətbiq olunmasını təşviq etməkdir. Bu məqsədlə 2 gün davam edən təlim və layihə proqramı çərçivəsində süni intellektə giriş, pitç texnikaları və təqdimat bacarıqları, ideya konseptinin işlənməsi və məhsul dizaynı kimi mövzularda təlimlər, o cümlədən gənclər siyasətində texnoloji inkişafın dəstəklənməsi, data əsaslı şəhər planlaması, "ağıllı" dizayn yanaşmaları kimi mövzularda ekspert görüşləri və panel müzakirələr təşkil olunub. "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" adlandırdığımız Rəqəmsal İdeya Müsabiqəsində bu gün komandalarımız 9 saat ərzində mentorlarla birgə "Tikdim ki, izim qala!" adlı komanda katalizatoru, "Köhnə kəndə yeni adət" adlı süni intellekt vörkşopu, "Bir qalanın sirri" adlı intellekt rinqi, o cümlədən panel müzakirəsi, ideya müsabiqəsi və layihələrin təqdimatından ibarət 6 mərhələli yarışda iştirak ediblər".

Sonra Rəqəmsal İdeya Müsabiqəsinin hesabat videoçarxı təqdim edilib.

Tədbirdə çıxış edən Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizdə şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin keçmişini nəzərə almaqla mühüm tarixi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Bakı şəhəri müasir şəhərsalma mədəniyyətinin bariz nümunəsini təşkil edir: "Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sistemli siyasət nəticəsində şəhərimizin qədim tarixi ənənələri elm, texnologiya və innovasiyaların cəmləşdiyi mükəmməl şəhər modelini səciyyələndirir".

Rektor qeyd edib ki, Bakının evsahibliyi edəcəyi növbəti mötəbər tədbirlərdən biri 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) olacaq: "2024-cü ildə şəhərimizdə keçirilmiş COP29 və bir çox digər tədbirlərdə olduğu kimi, "WUF13"-də də yüz milyonlarla insanın gündəlik həyatına təsir edəcək qərarların qəbul ediləcəyi şübhəsizdir. Danılmaz reallıqdır ki, Bakı siyasi və beynəlxalq əhəmiyyəti ilə bərabər tarixilik, müasirlik və innovasiyaların mərkəzi olaraq dünyanın qlobal siyasət, mədəniyyət və inkişaf paytaxtlarından birinə çevrilib".

A.Nağıyev deyib ki, keçirilən müsabiqənin əsas məqsədi ənənəvi Azərbaycan memarlıq dəyərlərinin müasir şəhərsalma texnologiyaları ilə harmonik şəkildə birləşdirilməsidir: "Burada rəqəmsal həllərin, 3D modelləşdirmənin və innovativ planlaşdırma metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma şəhər mühitinin daha funksional, ekoloji və estetik baxımdan inkişafına şərait yaradır".

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müasir dövrdə şəhərsalma yalnız infrastruktur quruculuğu deyil, həm də milli kimliyin qorunması, sosial rifahın yüksəldilməsi və davamlı inkişaf prinsiplərinin tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır: "Qlobal urbanizasiya prosesi, sürətli texnoloji tərəqqi və günümüzün ekoloji çağırışları ilə əlaqədar meydana çıxan yeni yanaşmalar fonunda Azərbaycan ənənə ilə müasirliyin vəhdətini uğurla təmin edən nadir ölkələrdən biri kimi çıxış edir. Ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən genişmiqyaslı quruculuq işləri davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi xüsusi önəm daşıyır".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın müasir siması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə sıx bağlıdır: "Ulu Öndər istər SSRİ dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman şəhərsalma siyasəti strateji prioritetlərdən biri kimi müəyyənləşdirilərək paytaxt Bakıda və respublikanın bütün bölgələrində milli-mənəvi dəyərlərə əsaslanan, tarixi yaddaşı qoruyan və gələcəyə yönələn məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Tarixi abidələrin qorunması, milli ənənələrin yaşadılması, çağdaş memarlıq üslublarının tətbiqi nəticəsində şəhərlərin simasında harmoniyanın yaradılması Azərbaycanı regionda və daha geniş coğrafiyada fərqləndirən mühüm amillərdən biri olmuşdur. Heydər Əliyev siyasətini bütün istiqamətlərdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr paytaxt Bakının modernləşməsinə və regionların sosial-iqtisadi inkişafına təkan verməklə şəhərsalma təcrübəsi baxımından mütərəqqi nümunə yaratmış və tarixi irsimizin gələcək nəsillərə ötürülməsinə etibarlı zəmin formalaşdırmışdır".

"Bu gün Bakı dünyanın ən gözəl və müasir şəhərlərindən biri kimi tanınır. Bir tərəfdə əsrlərin yaddaşını yaşadan tarixi məkanlar, digər tərəfdə isə müasir memarlıq inciləri - bu harmonik vəhdət Bakını unikal şəhərə çevirmişdir. Paytaxtımızın beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi, turistlər üçün cəlbedici məkana çevrilməsi də aparılan məqsədyönlü siyasətin nəticəsidir. Bunlarla yanaşı, hazırda işğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış proqramı"nın mühüm tərkib hissəsi kimi innovativ yanaşmalar əsasında "ağıllı şəhər" konsepsiyası uğurla həyata keçirilməkdədir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarın qəbulu Azərbaycanın dayanıqlı inkişaf siyasətinə, o cümlədən beynəlxalq müstəvidə şəhərsalma prosesinə töhfələrinə verilən yüksək qiymətin bariz göstəricisidir" , - deyə YAP Sədrinin müavini əlavə edib.

Tahir Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası hər zaman ölkəmizin inkişafına yönəlmiş təşəbbüslərlə çıxış etmişdir: "Partiya Ümummilli Liderin ideyalarını rəhbər tutaraq dövlətçiliyin möhkəmləndirilməsində və siyasi sabitliyin qorunmasında mühüm rol oynayır. YAP cəmiyyətin bütün təbəqələrini, o cümlədən gəncləri öz sıralarında birləşdirərək ölkəmizin gələcəyi naminə mühüm layihələr həyata keçirir. Bu gün inam və qürurla qeyd edirik ki, milli-mənəvi dəyərlərə sadiq və möhkəm əqidəli Azərbaycan gəncliyi müxtəlif sahələrdə yüksək fəallıq nümayiş etdirir və respublikamızı beynəlxalq arenada layiqincə təmsil edir".

YAP Sədrinin müavini bildirib ki, artıq ənənə halını almış və innovativ ideyaların təşviqi üçün mühüm platforma olan Rəqəmsal İdeya Müsabiqəsi gənclərimizin istər intellektual potensialının üzə çıxarılması, istər ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, istərsə də kommunikasiya bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb edir: "Burada təqdim olunan layihələr təsdiqləyir ki, Azərbaycan gəncliyi yüksək intellektə, geniş dünyagörüşünə və dövrün çağırışların adekvat müasir düşüncə tərzinə malikdir. Rəqəmsallaşma bu gün dünyanın inkişaf istiqamətlərini müəyyən edən əsas amillərdən biridir. Şəhərsalma və memarlıq sahəsində rəqəmsal texnologiyaların tətbiqi isə resurslardan daha səmərəli istifadə olunmasına və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir. Bu baxımdan, müsabiqə çərçivəsində irəli sürülən ideyalar gələcəkdə real layihələrə çevrilərək ölkəmizin inkişafına güclü təkan verə bilər. Bu gün bağlanış mərhələsinin keçirildiyi bu intellektual yarışmada iştirak edən bütün gəncləri ürəkdən təbrik edirəm. Əslində, müsabiqəyə qatılan hər bir komanda özünü qalib hesab edə bilər. Çünki belə kreativ platformalarda təmsil olunmaq Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə sonsuz inamın birmənalı ifadəsidir. İnanıram ki, hər biriniz öz bilik və bacarığınızla Azərbaycanın gələcək inkişafında önəmli rol oynayacaqsınız".

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında bildirib ki, bu müsabiqə gənclərin innovativ potensialına göstərilən yüksək diqqətin və dövlətin gələcəyə baxışının real ifadəsidir. Onun sözlərinə görə, gənclər siyasəti dövlətlərin inkişaf strategiyalarının mərkəzində dayanır: "Qlobal səviyyədə gənclər artıq şəhərsalma gündəliyinin formalaşmasında əsas maraqlı tərəflərdən biri kimi çıxış edir. Onların ideyaları, yanaşmaları və texnoloji bacarıqları şəhərlərin gələcək inkişaf trayektoriyasını müəyyən edir. Bu yanaşma təsadüfi deyil. Hazırda dünya əhalisinin təqribən 55 faizi şəhərlərdə yaşayır. Urbanizasiya sürətlə davam edən qlobal prosesdir və 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Sürətli urbanizasiya şəhərlərlə bağlı əhalinin artan tələbatının qarşılanması, iş yerlərinin yaradılması, müasir şəhər xidmətlərinin təmin edilməsi və ekoloji tarazlığın qorunması kimi mürəkkəb çağırışları ön plana çıxarır".

Dövlət Komitəsinin sədri vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərin ümumi planı, həmin ərazilərdə yerləşən 12 şəhərdən 8-nin baş planı, eləcə də 101 qəsəbə və kənd yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədləri hazırlanaraq təsdiq olunub: "Bu sənədlər vətəndaşlarımızın geri dönüşü üçün müasir və təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasına, həmçinin həmin ərazilərdə tikinti fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqəti və nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyalarına əsaslanan sosial ədalətli və dayanıqlı məskunlaşma modeli qurulmaqda, eyni zamanda zəruri yol-nəqliyyat, elektrik, qaz, su, təhsil, səhiyyə və yaşayış infrastrukturu ardıcıl şəkildə bərpa edilməkdədir. Nəticədə artıq 41 yaşayış məntəqəsinə köç təmin olunub, həmin ərazilərdə təqribən 33 min nəfərə yaxın məcburi köçkün olmaqla, ümumilikdə 81 mindən çox insanın yaşaması, işləməsi və təhsil alması təmin edilib".

A.Quliyev əlavə edib ki, Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bir neçə mühüm mesaj verir: "Şəhərsalma ölkənin inkişaf strategiyasının mərkəzində dayanır, bu sahədə keyfiyyətcə yeni mərhələyə keçid baş verir, gələcəyin şəhərlərinin formalaşdırılması prioritet istiqamət kimi müəyyən edilir. Bakının bu ay evsahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası xüsusi əhəmiyyət kəsb edir. Ümumdünya Şəhərsalma Forumu BMT-nin Məskunlaşma Proqramı tərəfindən təşkil olunan və şəhərsalma sahəsində ən böyük, ən inklüziv və ən nüfuzlu qlobal platforma hesab olunur. Bu günə qədər artıq 175 ölkədən təqribən 27 min iştirakçı qeydiyyatdan keçib və bu proses davam edir".

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Rəqəmsal İdeya Müsabiqəsinin gənclərin intellektual inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu deyib: "Bugünkü Azərbaycan gəncliyi daha bacarıqlı və rəqabətədavamlıdır. Təbii ki, hər bir nəsil müqayisədə bir addım irəli ata bilirsə, məhz bu halda biz inkişafdan danışa bilirik".

Nazir bildirib ki, növbəti nəsillər dövlət müstəqilliyinin qorunub saxlanılmasında, Azərbaycanın daha da inkişaf etməsində öz üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirə biləcəklər: "Ölkəmizdə COP29 keçirilərkən həmin tədbirdə iştirak edən dövlət və hökumət başçıları bu konfransın təşkilatçılığına cəlb edilmiş Azərbaycan gənclərinin bacarıqlarını xüsusi olaraq vurğulayırdılar".

Emin Əmrullayev söyləyib ki, bir neçə gündən sonra ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası keçiriləcək: "Bu mötəbər tədbir Azərbaycanın bir daha dünya miqyasında tanınması baxımından önəmli təşəbbüsdür. İnanıram ki, tədbirlə əlaqədar qarşıda duran müxtəlif vəzifələrlə yanaşı, bu, Azərbaycan gəncliyi üçün öyrənmək, özünü qlobal arenada rəqabətədavamlı olduğunu nümayiş etdirmək üçün növbəti bir imkandır. Məhz müxtəlif ali təhsil müəssisələrində təhsil alan və yaxud da məzun olmuş tələbələrin və gənc mütəxəssislərin bu forumdan əsaslı şəkildə bəhrələnəcəyinə əminlik ifadə edirəm. İnanıram ki, bu faktor onlar üçün ömür boyu davam edəcək bir təcrübəyə çevriləcəkdir".

Elm və təhsil naziri qeyd edib ki, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ali təhsil müəssisələrinin uğurlu nəticələrini uzun müddət ölkəmizin inkişafına təsir edən mühüm amil kimi xatırlayacağıq: "Bu, təbii ki, ilk növbədə kadr hazırlığı məsələsidir. Bu yaxınlarda Azərbaycan Memarlıq və İnşaat Universitetinin yubileyi qeyd olunub. Xüsusilə bu ali təhsil ocağının məzunlarının şəhərsalma və memarlıq sahəsində rolunu vurğulamaq lazımdır. Amma eyni zamanda şəhərlər haqqında danışarkən aydın olur ki, bu, yalnız memarlıq məsələsi deyil. Burada çox geniş şəhərdə birgə yaşayış və urbanizasiyanın müasir tələblərinə cavab verən insanların istər sosial-mədəni davranışları, istər onların gündəlik həyatının təşkili, istərsə də böyük şəhərlərin idarəetməsində logistik məsələlərdən söhbət gedir. Yəni bu tipli fərqli məsələlərin həlli müxtəlif səpkili kadrları tələb edir. İnanıram ki, Azərbaycan məktəbləri və ali təhsil müəssisələri gələcək nəsillərin hazırlanmasında qarşıya qoyulmuş vəzifələrə nail ola biləcəklər".

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov qeyd edib ki, Rəqəmsal İdeya Müsabiqəsi gənclərin innovativ düşüncəsini, texnoloji bacarıqlarını və komanda ruhunu inkişaf etdirmək baxımından olduqca əhəmiyyətlidir.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyev gənclərin intellektual və innovativ potensialının inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir və bu sahədə ardıcıl dəstək siyasəti həyata keçirir: "Bu yanaşma öz əksini Azərbaycan gənclərinin inkişafı strategiyasında və müvafiq dövlət proqramlarında aydın şəkildə tapır. Bu strategiyalar çərçivəsində gənclərin sahibkarlıq, məşğulluq və şəxsi inkişaf sahələrində hərtərəfli dəstəklənməsi üçün mühüm imkanlar yaradılmışdır. Xüsusilə, bu proqramlar regionlarda yaşayan gənclərin bərabər imkanlardan faydalanmasını təmin etməyə yönəlib. Gənclər və İdman Nazirliyi olaraq biz il ərzində gənclərin ideyalarının dəstəklənməsi istiqamətində müxtəlif layihələr həyata keçiririk. Bu istiqamətdə dövlət və özəl sektor tərəfdaşları ilə birgə müxtəlif proqramlar reallaşdırırıq və gələcəkdə bu dəstəyi daha da genişləndirməyi planlaşdırırıq. Bu sırada hakatonlar, ideya müsabiqələri və startap yönümlü forumlar xüsusi yer tutur".

Sonra "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsinin qalibləri mükafatlandırılıb. I yerin qalibi "Zəngəzur", II yerin qalibi "İçərişəhər", III yerin qalibi "İsmailiyyə" komandaları, "Bir qalanın sirri" intellektual oyunun qalibi isə "İsa Bulağı" olub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Daha sonra Bakı Slavyan Universitetinin tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

# Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir



**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir" mövzusunda tədbir keçirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Yeni Azərbaycan Partiyasının (YAP) birgə təşkil etdiyi tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Veteranlar Şurasının üzvü, akademik Misir Mərdanov və başqaları iştirak ediblər. Nazirliyin tabeliyində olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən tədbirin iştirakçıları görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolardan, mərkəzin benefisiarlarının Ulu Öndərə həsr edilmiş əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Nazir Anar Əliyev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafı naminə misilsiz tarixi xidmətlərini diqqətə çatdırıb. Bildirib ki, Ulu Öndər vətəndaş rifahının təminatını dövlət siyasətinin başlıca istiqamətlərindən biri kimi müəyyən edib. 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması üçün Ulu Öndər Heydər Əliyev tərəfindən 60-dan artıq sənəd imzalanıb. Həmin dövrdə pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfədən çox artıb. Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin möhtərəm Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində ölkəmiz böyük nailiyyətlər əldə edib, möhtəşəm tarixi Zəfər qazanıb. Sosial sahədə də mühüm addımlar atılır və dövlətimizin başçısının tapşırıqları ilə son 7 ildə 5 böyük sosial islahat paketi icra olunub.

Ulu Öndərin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti də xalqa, dövlətə xidmət məramına söykənir. Prezident cənab İlham Əliyevin sədri olduğu partiya ölkəmizin dinamik və hərtərəfli inkişafı proseslərində böyük xidmətlər göstərir.

Tahir Budaqov bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ilk növbədə ölkədə dərin sosial-iqtisadi böhranın aradan qaldırılmasına nail olub, iqtisadi sabitliyi təmin etməklə yanaşı, sosial sahədə əsaslı islahatların təməlini qoyub. Ulu Öndərin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilib. Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə sosial siyasətin institusional əsasları yaradılıb, cəmiyyətin bütün təbəqələri dövlət qayğısı ilə əhatə olunub. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikri sosialyönümlü siyasətin əsasını təşkil edir.

YAP-ın proqramında da sosialyönümlü siyasətin əsas istiqamətlərdən biri olduğunu qeyd edən Tahir Budaqov partiyanın Ulu Öndərin ideyalarına sadiq qalaraq sosial ədalət, vətəndaş rifahı, güclü dövlət prinsiplərinin həyata keçirilməsində fəal iştirak etdiyini bildirib.

Musa Quliyev müstəqil Azərbaycan dövlətinin sosial inkişaf strategiyasının müəllifi olan Ümummilli Lider Heydər Əliyevin əhalinin sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O, Ulu Öndərin tapşırıqları əsasında ölkənin sosial qanunvericilik bazasının yaradılması üçün aparılan işlərdən bəhs edib. Misir Mərdanov Ümummilli Lider Heydər Əliyevin sosial sahənin, milli təhsil sisteminin inkişafı naminə göstərmiş olduğu xidmətləri diqqətə çatdırıb.

Daha sonra nazirliyin 64 əməkdaşına YAP-ın üzvlük vəsiqələri təqdim edilib. Nazirlik sistemi üzrə YAP üzvləri olan əməkdaşların sayının 5500-ə yaxın olduğu qeyd olunub. Partiyaya yeni üzv qəbul edilən əməkdaşlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını ifadə ediblər.

Sonda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarlarının ifalarından ibarət inklüziv konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

# "Azərbaycan Mədəniyyəti - 2040": İncəsənətin inkişafı ilə bağlı dövlət proqramı hazırlanır



**Mayın 5-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan Mədəniyyəti - 2040" konsepsiyasının icrası çərçivəsində "İncəsənətin inkişafına dair dövlət proqramı layihəsinin hazırlanması" yarımbəndinin həyata keçirilməsi məqsədilə yaradılmış komissiyanın ilk iclası, eləcə də proqram üzərində çalışan İşçi qrupun növbəti toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda mədəniyyət naziri Adil Kərimli, kollegiyanın üzvləri, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, müvafiq ali təhsil ocaqlarının, yaradıcılıq təşkilatlarının rəhbər və nümayəndələri, tanınmış mədəniyyət xadimləri, nazirliyin tabe qurumlarının rəhbərləri iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli çıxışında dövlət proqramının əhəmiyyətindən və qarşıda duran hədəflərdən danışıb. Nazir bildirib ki, iqtisadiyyat və təhsil sahələrinin qarşılıqlı əlaqəsi çərçivəsində təhsilin əsas istiqamətləri üzrə dövlət proqramlarının effektiv tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda yaradıcılığın inkişafı, yaradıcı məhsulların təşviqi və bu sahədə mövcud problemlərin aradan qaldırılması əsas prioritetlərdəndir.

"Bununla yanaşı, infrastruktur məsələləri də diqqətdə saxlanılmalıdır. Nəzərdə tutulan layihələr çərçivəsində hər sahəyə uyğun xüsusi yanaşmalar tətbiq edilməli, əlavə infrastruktur obyektlərinin yaradılması zamanı bu amillər nəzərə alınmalıdır. Bütün bu istiqamətlər üzrə dövlət proqramlarının sistemli və məqsədyönlü şəkildə həyata keçirilməsi zəruridir", - deyə nazir vurğulayıb.

İclasda çıxış edən "Azərbaycan Mədəniyyəti - 2040" konsepsiyasının icrası üzrə İşçi qrupu rəhbərinin müavini Ayaz Müseyibov konsepsiyanın əsas istiqamətləri barədə geniş məlumat verib.

O qeyd edib ki, ölkədə elmi-mədəni mühitin formalaşdırılması, milli-mədəni dəyərlərin qorunması və təbliği xüsusi önəm daşıyır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə mədəni həyatın bərpası və bu bölgələrdə mədəniyyətin yenidən canlandırılması prioritet istiqamətlərdəndir. Bu sahədə dövlət qurumları tərəfindən ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

"Əsas çağırışlardan biri mədəniyyət və incəsənət sahəsində sistemli inkişafın təmin edilməsidir. Eyni zamanda təhsil infrastrukturunun inkişafı, müasir təhsil metodlarının tətbiqi və incəsənət sahəsində nəticəyönümlü qiymətləndirmə mexanizmlərinin formalaşdırılması xüsusi diqqət tələb edir. Bu sahədə mövcud vəziyyət təhlil olunacaq və inkişaf strategiyaları müəyyən ediləcək", - deyə Ayaz Müseyibov bildirib.

Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri, İşçi Qrupun sədri İntiqam Babayev incəsənətin inkişafı ilə bağlı dövlət proqramının hazırlanması üzrə İşçi qrupunun cari fəaliyyəti, görülən işlər və planlaşdırılan növbəti addımlar barədə məlumat verib.

O bildirib ki, hazırda proqram çərçivəsində sahə üzrə mövcud vəziyyətin təhlili aparılır, prioritet istiqamətlər müəyyənləşdirilir və aidiyyəti qurumlarla sıx əməkdaşlıq şəraitində təkliflər toplanır. Eyni zamanda incəsənətin müxtəlif sahələri üzrə inkişaf modelinin formalaşdırılması, yaradıcı mühitin gücləndirilməsi və peşəkar kadr potensialının artırılması istiqamətində işlər davam etdirilir.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu çıxışında vurğulayıb ki, bu istiqamətdə dövlət qurumlarının, müvafiq nazirliklərin, eləcə də sənət adamlarının fəal iştirakı vacibdir. Onun sözlərinə görə, qarşıda duran vəzifələr kifayət qədər genişdir və proqramların hazırlanması və icrası operativ, məqsədyönlü şəkildə həyata keçirilməlidir.

İclasda həmçinin Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, eləcə də Xalq artistləri Fəxrəddin Manafov, Şəfiqə Məmmədova və digər natiqlər çıxış edərək sənədin mədəniyyətin inkişafı baxımından strateji əhəmiyyətini vurğulayıblar.

Qeyd edilib ki, belə konsepsiyalar mədəniyyət sahəsində sistemli inkişafın təmin olunması, yaradıcı mühitin genişləndirilməsi və gənc istedadların üzə çıxarılması baxımından mühüm rol oynayır. Eyni zamanda sənət adamlarının təklif və təşəbbüslərinin nəzərə alınması gələcək inkişaf üçün vacib platforma yaradır.

Kino sahəsi ilə bağlı çıxış edən sənət adamları qeyd ediblər ki, bu istiqamət mədəniyyətin ən mühüm və təsirli sahələrindən biridir. Onların fikrincə, Azərbaycan kinosunun inkişafı, yeni nəsil rejissor və aktyorların formalaşması, eləcə də müasir texnologiyaların kinoya inteqrasiyası xüsusi diqqət tələb edir.

Çıxış edən natiqlər bildiriblər ki, "Azərbaycan Mədəniyyəti - 2040" konsepsiyasının icrası mədəniyyət və incəsənət sahəsində sistemli inkişafın təmin olunmasına, yaradıcı mühitin genişləndirilməsinə və milli-mədəni dəyərlərin daha effektiv şəkildə qorunub təbliğ edilməsinə mühüm töhfə verəcək.

Vurğulanıb ki, bu prosesin uğurla həyata keçirilməsi üçün peşəkar kadr potensialının gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Mədəniyyət sahəsində ixtisaslı və təcrübəli kadrların hazırlanması, onların müasir bilik və bacarıqlarla təmin olunması gələcək inkişafın əsas şərtlərindən biri kimi qiymətləndirilib.

Eyni zamanda dövlət qurumları, sənət adamları və yaradıcı ictimaiyyət arasında əməkdaşlığın daha da gücləndirilməsinin, təklif və təşəbbüslərin nəzərə alınmasının proqramın səmərəli icrasına xidmət edəcəyi bildirilib.

Daha sonra Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri, İşçi qrupun sədri İntiqam Babayev incəsənətin inkişafı ilə bağlı dövlət proqramının hazırlanması üzrə İşçi qrupun cari fəaliyyəti, görülən işlər və planlaşdırılan növbəti addımlar barədə məlumat verib.

Çıxışlar müvafiq sahələr üzrə fəaliyyətin nəticələrini əks etdirən slayd-təqdimatla müşayiət olunub.

# Azərbaycan nümayəndə heyəti AİB-in illik toplantısı çərçivəsində işgüzar görüşlər keçirib

**Mayın 5-də Özbəkistanın Səmərqənd şəhərində keçirilən Asiya İnkişaf Bankının (AİB) İllik Toplantısı çərçivəsində Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev "Qlobal dəyər zəncirlərinin, texnologiya və inklüziv artımın dəyişdirilməsi" mövzusunda keçirilən rəhbərlər şurasının plenar sessiyasında iştirak edib.**



İclasda qlobal dəyər zəncirlərində texnoloji transformasiya, regional inteqrasiyanın dərinləşdirilməsi və iqtisadi dayanıqlığın gücləndirilməsi məsələləri müzakirə olunub. Qeyd edilib ki, avtomatlaşdırma, süni intellekt və rəqəmsal texnologiyalar istehsal və təchizat zəncirlərini sürətlə dəyişdirir, xidmət sektorunun rolunu artırır və bu proses yeni çağırışlar yaradır.

Eyni zamanda inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirlərinə daha effektiv inteqrasiyası üçün bacarıqların inkişafı, infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşma və maliyyəyə çıxışın genişləndirilməsinin vacibliyi qeyd edilib. Bu kontekstdə regional əməkdaşlığın gücləndirilməsi və təchizat zəncirlərinin şaxələndirilməsi vasitəsilə iqtisadi dayanıqlığın artırılmasında AİB-in aparıcı rolu vurğulanıb.

İllik toplantının üçüncü günündə Azərbaycanın maliyyə naziri S.Babayev Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili ilə görüşüb. Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın yüksək səviyyədə olduğu vurğulanıb, institusional əməkdaşlıq çərçivəsində Hökumətlərarası Komissiyanın ikitərəfli əməkdaşlığın əlaqələndirilməsi və prioritet istiqamətlərin inkişaf etdirilməsi baxımından mühüm platforma olduğu bildirilib.

S.Babayev qeyd edib ki, nəqliyyat və tranzit sahəsində əməkdaşlıq, xüsusilə Asiya ilə Avropanı birləşdirən Orta dəhliz çərçivəsində Bakı-Tbilisi-Qars dəmir yolu və digər logistika marşrutları regional ticarətin genişlənməsinə və təchizat zəncirlərinin dayanıqlığının güclənməsinə mühüm töhfə verir. Nazir bu sahədə tranzit siyasəti üzrə koordinasiyanın gücləndirilməsinin vacibliyini vurğulayıb. O həmçinin strateji regional enerji layihələrinə toxunaraq bildirib ki, Xəzər-Qara dəniz-Avropa "Yaşıl Enerji" Dəhlizi və Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan enerji dəhlizi regional əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır və bu layihələrin icrasının sürətləndirilməsi, eləcə də beynəlxalq maliyyələşmənin cəlb edilməsi prioritet istiqamətlərdəndir.

Görüş zamanı həmçinin dövlət maliyyəsi sahəsində həyata keçirilən islahatlar, fiskal dayanıqlığın gücləndirilməsi, dövlət-özəl tərəfdaşlığı mexanizmləri və beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, regional layihələr üzrə koordinasiyanın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Tərəflər yaxın zamanlarda iki ölkənin Maliyyə nazirlikləri arasında əməkdaşlığa dair memorandumun hazırlanaraq imzalanması barədə razılıq əldə ediblər.

Maliyyə nazirinin müavini Himalay Məmişovun Çin Xalq Respublikasının Maliyyə Nazirliyinin nümayəndələri ilə görüşündə isə Azərbaycan və Çin arasında münasibətlərin dinamik inkişafı yüksək qiymətləndirilib, ikitərəfli əlaqələrin siyasi etimad, həmçinin energetika, nəqliyyat və rəqəmsal transformasiya sahələrində artan əməkdaşlığa əsaslandığı vurğulanıb. Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli platformalar, o cümlədən AİB çərçivəsində Çin ilə tərəfdaşlığın daha da möhkəmləndirilməsində maraqlı olduğu qeyd edilib. Eyni zamanda regionda nəqliyyat-logistika bağlantılarının gücləndirilməsi, dayanıqlı inkişaf və regional inteqrasiya gündəliyinə Azərbaycanın sadiqliyi bir daha ifadə olunub.

Görüşdə Azərbaycanın sənaye zonalarında Çin şirkətlərinin daha fəal iştirakı, istehsalat və "yaşıl texnologiya"lar, rəqəmsal iqtisadiyyat və logistika sahələrində əməkdaşlıq imkanlarının genişləndirilməsinin ölkəmizin strateji maraqlarına uyğun olduğu və bu istiqamətdə tərəfdaşlıq layihələrinin reallaşdırılmasının vacibliyi vurğulanıb.

H.Məmişov Çinin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu qeyd edib. O bildirib ki, Azərbaycan ilə Çin arasında iqtisadi-ticari əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur. Qeyd olunub ki, xüsusilə ixracın diversifikasiyası və qeyri-neft sektorunda ticarət dövriyyəsinin artırılması qarşılıqlı münasibətlərin əsas inkişaf istiqamətlərindən biri kimi çıxış edir.

Çin tərəfi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının İnkişaf Bankına mümkün üzvlük məsələsinin nəzərdən keçirilməsini xahiş edib.

H.Məmişovun Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) baş investisiya direktoru Konstantin Limitovski ilə keçirilən görüşündə isə Azərbaycan ilə AİİB arasında əməkdaşlığın uğurla davam etdiyi qeyd olunub. Bankın Azərbaycanın infrastrukturunun inkişafı və "yaşıl keçid" sahələrində əsas beynəlxalq maliyyə tərəfdaşlarından biri kimi çıxış etdiyi vurğulanıb.

Maliyyə nazirinin müavini bildirib ki, Azərbaycan 2016-cı ildən AİİB-in təsisçi üzvü kimi bankla əməkdaşlığını uğurla davam etdirir və bu əməkdaşlıq "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə tam uyğun olaraq ölkənin strateji inkişaf hədəflərinin reallaşdırılmasına xidmət edir. Eyni zamanda 2025-ci ilin sentyabrında imzalanmış Birgə Bəyannaməyə sadiqlik bir daha ifadə olunub.

Görüşdə AİİB-in maliyyələşdirdiyi layihələr, o cümlədən TANAP qaz kəməri, "Bankə" və "Biləsuvar" günəş-elektrik stansiyaları və digər layihələr üzrə müvafiq maliyyələşmələrin təmin olunduğu diqqətə çatdırılıb.

Tərəflər həmçinin Bakı metrosunun genişləndirilməsi, dayanıqlı infrastruktur, "yaşıl enerji", iqlim maliyyələşdirilməsi, dövlət-özəl tərəfdaşlığı və rəqəmsal infrastruktur kimi prioritet sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb, maliyyələşdirmə alətlərinin diversifikasiyası və regional əməkdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

Toplantı çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvləri, həmçinin AİB-in Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramı çərçivəsində keçirilən "Turizmlə regionların əlaqələndirilməsi" adlı tədbirdə iştirak ediblər.

AİB-in Azərbaycan üzrə ölkə direktoru xanım Sünniyə Durrani-Camalın moderatorluğu ilə keçirilən sessiyada bildirilib ki, turizm sektorunun qlobal ÜDM-də payı hazırda təxminən 10 faiz təşkil edir və bu göstəricinin 2030-cu ilə qədər CAREC regionunda 13 faizə çatdırılması üçün böyük potensial mövcuddur. Bu məqsədə nail olmaq üçün region ölkələri arasında koordinasiyalı fəaliyyətin vacibliyi vurğulanıb.

Qeyd olunub ki, turizmin inkişafı baxımından region ölkələrinin müqayisəli üstünlüklərinin müəyyən edilməsi, regionu əhatə edən vahid turizm marşrutlarının formalaşdırılması, bu marşrutlar üzrə vahid viza mexanizmlərinin tətbiqi və sərhədkeçid proseslərinin sadələşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda turizm sahəsində rəqəmsal alətlərin geniş tətbiqi və regionun vahid turizm məkanı kimi təşviqi istiqamətində addımların atılmasının zəruriliyi diqqətə çatdırılıb.

Bununla yanaşı, özəl sektorun turizm sahəsində fəallığının artırılması və bu istiqamətdə əlverişli biznes mühitinin yaradılması vacib amillərdən biri kimi qeyd edilib.

Tədbir çərçivəsində həmçinin AİB-in region ölkələrinə turizm sektorunun inkişafı və regional inteqrasiyanın gücləndirilməsi istiqamətində dəstək göstərməyə hazır olduğu bildirilib.

*"Azərbaycan"*

# Paytaxtın abad məhəllələrində basketbol yarışları başa çatıb

**Bakı Şəhər İcra Hakimiyyəti, Regional İnkişaf İctimai Birliyi və Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan Bakı şəhərinin rayonlarını əhatə edən məhəllələrarası 3x3 basketbol turnirinə yekun vurulub.**

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən bildirilib ki, 2011-2012-ci il təvəllüdlü yeniyetmələr arasında keçirilən, 2 mərhələdən ibarət olan turnirin keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərdə idmana marağın artırılması, onlara sağlam həyat tərzinin təbliği, eyni zamanda gündəlik fəaliyyətlərini daha səmərəli qurmalarına dəstək olmaqdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın qəsəbə və yaşayış məntəqələrində həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yaradılan abad məhəllələrdəki stadionlarda təşkil edilən yarışlar olimpiya sistemi üzrə keçirilib və yarışda ümumilikdə 600-ə yaxın gənc idmançının yer aldığı 120 komanda iştirak edib.

Final oyununun əvvəlində tanınmış müğənnilər Çinarə Məlikzadə və İlhamə Qasımova idmançılar və tədbir iştirakçıları qarşısında çıxış edərək öz ifaları ilə gənc basketbolçuları qələbəyə səsləyiblər.

Respublika səviyyəli hakimlərin iştirakı ilə təşkil edilən turnirə mayın 5-də final oyunları ilə yekun vurulub. Final oyununda Nizami rayonunun basketbolçuları Binəqədi rayonunun komandası ilə görüşüblər. 16-13 hesabı ilə qalib gələn Nizami rayonunun komandası turnirin qalibi olub.

3-cü yeri Yasamal rayonunun komandası tutub.

Turnirin qalibləri kubok, diplom, medallar və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*











# Bakı-Brüssel xətti: strateji tərəfdaşlıq yeni mərhələdə

## Kaya Kallasın Azərbaycana səfəri ölkəmizin regional təhlükəsizlik və qlobal enerji arxitekturasında artan rolunun göstəricisidir

**Avropa İttifaqı ilə Azərbaycan arasında qurulan dialoq ən dinamik dövrünü yaşayır. Regional gərginliklərin və qlobal iqtisadi dalğalanmaların fonunda rəsmi Bakının nümayiş etdirdiyi praqmatik xarici siyasət kursu Brüsseli Azərbaycanla daha sıx və çoxşaxəli əməkdaşlığa sövq edir.**

Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfəri və 2026-cı ilin ilk aylarında müşahidə olunan diplomatik intensivlik bu tərəfdaşlığın yeni reallıqlar üzərində formalaşdığını bir daha təsdiqləyir. Bu səfər tərəflər arasında qarşılıqlı etimadın və ortaq maraqların yeni mərhələyə qədəm qoyduğunun bariz göstəricisidir.

Səfər çərçivəsində Kaya Kallas Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşüb. Görüşdə siyasi dialoqun intensivliyi, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Tərəfdaşlığın qarşılıqlı hörmət, bərabərlik və ortaq maraqlar əsasında inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Bununla yanaşı, Azərbaycanla Avropa arasında dialoq mexanizmlərinin, yeni ikitərəfli saziş üzrə danışıqların bərpasının və Tərəfdaşlıq Prioritetləri sənədi üzrə əməkdaşlığın önəmi vurğulanıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi və etibarlı tərəfdaş kimi rolu qeyd olunub.

Kallas Azərbaycanın Aİ üçün dəyərli və etibarlı enerji tərəfdaşı olduğunu deyib. Onun sözlərinə görə, xüsusilə ticarət, nəqliyyat və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığın dərinləşdirilməsi üçün mövcud potensial var. Eyni zamanda qonaq vurğulayıb ki, Aİ, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əlaqələrin gücləndirilməsi ortaq strateji maraqlara uyğundur: "Biz Azərbaycanla daha strukturlaşdırılmış tərəfdaşlığı müzakirə etməyə hazırıq".



Avropa İttifaqının ali rəsmisinin Bakıya səfəri "Cənub qaz dəhlizi" nin genişləndirilməsi və Avropanın enerji xəritəsində Azərbaycanın rolunun möhkəmləndirilməsi baxımından da mühümdür. Bu səfər regionda baş verən yeni reallıqların Qərb tərəfindən necə qəbul edildiyini göstərir. Onun Bakıdakı görüşləri Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması və kommunikasiyaların açılması prosesinə təkan verə bilər. Kallasın gəlişi Azərbaycanın, sadəcə, enerji tədarükçüsü deyil, həm də rəqəmsal transformasiya və mühüm logistik mərkəz kimi Avropa üçün əvəzolunmaz tərəfdaş olduğunu təsdiqləyir.

Avropa təsisatları arasında zaman-zaman Azərbaycana qarşı qərəzli mövqenin sərgilənməsinə rəğmən, mövcud geosiyasi və geoiqtisadi şərtlər Avropa İttifaqı üçün Bakı ilə əməkdaşlığın əhəmiyyətini ön plana çıxarır. Hazırda Aİ-nin 10 üzvü Azərbaycanın mavi yanacağını idxal edir, ümumilikdə isə tədarük coğrafiyamız artıq 16 ölkəni əhatələyir. Eyni zamanda birliyin 27 üzvündən 10-u ilə strateji tərəfdaşlıq sənədləri imzalanıb. Bu da o deməkdir ki, Avropanın təxminən üçdəbiri ölkəmizi mühüm perspektivli tərəfdaş kimi görür.

Bakının regiondakı çəkisi xüsusilə Orta dəhliz və Xəzər hövzəsinin artan nüfuzu fonunda daha da möhkəmlənir. Azərbaycan Aİ-nin Mərkəzi Asiya və Çinə çıxışını təmin edən əsas mərkəz rolunu oynayır. Şərqdən Qərbə doğru uzanan ən etibarlı və təhlükəsiz tranzit yolu məhz Cənubi Qafqazdan keçir. Digər regionlardakı münaqişələr və qeyri-sabitlik fonunda ölkəmizin təqdim etdiyi marşrut yeganə dayanıqlı və təhlükəsiz alternativə çevrilir. Orta dəhliz təkcə iqtisadi və logistika deyil, həm də enerji diversifikasiyası baxımından həlledicidir. Ənənəvi resurslarla yanaşı, gələcəkdə bərpaolunan və "yaşıl enerji"nin də məhz bu xətt vasitəsilə qitəyə nəqli prioritet məsələdir.

Xüsusən, Yaxın Şərqdəki gərginlik və Hörmüz boğazı ətrafındakı risklər qlobal enerji bazarlarını təhdid etdiyi bir vaxtda, Azərbaycan Avropanın enerji arxitekturasının sütununa çevrilir. Brüssel bu reallığı gördüyü üçün Bakının strateji çəkisini yüksək qiymətləndirir. Azərbaycanın logistik mərkəz kimi əhəmiyyəti qlobal səviyyədə təsdiqlənmiş faktdır. Bu gün aydın görünür ki, rəsmi Bakının iştirakı olmadan Avrasiyada əsas iqtisadi arteriyaların işləkliyini təmin etmək qeyri-mümkündür. Məhz buna görə də Aİ rəhbərliyi ölkəmizlə münasibətləri dərinləşdirməyə xüsusi maraq göstərir.

Vurğulamaq yerinə düşər ki, 2026-cı ilin ilk aylarında Avropa İttifaqı və onun üzv dövlətlərinin rəhbər şəxslərinin - Aİ Şurasının prezidenti Antonio Koştanın, Litva Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin, Çexiya Baş naziri Andrey Babişin və İtaliya Baş naziri Ciorcia Meloninin Azərbaycana ardıcıl səfərləri rəsmi Bakının beynəlxalq nüfuzunun və mövqeyinin miqyasını nümayiş etdirir. Görüşlərdə əsas diqqət enerji tərəfdaşlığı ilə yanaşı, regional təhlükəsizlik və sülh gündəliyinə yönəldilib, xüsusilə enerji idxalının şaxələndirilməsi və nəqliyyat dəhlizləri mövzusunda mühüm razılaşmalar əldə edilib. İtaliya Azərbaycanın Avropadakı birnömrəli ticarət tərəfdaşıdır. Latviya və Litva rəhbərliklərinin Bakıya gəlişi Baltikyanı ölkələrlə əlaqələrin dərinləşməsi və Avropa daxilində Azərbaycanın mövqeyini müdafiə edən tərəfdaşların sayının artması baxımından önəmlidir.

Avropa liderlərinin Bakıda verdikləri bəyanatlar da Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstəyin ən yüksək səviyyədə davam etdiyinin göstəricisidir. İntensiv səfərlərin mühüm praktiki nəticələrindən biri də İtaliya, Macarıstan və digər Aİ ölkələrinin şirkətlərinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesində fəal iştirakıdır. Xüsusilə İtaliya şirkətlərinin enerji infrastrukturu və mülki tikinti, Macarıstanın isə kənd təsərrüfatı və şəhərsalma layihələrindəki rolu əməkdaşlığın real iqtisadi müstəvidə də dərinləşdiyini təsdiqləyir. Avropa investisiyalarının bu bölgələrə cəlb olunması Azərbaycanın postmünaqişə dövründəki quruculuq modelinə beynəlxalq etimadın və dəstəyin bariz nümunəsidir. Bu məqam Azərbaycanın smart texnologiyalar və aqrar sahədə də Avropa üçün cəlbedici olduğunu sübut edir.

Bununla yanaşı, tərəflər rəqəmsal transformasiya, innovasiya və süni intellekt kimi yeni texnologiyalar sahəsində əməkdaşlığın genişləndirilməsinə də xüsusi diqqət yetirirlər. Xüsusilə Xəzər dənizindən Qara dənizin dibi ilə Avropaya çəkiləcək elektrik kabeli layihəsi (Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan) Bakını Avropanın elektrik enerjisi bazarına birbaşa bağlayacaq. Bakı Xəzər dənizinin dibi ilə çəkilən optik xətlər və elektrik kabelləri vasitəsilə Avropanın rəqəmsal və "yaşıl enerji" gələcəyinin əsas mərkəzlərindən birinə çevrilir.

Bütün bu proseslər göstərir ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq modelinə çevrilməkdədir. Mövcud dinamika onu deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı daha institusional və strateji xarakter alacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Azərbaycanda nəqliyyatın aktual problemləri" mövzusunda XXVII elmi-texniki tələbə konfransı işə başlayıb





**Mayın 5-də "Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasında (MAA) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Azərbaycanda nəqliyyatın aktual problemləri" mövzusunda XXVII elmi-texniki tələbə konfransı işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, konfrans Elm və Təhsil Nazirliyi və "Azərbaycan Hava Yolları" QSC-nin təşkilatçılığı ilə keçirilir. Tədbirdə MAA-nın tələbələri ilə yanaşı, ölkənin müxtəlif ali təhsil müəssisələrinin, eləcə də xarici ölkələrin ali məktəblərinin tələbələri iştirak edirlər.

Konfrans çərçivəsində iştirakçılar əvvəlcə akademiyanın tələbələri tərəfindən hazırlanmış innovativ layihələrin sərgisi ilə tanış olublar.

Tədbiri açan MAA-nın birinci prorektoru professor Ədalət Səmədov akademiyanın rektoru, akademik Arif Paşayevin konfrans iştirakçılarına ünvanlanmış təbrik məktubunu oxuyub.

Bildirilib ki, bu il konfransa 9 bölmə üzrə ümumilikdə 196 elmi məruzə təqdim olunub və bu da tələbələrin nəqliyyat, aerokosmik texnologiyalar, logistika, informasiya texnologiyaları və digər sahələr üzrə artan tədqiqat aktivliyini və innovativ yanaşmalarını əks etdirir.

Plenar iclas çərçivəsində Rusiya Elmlər Akademiyasının müxbir üzvləri, fizika-riyaziyyat elmləri doktorları Pavel Paxlov və Taqir Auşev müvafiq olaraq "Fizika: mikrodünyadan makrosistemlərə qədər" və "Fundamental elmin texnoloji tərəqqidə rolu" mövzularında məruzələrlə çıxış ediblər.

Plenar iclasda həmçinin MAA-nın gənc tədqiqatçıları tərəfindən aerokosmik texnologiyalar və süni intellekt istiqamətlərində aktual mövzular üzrə məruzələr təqdim olunub. Bu çərçivədə pilotsuz uçuş aparatları üçün dəqiq yükçatdırılma sistemləri, kosmik əməliyyatlarda süni intellektin tətbiqi, eləcə də mühərrik texnologiyaları və robototexnika sahəsində innovativ yanaşmalar müzakirə edilib.

Konfrans işini mayın 6-da bölmə iclasları ilə davam etdirəcək və tələbələrin elmi-tədqiqat nəticələrinin müzakirəsi, eləcə də yeni əməkdaşlıq imkanlarının formalaşdırılması üçün platforma rolunu oynayacaq.

# *Türk ekspert:* "Azərbaycan klassik təchizatçı-istehlakçı münasibətlərini aşan yeni model təqdim edir"




**"Azərbaycan qazına Avropada artan tələbat fonunda enerji əməkdaşlığının yeni mərhələyə keçməsi məsələsi daha da aktuallaşıb. Prezident İlham Əliyev tərəfindən səsləndirilən mövqe isə bu prosesə yeni reallıq gətirir. Prezident açıq şəkildə vurğulayır ki, Azərbaycan artıq TANAP və TAP kimi iri enerji infrastrukturuna milyardlarla dollar sərmayə qoyub və mövcud imkanlarını sübut edib. Lakin qaz nəqlinin artırılması üçün bu infrastrukturun genişləndirilməsi əlavə ciddi maliyyə və texniki resurslar tələb edir. Bu baxımdan, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, Avropa yalnız istehlakçı kimi deyil, həm də investor və tərəfdaş kimi bu prosesdə aktiv iştirak etməlidir. Eyni zamanda uzunmüddətli qaz alış zəmanətləri olmadan yeni investisiyaların riskli olması da diqqətə çatdırılır. Bu yanaşma enerji əməkdaşlığında məsuliyyətin bölüşdürülməsi və qarşılıqlı öhdəliklərin formalaşdırılması məsələsini ön plana çıxarır".**

Bu barədə AZƏRTAC-a açıqlamasında türk ekspert Mehmet Emir Aksoy bildirib ki, son dövrlərdə Avropada artan enerji tələbatı və təchizat təhlükəsizliyi ilə bağlı müzakirələr "Cənub qaz dəhlizi"nin strateji əhəmiyyətini yenidən gündəmə gətirib.

Onun sözlərinə görə, bu kontekstdə Azərbaycanın ortaya qoyduğu yanaşma yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi baxımdan da mühüm məna daşıyır: "Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən səsləndirilən "ortaq investisiya və uzunmüddətli zəmanət" vurğusu enerji əməkdaşlığının mahiyyətini dəyişməyə qadirdir. Azərbaycanın yanaşması klassik təchizatçı-istehlakçı münasibətlərini aşan yeni model təqdim edir. Bu günə qədər Avropa enerji siyasətini əsasən bazar şərtləri və qısamüddətli razılaşmalar üzərində qurub. Lakin qlobal proseslər göstərir ki, enerji təhlükəsizliyi yalnız kommersiya məsələsi deyil. Rəsmi Bakı tərəfindən irəli sürülən strateji çərçivə risklərin bölüşdürülməsi və qarşılıqlı məsuliyyətlərin dəqiqləşdirilməsini nəzərdə tutur".

M.Aksoy vurğulayıb ki, xüsusilə qaz nəqlində həcmin artırılması böyük infrastruktur yatırımları tələb edir. Trans-Anadolu Qaz Boru Kəməri və Trans-Adriatik Boru Kəməri kimi layihələr milyardlarla dollar sərmayə hesabına həyata keçirilib. Bu infrastrukturun genişləndirilməsi isə yalnız istehsalçı ölkənin üzərinə düşə bilməz. Azərbaycanın bu məsələdə çağırışı aydındır: Avropa enerji təhlükəsizliyi istəyirsə, bu prosesin həm maliyyə, həm də strateji məsuliyyətini paylaşmalıdır. Bu yanaşmanın qəbul edilməsi Azərbaycan ilə Avropa arasında münasibətlərin daha balanslı modelə keçməsinə şərait yarada bilər. Uzunmüddətli alış zəmanətləri yeni investisiyaları stimullaşdıracaq və tərəflər arasında etibarlılığı artıracaq. Bu isə enerji layihələrini təkcə iqtisadi alət deyil, həm də siyasi sabitlik və strateji əməkdaşlıq platformasına çevirəcək.

Ekspert əlavə edib ki, TAP layihəsinin genişləndirilməsi və Azərbaycan qazının Avropa bazarına daha böyük həcmdə çatdırılması Türkiyənin rolunu daha da artırır: "Türkiyə bu prosesdə yalnız tranzit ölkə deyil, enerji axınlarını yönləndirən və regional səviyyədə tarazlıq yaradan əsas aktorlardan biridir. Enerji xətlərinin Anadolu üzərindən keçməsi Ankaraya həm iqtisadi, həm də geosiyasi üstünlüklər qazandırır. Türkiyənin enerji mərkəzinə çevrilmək məqsədi bu proseslərlə daha real məzmun qazanır. Artan ötürmə qabiliyyəti, mənbələrin şaxələndirilməsi və genişlənən infrastruktur Türkiyəni regionun enerji xəritəsində əvəzolunmaz mövqeyə çıxarır. Bu, həm Türkiyə, həm də Avropa üçün enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir".

Ekspert sonda vurğulayıb ki, Azərbaycanın irəli sürdüyü "ortaq investisiya və uzunmüddətli zəmanət" modeli enerji diplomatiyasında yeni mərhələnin başlanğıcını qoyur. Bu model daha ədalətli, balanslı və davamlı əməkdaşlıq üçün zəmin yaradır. Bu yeni reallıqda Azərbaycan strateji vizyonu ilə önə çıxır, Türkiyə isə bu vizyonun praktik həyata keçirilməsində əsas tərəfdaş kimi çıxış edir.

# Avropa İttifaqı nə qədər yanacaq ehtiyatına malikdir?

**Avropa İttifaqı (Aİ) enerji böhranı ilə üz-üzə qaldığı bir vaxtda ciddi problemlə qarşılaşıb. Belə ki, qitədə mövcud olan yanacaq ehtiyatlarının dəqiq həcmi məlum deyil. Cari ilin əvvəlində Yaxın Şərqdə, xüsusilə İran ətrafında gərginliyin hərbi müstəviyə keçməsi bu problemin yaranmasına səbəb oldu. Dünya neft və qaz axınının 20 faizinin keçdiyi strateji Hörmüz boğazının blokadaya alınması Avropa üçün həyəcan təbilini çaldı. Lakin budəfəki böhran, sadəcə, qiymətlərin bahalaşması ilə bitmir, əsas qorxu yanacağın fiziki olaraq tapılmaması, yəni "qıtlıq" riskidir.**

Avropada dövlətlərin rəsmi strateji ehtiyatları bəllidir və şəffafdır. Lakin gündəlik həyatımızı hərəkətə gətirən benzinin, dizelin və xüsusilə reaktiv yanacağın böyük hissəsi özəl şirkətlərin anbarlarındadır. Bu şirkətlər isə "kommersiya sirri" və rəqabət qaydalarını bəhanə edərək, əllərindəki real ehtiyatı gizli saxlayırlar. Bu "məlumat korluğu" siyasətçilərin işini iflic edir, nə qədər ehtiyatın qaldığını bilmədən verilən hər bir qərar qaranlıqda hədəfə atəş açmağa bənzəyir.

Vəziyyətin ciddiliyi müxtəlif enerji növlərində fərqli şəkildə özünü büruzə verir. Hazırda tədarük zəncirinin ən zəif bəndi reaktiv yanacaq hesab olunur. Aprel ayının sonuna olan rəsmi məlumatlara görə, Avropanın cəmi 6 həftəlik uçuş ehtiyatı qalıb. Beynəlxalq Enerji Agentliyi xəbərdarlıq edir ki, əgər tədarük yaxın vaxtlarda bərpa olunmasa, iyunun ortalarında Avropa səmalarına sükut çökə bilər. Artıq bir çox aviaşirkət uçuşları kütləvi şəkildə azaldır, bilet qiymətləri isə rekord həddə çataraq əlçatmaz olur.

Təbii qaz sektorunda müşahidə olunan mövcud mənzərə də ürəkaçan deyil. 2022-ci ildə xarici tədarükçülərdən birtərəfli asılılığın yaratdığı kəskin enerji böhranı və qlobal bazarlardakı qeyri-sabitlik Avropa üçün ciddi bir xəbərdarlıq rolunu oynadı. Həmin dövrdə yaşanan çətinliklər qitəni enerji təhlükəsizliyini qorumaq üçün anbarları maksimum dərəcədə doldurmağa sövq etdi. Lakin builki uzun sürən sərt qış şəraiti və eyni zamanda Yaxın Şərqdəki gərginliyin qlobal təchizat zəncirini qırması ehtiyatların sürətlə tükənməsinə səbəb olub. Hazırda qaz anbarlarının doluluq səviyyəsi 32 faizə düşüb ki, bu da son 5 ilin ən aşağı göstəricisidir. Normalda bu fəsildə qitə ölkələri növbəti mövsüm üçün ehtiyat toplamağa başlamalı olduğu halda, hələ də "xərcləmə" rejimində qalması qarşıdakı aylarda böyük bir hazırlıqsızlıq və enerji qıtlığı riski yaradır.

Qitənin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan etibarlı tərəfdaş kimi xüsusi rol oynayır. Hazırda ölkəmiz Avropa İttifaqının 10 dövlətinə təbii qaz ixrac edir ki, bu coğrafiyanın gələcəkdə daha da genişlənməsi, o cümlədən Çexiyanın da bu siyahıya daxil edilməsi planlaşdırılır. Avropada yaranmış mövcud vəziyyət Azərbaycanın beynəlxalq enerji bazarındakı strateji əhəmiyyətini bir daha sübut edir. 2020-ci ilin sonundan etibarən istifadəyə verilən "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan qazı qitənin enerji balansında sabitləşdirici amilə çevrilərək bir çox ölkənin enerji təhlükəsizliyinə töhfə verir.

Eyni zamanda, Avropada yükdaşımaları üçün mühüm əhəmiyyət kəsb edən dizel və benzin ehtiyatları ilə bağlı qeyri-müəyyənlik hökm sürür. Bu məhsulların əhəmiyyətli hissəsi özəl anbarlarda saxlanılır. Şirkətlər gələcəkdə qiymətlərin daha da qalxacağını ehtimal edərək yanacağı bazara çıxarmağa tələsmirlər. Bu vəziyyət bazarda süni qıtlığın yaranmasına və qiymət fırıldaqçılığına münbit şərait yaradır.

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen etiraf edir ki, Yaxın Şərqdəki gərginlik Aİ-yə hər gün təxminən 500 milyon avro əlavə xərc yükləyir. Bu məbləğ Avropa sənayesinin rəqabət qabiliyyətinin itirilməsi deməkdir.

Bəs Avropa bu quyudan necə çıxacaq? Hazırda Brüsseldə iki əsas istiqamət müzakirə olunur. Birincisi, ABŞ-nin Enerji İnformasiya Administrasiyası modelinə bənzər bir "Yanacaq Rəsədxanası" yaratmaqdır. Bu qurum özəl şirkətləri ehtiyatları açıqlamağa məcbur edəcək. İkincisi isə məcburi qənaət rejimidir. Bəzi ölkələrdə artıq həftəsonları avtomobil qadağaları və iş yerlərində istilik limitləri müzakirə olunur. Eyni zamanda Avropanın daxilində hələ də istifadə olunmamış təxminən 4 milyard barellik neft ehtiyatı var. Avropada indi "yaşıl enerji" prioritetlərini müvəqqəti kənara qoyub, milli təhlükəsizlik naminə bu quyuları qazmağın vaxtının çatdığı barədə çağırışlar artır.

Avropa hazırda həm enerji, həm də etimad böhranı yaşayır. Yanacaq çənlərinin dibi görünməyə başlayıb, amma o dibin nə qədər dərində olduğunu heç kim dəqiq bilmir. 2026-cı ilin yay ayları qitə üçün həlledici sınaq olacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# İQTİSADİYYAT

● Ötən həftənin iqtisadi icmalı

## Böyük qayıdışdan iqtisadi zirvələrə, sosial ənənələrdən sahibkarlığa

**Ötən həftə qlobal və yerli iqtisadi mühit bir sıra mühüm dəyişikliklər və siqnallarla yadda qaldı. Maliyyə bazarlarında müşahidə olunan dalğalanmalar, inflyasiya gözləntiləri və mərkəzi bankın pul-kredit siyasəti iqtisadi gündəmin əsas mövzularını təşkil etdi.**

Bu ümumi mənzərədən çıxış edərək, regional əməkdaşlıq və investisiya imkanlarının genişləndirilməsi istiqamətində atılan addımları qeyd etsək, görərik ki, bir çox hadisələr diqqət mərkəzində olub. Özəlliklə də Çexiyanın Baş naziri Andrey Babişin Qəbələyə səfəri çərçivəsində keçirilən biznes - forum iqtisadi əlaqələrin dərinləşdirilməsi və yeni tərəfdaşlıqların qurulması baxımından önəmli platforma kimi çıxış edib. Tədbirdə, əsasən, iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi və sənaye, kənd təsərrüfatı, turizm kimi prioritet sahələrdə əməkdaşlığın dərinləşdirilməsi məsələləri müzakirə edilib.

❖ ❖ ❖

Ötən həftənin yadda qalan əsas sosial-iqtisadi hadisələrindən biri də Xocavənd şəhərinə 39 (176 nəfər), Qırmızı Bazar qəsəbəsinə 16 (63 nəfər) və Xanoba kəndinə 13 ailənin (60 nəfər) növbəti köç karvanının yola salınması idi. 30 illik həsrətdən sonra doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Böyük qayıdış çərçivəsində həyata keçirilən bu proses regionların sosial-iqtisadi inkişafına mühüm töhfə verir, həmçinin yerli infrastrukturun bərpası və genişləndirilməsi, təhsil, səhiyyə və digər sosial xidmətlərin daha əlçatan olması üçün zəmin yaradır.

❖ ❖ ❖

Sahibkarlığın dəstəklənməsi və qadınların iqtisadi fəallığının artırılması sahəsində həyata keçirilən daha bir tədbir həftənin sosial-iqtisadi gündəmində diqqət çəkən mühüm hadisələrdən idi. Aprelin 28-də Gəncə şəhərində "Credence Group" və Azərbaycan Sahibkar Qadınlar İctimai Birliyinin (ASQİB) təşkilatçılığı ilə baş tutan Qadın Sahibkarların I Qurultayında ölkənin müxtəlif regionlarından yüzlərlə qadın sahibkar iştirak edib. "Güclü qadınlar, sonsuz imkanlar" şüarı altında keçirilən tədbir qadın sahibkarlığının inkişafına dəstək vermək, biznes mühitində qadınların rolunu gücləndirmək, eləcə də regionlarda yeni əməkdaşlıq platformalarının formalaşdırılmasına şərait yaratmaq məqsədilə təşkil olunmuşdu.

❖ ❖ ❖

Bəhs etdiyimiz o gün paralel olaraq başqa bir regionda qadın sahibkarlığının təşviqi və regionlarda iqtisadi fəallığın artırılması ilə bağlı turizm sektorunun inkişafına yönəlmiş mühüm təşəbbüs reallaşdırılıb. İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) təşkilatçılığı ilə Dövlət Turizm Agentliyi tərəfindən Şuşa şəhərində "Şuşa - İƏT-in turizm paytaxtı 2026" tədbiri çərçivəsində Qastronomiya günü təşkil olunub.

Tədbir çərçivəsində Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Pakistan, İran və Əfqanıstanın açıq hava şəraitində qurulmuş stendlərində bu ölkələrin qastronomiya mütəxəssisləri tərəfindən hazırlanmış, destinasiyaların qastroturizm potensialını əks etdirən əsas kulinariya nümunələri nümayiş etdirilib.

❖ ❖ ❖

Dünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş konfrans da arxada qoyduğumuz həftənin sosial-iqtisadi gündəmində diqqət çəkən hadisələrdən biridir. Konfrans çərçivəsində son illər Azərbaycanda əmək münasibətləri və əməyin mühafizəsi sahəsində həyata keçirilən ardıcıl islahatlar, əmək müqavilələrinin rəqəmsallaşdırılması və iş yerlərində təhlükəsizliyin təmin olunması məsələləri gündəmə gətirilib. Tədbirdə dövlət qurumlarının, eləcə də işəgötürənlərin əmək münasibətlərinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunluğun təmin olunması istiqamətində gördükləri işlər vurğulanıb. Həmçinin əməyin mühafizəsi sahəsində aparılan təcrübələr, ESG (ətraf mühit, sosial və korporativ idarəetmə) prinsiplərinin tətbiqi və sosial tərəfdaşlığın gücləndirilməsi ilə bağlı müzakirələr aparılıb, nümunəvi iş yerləri və təşəbbüslər isə mükafatlandırılaraq digər müəssisələr üçün ilhamverici nümunə kimi təqdim olunub.

❖ ❖ ❖

İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Sahibkarlar günü"nə həsr olunmuş "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda keçirilən tədbir həftənin iqtisadi gündəmində yeni iş yerlərinin yaradılması istiqamətində fikir mübadiləsinə şərait yaradıb. Tədbirdə ölkə iqtisadiyyatının davamlı inkişafında və məşğulluğun təmin edilməsində özəl sektorun aparıcı rolu vurğulanıb. Qeyd edilib ki, sahibkarlığın inkişafı üçün qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, biznes mühiti bir qədər də yaxşılaşdırılır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## Azərbaycanda ən müxtəlif təyinatlı gəmilər inşa olunur

### Bu günlər Qazaxıstandan yeni sifariş alınıb

**Bakı Gəmiqayırma Zavodu dost və qardaş Qazaxıstandan iki gəminin tikintisi üçün sifariş alıb. Sifariş Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı məqsədilə "Qazaxıstan Dəmir Yolları" şirkətinin törəmə müəssisəsi tərəfindən verilib.**




"Qazaxıstan Dəmir Yolları"nın məlumatına görə, "QDY Express Shipping" şirkəti altı universal quru yükdaşıyan konteyner gəmisinin tikintisinə dair müqavilələr bağlayıb. Dörd gəminin tikintisi üçün "Jiangsu Haizhongzhou Shipping Industry Co., Ltd." şirkəti ilə, daha iki gəminin tikintisi üçün isə Bakı Gəmiqayırma Zavodu ilə müqavilələr imzalanıb.

Bu, hazırda Azərbaycanın ən müasir texnoloji standartlara cavab verən gəmilər inşa etməyə də geniş imkanları olduğunu göstərir. Bu imkanlar 2013-cü ildə Bakı Gəmiqayırma Zavodunun istifadəyə verilməsi ilə yaranıb. Müəssisədə bütün növ gəmilər, o cümlədən yük gəmiləri, tankerlər, hərbi gəmilər, neft-qaz əməliyyatlarında istifadə edilən gəmilər istehsal oluna bilər.

Bakı Gəmiqayırma Zavodu ölkənin sənaye infrastrukturunda xüsusi yer tutur. Bu, istehsal gücünə görə nəhəng, təyinatına görə olduqca əhəmiyyətli müəssisədir. Zavodun təməli 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən qoyulmuşdur, bir neçə il davam edən tikinti işlərindən sonra dövlət başçısının iştirakı ilə müəssisənin açılış mərasimi keçirilmişdir.

Zavodun istifadəyə verildiyi ilk illərə qayıdaraq qeyd edək ki, burada hələ o vaxt Qazaxıstanın bir sıra sifarişləri yerinə yetirilmişdir. Məsələn, 2019-cu ildə zavodda Qazaxıstandan gətirilmiş üç yarımçıq gəminin müəyyən hissələrinin tamamlanma işləri aparılmışdır. Qeyd edildiyi kimi, bu müəssisənin istehsal gücü böyük olduğu üçün burada uzunluğu 250 metr, yükgötürmə qabiliyyəti 70 min tona qədər olan tankerlər belə inşa etmək mümkündür. Bu, Xəzər regionunda yeganə zavoddur ki, müxtəlif təyinatlı gəmilər inşa edir. Odur ki, xarici ölkələrdən də sifariş qəbul etməyə hazır olduğunu dəfələrlə bildirib.

2023-cü ildə isə "Bakı Gəmiqayırma Zavodu" MMC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Niderlandın "Damen Shipyards Gorinchem B.V." şirkəti arasında üçtərəfli əməkdaşlığa dair saziş imzalanıb. Bu sənədin icrası ilə Bakı Gəmiqayırma Zavodunda "Damen Shipyards Gorinchem" şirkəti ilə birgə dibdərinləşdirən gəmi istehsal olunacaq və bu qurğu Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi nəticəsində limanlarda yaranan maneələrin aradan qalxması üçün əhəmiyyətli olacaq.

Yeri gəlmişkən qeyd edək ki, artıq doqquz ildir Xəzərdə işləyən "Xankəndi" sualtı tikinti gəmisi də bu zavodda inşa edilib. Dünyada bu tipdə cəmi 10 gəmi var. Onlardan biri məhz Azərbaycandadır. Bütün bunlara görə də "Xankəndi"nin istifadəyə verilməsi haqlı olaraq tarixi hadisə sayılır.

Gəmi "Şahdəniz-2" layihəsinin yerinə yetirilməsinə səfərbər olunaraq sualtı quraşdırma işlərində istifadə olunur. Bu da öz növbəsində Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsinə mühüm töhfə olmuşdur. Çünki bu dəhlizlə ixracın əsas ehtiyat mənbəyi məhz "Şahdəniz" yatağıdır.

Bu faktın özü də zavodda ən nadir gəmilərin tikilməsinin mümkün olduğunu bir daha təsdiqləyir.

Təsadüfi deyil ki, 2018-ci ilin avqustunda Qazaxıstanın Aktau şəhərində keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında Prezident İlham Əliyev demişdir: "2013-cü ildə Azərbaycanda ən müasir texnoloji standartlara cavab verən gəmiqayırma zavodu istifadəyə verilmişdir. Bu zavodda bütün növ gəmilər, o cümlədən yük gəmiləri, tankerlər, hərbi gəmilər, neft-qaz əməliyyatlarında istifadə edilən gəmilər istehsal oluna bilər. İndiyədək onlarca gəmi tikilərək istifadəyə verilib, 100-ə yaxın gəmi isə təmir edilib. 2017-ci ildə istifadəyə verilən, 400 milyon ABŞ dollarına yaxın dəyərində "Xankəndi" gəmisi dünyada ən yüksək beynəlxalq standartlara uyğun şəkildə inşa edilmiş bu cür mövcud 10 gəmidən biridir. Hesab edirəm ki, Xəzəryanı ölkələr bu zavodun imkanlarından istifadə edə bilərlər".

Qaldı ki, zavodun indi Qazaxıstandan aldığı sifarişə, bu, həmin ölkənin Trans-Xəzər marşrutu üzrə mövqelərinin möhkəmləndirilməsinə və marşrutun dayanıqlı dəniz komponentinin formalaşdırılmasına yönəldilən layihəsinin bir hissəsidir. Belə ki, layihə çərçivəsində "Çay-dəniz" sinfinə aid olacaq gəmilərin dedveyti (gəminin tam yükqaldırma qabiliyyəti) 9900 tona qədər, tutumu isə 537 iyirmi fut ekvivalentinə çatacaq. Bu gəmilərin ikisi Bakı Gəmiqayırma Zavodunda inşa ediləcək.

***Flora SADIQLI, "Azərbaycan"***

## AÇG Azərbaycanın neft sənayesindəki mövqeyini itirmir

### İlin sonunadək bu yataqlar blokundan sərbəst qaz alınacaq

**BP şirkəti Azərbaycanda bir sıra neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olaraq cari ilin birinci rübündə görülmüş işlərin hesabatını yayıb. Həmişə olduğu kimi, öncə "Azəri-Çıraq Günəşli"dəki (AÇG) vəziyyət haqqında məlumat verilib. Bu dəfə hasilat və qazmadan əvvəl yataqlar blokundakı digər yeniliklərdən bəhs olunub.**



Belə ki, sözügedən dövrdə AÇG-də aparılan dördölçülü (4D) yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində 2025-ci ildə əldə olunmuş məlumatların emalı davam edib. Həmçinin "Dərinsulu Günəşli" ərazisində bir çox quyularda sualtı müdaxilə proqramı çərçivəsində dəniz əməliyyatları aparılıb. Bu əməliyyatların bir hissəsi olaraq ilk quyuda sualtı müdaxilə işi uğurla tamamlanıb və quyu lazımi məlumatlar toplandıqdan sonra yenidən suvurma fəaliyyətinə qayıdıb.

Qaldı ki hasilata, bu yataqlar blokundan ümumi gündəlik orta hasilat - "Çıraq" (19min 500), "Mərkəzi Azəri" (89min 800), "Qərbi Azəri" (74min 800), "Şərqi Azəri" (43min 900), "Dərinsulu Günəşli" (47min 700), "Qərbi Çıraq" (22 600) və ACE (26 min 700) platformalarından 325 min barel, üç ayda isə təxminən 29 milyon barel, yəni 4 milyon ton olub. AÇG-də ümumilikdə 149 neft hasilat quyusu istismardadır.

İlin birinci rübü ərzində AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 12 milyon kubmetr, ümumilikdə isə 1 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulub.

Məlum olduğu kimi, AÇG üzrə mövcud Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) sərbəst təbii qazla (STQ) bağlı yeni əlavənin imzalanmasından sonra ilkin hasilat quyusu planlaşdırılmış və mövcud "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılmışdır. Keçən il ərzində quyuda qazma işləri uğurla bitmiş və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layına - daha dayaz Qırmakıüstü Qumlu (QÜQ) və daha dərin Qırmakıaltı (QA) lay dəstlərinə çıxış təmin edilmişdir.

İxrac da ahəngdar gedir. AÇG və "Şahdəniz" yataqlarından neftin və qazın sualtı boru kəmərləri ilə Səngəçal terminalına göndərilməsi davam edir.

Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir. Rüb ərzində terminal təxminən 47 milyon barel neft və kondensat ixrac edib ki, bu həcmlərin hamısı Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə nəql olunub. Qaz terminaldan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) sistemi də daxil olmaqla, əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın emal obyektlərini "Azəriqaz" sistemi ilə birləşdirən Azərbaycana məxsus kəmərlə ixrac edilir. Rüb ərzində terminaldan həmçinin gündəlik orta hesabla təxminən 74,4 milyon standart kubmetr (təxminən 2 milyard 628 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Səngəçal Terminalının Elektrikləşdirilməsi (STEL) layihəsi çərçivəsində terminal ərazisinin həm daxilində, həm də ondan kənarda aparılan tikinti işləri əhəmiyyətli dərəcədə irəliləyir. Hazırda layihə əsas tikinti və quraşdırma mərhələsindədir. Layihə üzrə tikinti işlərinin iki mərhələdə - birinci mərhələdə 2027-ci ilin ortalarında, ikinci mərhələdə isə 2028-ci ilin sonunadək başa çatacağı nəzərdə tutulur.

230 milyon dollar dəyərində olan bu layihə ilə terminal "AzərEnerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa olunacaq.

STEL Cəbrayıl rayonunda 240 MVt AC gücündə günəş-elektrik stansiyasının tikintisini nəzərdə tutan "Şəfəq" layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. "Şəfəq" layihəsi üzrə tikinti işləri də plana uyğun irəliləyir. Aprel ayının əvvəlində ilk günəş panelinin quraşdırılması ilə layihə növbəti mərhələyə, yəni günəş panellərinin quraşdırılması mərhələsinə başlayıb.

Hazırda layihəyə təxminən 350 nəfər yerli işçi cəlb olunub və bunlardan 123-ü işğaldan azad olunmuş ərazilərdə məskunlaşan sakinlərdir. Tikintinin pik dövründə layihədə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

"Şahdəniz" barədə isə onu demək olar ki, yataqdan Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-ə), Türkiyə (BOTAŞ-ə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılması davam edir.

İlin ilk üç ayında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 7 milyard standart kubmetr qaz və təxminən 1 milyon ton (təqribən 7 milyon barel) kondensat hasil olunub. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 74,2 milyon (ildə təqribən 27,1 milyard) standart kubmetrdir.

Bəs "Şahdəniz kompressiya layihəsi" (ŞDK) necə irəliləyir? ŞDK platformasının üst modullarının və dayaq blokunun tikintisi işləri müvafiq olaraq Bayıl istehsalat-quraşdırma sahəsində və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda plana uyğun davam edir. Məlum olduğu kimi, 2,9 milyard dollar dəyərində ŞDK layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Tikintinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə "Şahdəniz Alfa", 2030-cu ildə isə "Şahdəniz Bravo" platformasından hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

BP-nin hesabatında "Şəfəq-Asiman","Qarabağ" və ADUA layihələri çərçivəsində axtarış, kəşfiyyat və tədqiqat işlərinin davam etdiyi də bildirilir. Sənəddə həmçinin BP-nin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı, şirkətin sosial sərmayələri haqqında məlumat var.

***F.YUSİFQIZI, "Azərbaycan"***

● Dövlət mükafatına təqdim olunmuş əsərlərin müzakirəsi

# Tarixi təməl üzərində qardaşlığın söz qalası

## Professor Qəzənfər Paşayev və filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevin "İraq-türkman ədəbiyyatı tarixi" adlı monoqrafiyası barədə bəzi qeydlər

**"Tarixi araşdıranda gördüm ki, Quzey Azərbaycan, Güney Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır".**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının Ümummilli Lideri**

Ürəyin hökmü ilə üz tutub getdiyi doğru yola insanın etibarı və sadiqliyi ən yüksək mənəvi-əxlaqi dəyərlərdən biridir. Məncə, doğru yola etibar və sədaqət yekun olaraq məsləkə həsr edilmiş ömür sayılmalıdır. Uğurlara zəmin yaradan belə davamli qətiyyət demək olar ki, hüdudsuzdur və elə bu səbəbdən lap sadə həyat yaşayan adamlardan tutmuş yüksək intellektual, yaradıcı fəaliyyət mənsublarına qədər fərqli subyektlər bu çevrənin əhatə dairəsinə düşə bilir. Bu giriş cümlələrin yazılmağı səbəbsiz deyil, daha dəqiq desəm, sübut üçün nəzərdə tutulan bəlli ünvan və ad var.

Söhbət Yaxın Şərq ölkələrində, ərəb dünyasında, ələlxüsus İraqda, Kərkük dolaylarında, Türkiyədə, Orta Asiyada, İranda və sair elmi-ədəbi ictimaiyyətin yaxşı tanıdığı, o taylı-bu taylı vətənimiz Azərbaycanda isə nəinki hamının tanıdığı, üstəlik, hamının ehtiram bəslədiyi Qəzənfər Paşayevdən gedir. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, ədəbiyyatşünas, folklorşünas, publisist, dilçi, yazıçı, tərcüməçi, nəhayət, ömrün 88-ci pilləsində də elmi axtarışlardan yorulmayan bu müdrik insan gənc həmkarı, filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevlə birlikdə "İraq-türkman ədəbiyyatı tarixi" adlı fundamental monoqrafiyanı ərsəyə gətirməklə bir daha bizləri əmin elədi ki, hər zaman olduğu kimi, o, indi də ürəyin hökmü ilə tutduğu doğru, dəyərli yola sadiqdir və onun bu məsləkə, belə tale təyinatına inamı tükənməzdir.

*Bağdad yolu Gəncədi,*
*Gülü pəncə-pəncədi.*
*Demə sizdən irağam,*
*Bu sevda ölüncədi.*

Həm məzmun, həm estetik zəriflik, həm obrazlı düşüncə, həm də "poetik coğrafiya" baxımından bütün türk dünyasına aid oluna bilən İraq-türkman nişanəli bu bayatı sanki bir başqası barədə deyil, Qəzənfər müəllimin özü haqqında söylənib. Dəyərli bir bayatının qəhrəmanı olmaq cəfakeş, doğru yol adamının halal haqqıdır və niyə məhz onun, Qəzənfər müəllimin?..

Təsəvvür edin, ötən əsrin uzaq 60-cı illərində dördillik uzunmüddətli ezamiyyətdən sonra vətənə döndüyü (1966-cı il), İraq-türkman, Kərkük mövzusunu sonsuz bir həvəs və ehtiramla araşdırmağa başladığı, Azərbaycana qayıdandan az sonra Xalq şairi Rəsul Rza ilə birlikdə "Kərkük bayatıları" kitabını çap etdirdiyi vaxtdan nə az, nə çox, sərasər 60 il keçir. O, sonralar heç zaman ayrılıb iraq düşməyəcəyi, əslində, çoxlarının nabələd olduqları bu dəryaya baş vuranda 25 yaşındaydı. İndi budur, 90-ın dizini qatlamağa iki il qalmış professor Qəzənfər Paşayev bu dəfə gənc, istedadlı alim həmkarı Orxan İsayevlə birlikdə "İraq-türkman ədəbiyyatı tarixi"ni gün işığına çıxardır. Etiraf edək ki, zorən yox, əksinə, görkəmli alimin misilsiz və inadkar əməyi sayəsində, yəni qanunauyğun olaraq Azərbaycan ədəbiyyatşünaslığında halal sahibi Qəzənfər Paşayev olan İraq-türkman ədəbi-bədii irsi üzərində şərti bir elmi "monopoliya" mövcuddur. Bu, deyildiyi kimi, sövq-təbii bir yekundur. Məsələ belədir ki, həmin "monopoliya"nı "aradan qaldırmaq", ümumən müsəlman-türk dünyasına məxsus bu söz sarayının qapılarını hamıya açmaq, bu mülkə yiyələnmək üçün intellektual gəncliyə çağırış etmək səlahiyyəti də professor Qəzənfər Paşayevə məxsusdur. O isə belə davranışı məmnunluq hissi ilə sərgiləyir! Alim yazılarının birində az qala fərəhlə qeyd edir ki, Azərbaycanda İraq-türkman folkloruna, ədəbiyyatına və ləhcəsinə necə-necə dissertasiya, monoqrafiya, publisitik və elmi məqalə həsr olunmuşdur. Hazırda iki nəfər dissertant - AMEA-nın Ədəbiyyat İnstitutunda və Azərbaycan Dövlət Pedaqoji Universitetində İraq-türkman ədəbiyyatından, bir nəfər isə Folklor İnstitutunda sözügedən coğrafiyanın mərasim folklorundan dissertasiya yazır.

"İraq-türkman ədəbiyyatı tarixi" (Q.Paşayev, O.İsayev. "Elm və təhsil" nəşriyyatı, 2025, Bakı) monoqrafiyası İraq-türkman, Azərbaycan, ümumilikdə isə türk ədəbiyyatşünaslığına sanballı töhfədir. Fikrimcə, bu monoqrafiyanın yüksək təhsilli ədəbiyyatşünas, şərqşünas, eləcə də folklorşünas hazırlığında bir dərs vəsaiti statusu qazanacağı vaxt elə də uzaqda deyil.




Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin "İraq-türkman ədəbiyyatının ilk elmi salnaməsi" başlıqlı yığcam, bununla yanaşı, fundamental tədqiqatın məramını, başlıca məziyyətlərini dolğun şəkildə əks etdirən məqaləsi ilə - ön sözlə açılır. Ön söz müəllifi Azərbaycanın "dünya kərkükşünaslığının əsas mərkəzi" olduğunu birmənalı şəkildə bildirir, bu istiqamətdə xidmətləri olan ədib və araşdırmaçıları - Rəsul Rza, Həmid Araslı, Abbas Zamanov, Əta Tərzibaşı və Əbdüllətif Bəndəroğlunun adlarını, başqa sözlə, təməl səciyyəli təşəbbüsləri xatırladır və davam edib yazır: "Azərbaycan-İraq-türkman əlaqələrində Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin müstəsna yeri, xüsusi rolu və mühüm xidmətləri vardır".

Qəzənfər müəllimin bütün külliyatına yaxından bələd olan qələm adamı kimi "Ön söz"də yer alan mülahizələrlə dərhal razılaşıram. Ən azı ona görə ki, "İraq-türkman ədəbiyyatı tarixi" meydana gələnə qədər bu mövzunun demək olar ki, bütün parametrləri ayrı-ayrı kitablar şəklində yazılmış, işıq üzü görmüşdür. Onların əksər qisminin müəllifliyi Qəzənfər müəllimə aiddir. Bu göstəriciyə ani bir nəzər salıb sıralayaq: "Kərkük bayatları" (1968, 1984), "Arzu-Qənbər" dastanı (1971), "Kərkük mahnıları" (1973), "İraq-Kərkük atalar sözləri" (1978), "Kərkük tapmacaları" (1984), "Altı il Dəclə-Fərat sahillərində" (1985, 2015, 1996 - Bağdad, ərəbcə), "Nəsiminin İraq divanı" (1987, 2018), "Kərkük folkloru antologiyası" (1987, 1990), "İraq-türkman folkloru" (1992, 1995 - Bağdad, 1998 - İstanbul), "Kərkük dialektinin fonetikası" (2003), "İraq-türkman folklorunun janrları" (2003, rus dilində), "Kərkük folklorunun janrları" (2003), "İraq-türkman ləhcəsi" (ortaq 2004), "Nəsimi haqqında araşdırmalar" (2010), "Əta Tərzibaşının folklorşünaslıq fəaliyyəti" (2016), "Azərbaycan - İraq-türkman ədəbi əlaqələri: ayrılığın sonu" və sair.

Bu da məlumdur ki, Qəzənfər Paşayev "Azərbaycan dilinin Kərkük dialekti" mövzusunda namizədlik (1969), "İraq-türkman folkloru" mövzusunda doktorluq (1993) dissertasiyalarını müdafiə edib.

Bu arada sanballı və ən yeni elmi çalışma olan "İraq-türkman ədəbiyyatı tarixi" tədqiqatının meydana çıxması isə məxsusi bir dəyər, ciddi elmi uğurdir. İsa Həbibbəyli doğru qeyd edir ki, professor Qəzənfər Paşayevin filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevlə birlikdə yazdıqları "İraq-türkman ədəbiyyatı tarixi" Orta əsrlərdən başlayaraq Kərkük Türkmanelidə yaranmış ədəbiyyatın ilk sistemli elmi tarixindən ibarətdir... Bu, Türkman ədəbiyyatının mənşəyi, tarixi təkamül prosesləri, əsas janrları və görkəmli yazarları haqqında tam, bütöv və elmi cəhətdən ümumiləşdirilmiş tədqiqat əsəri kimi mühüm addımdır.

Azərbaycan Milli Elmlər Akademiyasının N.Gəncəvi adına Ədəbiyyat İnstitutu görünür elə bu səbəbdən sözügedən fundamental və unikal tədqiqatı 2026-cı il üçün ədəbiyyatşünaslıq elmi sahəsində Azərbaycan Respublikasının Dövlət mükafatına təqdim edib.

Səkkiz fəsildən ibarət olan "İraq-türkman ədəbiyyatı tarixi" elmi monoqrafiya formatının tələb və prinsiplərinə uyğun qaydada qələmə alınmışdır. Adətən bu səciyyəli elmi dərinliyə, araşdırma mükəmməlliyinə malik ağır (sanballı) kitablar ağır-ağır oxunur və mənimsənilir. Etiraf edim ki, monoqrafiyanı sürətlə, demək olar ki, birnəfəsə oxudum. Səbəb çox sadədir; ədəbiyyatşünaslıq elmi baxımından dolğunluq və ciddi dəyər daşımaq, araşdırma dərinliyi, möhkəm sistemlilik öz yerində, kitabın sadə, axıcı, oxunaqlı dili oxucunu çətinliyə salmır, əksinə, müəlliflər aydın şəkildə, qanadlı bir üslubla ona (oxucuya) bələdçilik edirlər. Fəsildən-fəslə əminlik yaranır ki, türkman elinin də daxil olduğu, Yaxın Şərqin ən önəmli dövlətləri ilə qonşuluqda, bərəkətli İkiçayarasında (Mesopotamiya) 440 min kvadratkilometrlik geniş ərazidə yerləşən, 40 milyonluq əhalisinin bəzi mülahizələrə görə 10-13 faizi türkcə, məhz bizim azərbaycanlı ləhcəsində danışan İraq dövləti dünya üzrə Səudiyyə Ərəbistandan sonra ən böyük neft ehtiyatlarına malik ikinci ölkə olmaqla yanaşı, həm də möhtəşəm tarixi, mədəni və bədii-estetik irsin məkanıdır.

Əgər bu irs bir zəngin xəzinədirsə, onun ən dəyərli inciləri sırasında Kərkük bayatıları (xoyratlar), İraq türkmanlarının türklük əsasında yaratdıqları nağıllar, dastanlar, lətifələr, atalar sözləri və sair ilə yanaşı, türkdilli xalqların müştərək sərvəti sayılan dünyaşöhrətli ədəbi simaların - Xətib Təbrizinin, Qazi Bürhanəddinin, İmadəddin Nəsiminin, Cahanşah Həqiqinin, Əbdülqadir Marağayinin, Şah İsmayıl Xətainin mübarək isimləri də yer alır.

Dahi söz ustadı, dünya poeziyasının sözdən möcüzə yaradan sehrkar şairi Məhəmməd Füzuli... O isə türkdilli, ərəbdilli ədəbiyyatın ayrıca mərhələsidir. İraq türkmanları, kərküklülər haqlı olaraq Kərbəlada uyuyan bu dahini özlərinin doğma, halal ustadı timsalında dəyərləndirirlər.

Ədəbiyyatşünaslıqla bərabər, ötən əsrin 80-ci illərində Azərbaycan bədii-sənədli publisistikasının nəfəs imkanlarını əhəmiyyətli dərəcədə genişləndirən Qəzənfər Paşayev "Altı il Dəclə-Fərat sahillərində" kitabında qədim Babilistan, Asma bağlar, Şumer gizlinləri, göl, çöl ərəbləri açısından baxaraq, həssas Kərkük dünyasına qapı açmaqla, ümumən İraq (qədim Uruq şəhər dövləti, "Bilqamıs dastanı", Şumerlərin antik tarixi kəşfləri) və Azərbaycan dünyası arasında tarixi əsaslı bir mədəniyyət-mənəviyyat körpüsünün təməlini atmışdı. Məhz Qəzənfər müəllim bu tarixi ədəbiyyat və mənəviyyat coğrafiyasından baxaraq XI əsrdən müxtəlif vaxtlarda türk dövlətlərinin, o cümlədən Azərbaycan səlcuqlarının, Monqol-tatar imperiyasının, Ağqoyunlular, Səfəvilər xanədanlarının, nəhayət, 400 ilə yaxın qüdrətli Osmanlı imperiyasının tərkibində olan İraq dünyasına və orada, ayrı bir coğrafi kəsimdə varlığını qoruyan türk dilinə demək olar ki, təkbaşına çıraq tutmuşdur.

Kitab haqqında daha müfəssəl, eyni zamanda özət mülahizələri bildirməzdən öncə bir məqama toxunmaq lazım gəlir. Məncə, Qəzənfər Paşayevin gənc ədəbiyyatşünas Orxan İsayevlə müştərək müəllifliyə qərar verməsi göydəndüşmə deyil, irəlidə işarə etdiyimiz kimi, bu, müdrik alimin başladıb kifayət qədər dərinləşdirdiyi elmi sahənin inkişafına yeni qüvvələrin cəlb edilməsinə zəruri, içdən gələn çağırışdır. Bu, ustad qələm sahibinin ürək genişliyinin əlamətidir. Bu, eyni zamanda gənc həmkarlara güvənc, onların haqqının, tədqiqatçı həvəsinin tanınması və dəstəklənməsidir.

Sözügedən mövzu Orxan İsayevə də yad deyil. O, bu istiqamətdə qələmə alınmış "Məhəmməd Füzuli - həyatı və yaradıclığı", "Kərküklü Növrəs Qədim", "İraq-türkman ədəbiyyatında hekayə janrı və onun Osmanlı hekayəsindən fərqi" kimi maraq doğuran, mövzuya yeni yanaşma sərgiləyən kitab və elmi işlərin müəllifidir.

Və nəhayət, indi də dəyərli monoqrafiya haqqında mülahizələri konkretləşdirmək imkanından yararlanaq. Əsərin ədəbi-elmi səciyyə baxımından çoxşaxəliliyi öz yerində, müəlliflər doğru olaraq İraq-türkman ədəbiyyatının zəmin qatını iki rakursdan nəzərdən keçirmişlər. Bütün dünya xalqlarında olduğu kimi, qardaş qövmün - Türkmaneli insanlarının bədii söz sənəti də şifahi və yazılı şəkildən ibarətdir.

Təbii ki, ilkin sırada xalqın folklor yaradıcılığı gəlir. Müəlliflər ehmal bir şəkildə folklor yaradıcılığının bədii sözə qədər olan müxtəlif adət-ənənə, mərasimlərlə bağlı arxaik inanclarını və bu müstəvidə yaradılan şifahi ədəbi-bədii örnəkləri dəyərləndirirlər. İlkin və arxaik janrlar (inanclar, andlar, dualar, fallar, bəddualar), o sıradan insanların həyatı, gündəlik məişəti ilə bağlı olan xalq mərasim nəğmələri, dini bayramlarla, yas və toyla bağlı nəğmələr mərasim folkloru başlığı altında ümumiləşdirilir.

Məişət və mərasimlərlə, təbiət hadisələri, bitki və heyvanat aləminə bağlı, astral təsəvvürlər və əsatiri görüşlərdən qaynaqlanan folklor örnəklərinin Azərbaycanın ilkin estetik təsəvvürləri ilə az qala yüzdə yüz adekvatlığı iraq bir ölkədə yaşayan, fəqət bizim düşüncədə olan, bizim dildə düşünən, danışan və yaradan insanlara yönəlik həm xiffət, həm də heyrət hissi doğurur. Məsələn, monoqrafiyadan öyrənirik ki, bizdə olduğu kimi, İraq-türkman folklorunda da su müqəddəsdir, o qədər müqəddəs ki, ona and içilir, səfərə çıxanların yolları aydın olsun deyə ardınca su atırlar. Qırxı çıxan uşağı su ilə pak edirlər. Doğuşdan qırx gün sonra uşağın və ananın üstünə qırx ovuc su tökürlər və inanırlar ki, onlar təmizə çıxıblar. Tək səbir gələndə ləngiyir, cüt səbirdə ya Allah deyib, niyyət səmtinə üz tuturlar. Əgər göz səyriyirsə, deməli, ən yaxın zamanda mübhəm bir gözləntinin xəbəri çıxacaq.

İraq türkmanlarında da eynən bizdəki kimi boş uşaq beşiyini yırğalamazlar, paltar əyindəykən ona düymə tikməzlər, gecələr güzgüyə baxmaq yasaqdır, şər qarışandan sonra ev süpürmək məsləhət deyil və s. və i.

Eynən bizim folklor ədəbiyyatında olduğu kimi, İraq türkmanları da andı pozmağı günah sayırlar. Qanı qana qarışdırıb and içir və qardaş olurlar. Ən əziz varlıqlara - aya, ulduza, suya, göyə, yerə, ata və ananın canına, məzara, yola, duz-çörəyə, dayı, əmi, oğul, xala, bibi adına and içirlər.

İraq türkmanlarının dua və bəddua örnəkləri (alqış və qarğış) kifayət qədər zəngindir. Fallar bizdəki kimi iki yerə bölünür - göz və qulaq falı.

Mövsumlə əlaqədar yaranan nəğmələrdə insanların yağış yağdırmaq, yazın gəlişini qutlamaq çağırışları, dini bayramlarda müşayiət olunan adətlər və folklor mətnləri zaman-zaman Türkmaneli elatı tərəfindən əziz yadigarlıqlar kimi yaşadılmış, yeni variantlarla zənginləşdirilmişdir. Kərkük ellərində bu gün də Qurban, Ramazan bayramları, Aşura, Peyğəmbərin mövlud günü hər inancın xarakterinə uyğun şəkildə qeyd edilir.

Dil, adət-ənənələr, tarixi keçmiş və bu çərçivədə bilinən geniş coğrafiya vahid olduğuna görə İraq türkmanlarının şifahi xalq ədəbiyyatı ilə Azərbaycanın folklor irsi mükəmməl bir şəkildə qaynayıb-qovuşur. Folklor irsində, sadəcə, bənzərlik, oxşarlıq deyil, bundan daha artıq - eyniyyəti yaradan səbəb uzaq və yaxın tarixə dayanan eyni kökün, doğma qardaşlıq rişələrinin mövcudluğudur. Heç təsadüfi deyil ki, İstanbulda nəşr olunan "Qardaşlıq" dərgisinin 2000-ci il 8-ci sayında verdiyi müsahibədə Ümummilli Lider, həmin dövrdə Azərbaycan Respublikasının Prezidenti olan Heydər Əliyev qəti şəkildə, tarixi-elmi nöqteyi-nəzərə əsaslanaraq söyləmişdi: "Tarixi araşdıranda gördüm ki, Quzey Azərbaycan, Güney Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır".

Məzmun və forma, yaradılış mühiti baxımından elmi-ədəbi təsnifata uyğun olaraq monoqrafiya müəllifləri şifahi xalq ədəbiyyatı örnəklərini iki biçim (forma) variantında nəzərdən keçirirlər - ədəbi folklorun lirik növü - bura xoyratlar, manilər, beşik nəğmələri, şeir şəkilli tapmacalar aiddir. Şifahi ədəbiyyatın epik növü bölümündə nağıllar, lətifələr, tapmacalar təhlil və təqdim olunur.

Tam bir qətiyyətlə demək olar ki, xoyratlar (bayatılar) İraq-türkman poetik düşüncəsinin zirvəsidir. Dördsətirlik şeir parçalarının canında nələr olarmış? Elə bu səbəbdən monoqrafiyada ağız ədəbiyyatının bu janrı həm məxsusi bir ehtiram, həm də elmi dəqiqliklə araşdırılıb. Xoyratların mövzu dairəsi kifayət qədər genişdir, xalq həyatının başlıca reallıqları yüksək bədiilik şərti ilə rahat bir şəkildə bu janrın hətta ilk sətri "yarım olan" dörd misranın hüdudlarında bədii ifadə imkanı tapır. Əlbəttə, bu heyrətamiz dolğunluq bizə Azərbaycanın heç də hər xalqa qismət olmayan bayatı xəzinəsindən tanışdır. Belə müştərəklik, eyni zamanda yüksək əyarlı ədəbi-bədii məziyyət manilərin, Kərkük xalq havalarının, beşik nəğmələrinin (layla, oxşama) təqdimatında da görünməkdədir.

Ağız ədəbiyyatı örnəklərinin epik növündən söhbət gedəndə Molla Nəsrəddin lətifələrindən tutmuş "Koroğlu", "Əsli və Kərəm" və sair dastanlarına, atalar sözləri və məsəllərinə qədər, İraq türkmanlarında və Azərbaycanda bəzən cüzi imla fərqləri ilə, bəzən isə tam olaraq, paralel şəkildə mövcudluğunu qeyd etmək lazım gəlir. "Arzu-Qənbər" dastanı, çox sayda yüksək kaloritə, tərtəmiz, təbii ləhcəyə, məxsusi sintaksisə malik nağıllar isə məhz orada, Türkmaneli dolaylarında yaradılmışdır.

Qeyd etmək zəruridir ki, monoqrafiya müəllifləri bizim üçün də əziz olan el ədəbiyyatı xəzinəsini nəzərdən keçirərkən İraq-türkman ədəbiyyatşünaslığının azman simalarından olan, klassik, yorulmaz folklorşünas Əta Tərzibaşının tədqiqatlarına dönə-dönə istinad edir, onun möhtəşəm elmi yaradıcılığını ön sıraya çəkirlər. Bu bir qədirbilənlik, qardaş xalqın aliminin möhtəşəm əməyinin qarşılığında müəlliflərin vaz keçə bilmədikləri vəfa borcudur.

"İraq-türkman ədəbiyyatı tarixi"nin ikinci təməl araşdırma predmeti qardaş xalqın yaratdığı təqribən minillik bir dövrü əhatə edən, mərhələlərlə nəzərdən keçirilən yazılı İraq-türkman ədəbiyyatıdır.

Oxucu monoqrafiyada Orta əsrlərdən bizim günlərimizə qədər İraq-türkman ədəbiyyatının həm poeziya, həm nəsr, hətta dramaturgiya üzrə yaranması, inkişafı, yeni bədii-estetik səviyyələrə sahiblənməsi mərhələləri müfəssəl və mükəmməl şəkildə izlənilmişdir.

Onlarca müasir yazıçı və şairin yaradıcılığı timsalında İraq-türkman xalqının bədii-estetik düşüncəsi, ümumən isə bu elatın həyat tərzi, istək və arzuları barədə bilgilər əldə etmiş oluruq. Müəlliflər ümumiləşdirmə apararaq qeyd edirlər ki, bu gün müstəqil olan İraq-türkman ədəbiyyatının tarixinə nəzər saldıqda bəlli olur ki, XVI əsrin ikinci yarısından XX əsrin əvvəllərinəcən, təqribən dörd yüz il Osmanlı ədəbiyyatının təsiri altında olsa da, bu ədəbiyyatı digərlərindən fərqləndirən kövrək sərhədlər həmişə olub və indi də vardır.

Bu yanaşmaya onu əlavə edə bilərik ki, Azərbaycan və türk ədəbiyyatı, eləcə də digər türkdilli xalqların yaratdıqları ədəbi-bədii irs İraq-türkman bədii düşüncəsinə geniş üfüqlər açan səbəb, təkanverici qüdrətdir.

Və belə bir həyati, mənəvi panoramı, İraq-türkman xalqının ədəbiyyat dünyasını ərsəyə gətirən başlıca amil türk dilidir, bundan daha çox bizim doğma türk ləhcəmizdir. Əslində, bu dil İraq-türkman varlığının görünən üzü, mövcudluğu, parlaq və aydın simasıdır.

Düşünürəm ki, "İraq-türkman ədəbiyyatı tarixi" monoqrafiyasında Səid İrmaqın "Qardaşlıq" dərgisində (Bağdad, 1962) işıq üzü görən aşağıdakı qiymətli fikirlərinə təsadüfən istinad edilməmişdir. Türkman elinin dəyərli yaradıcı ziyalısı S.İrmaq yazır: "Vətən torpağı kiçilib genişlənə bilər, tamamilə əldən çıxa bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər. Hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər, lakin bir şey dəyişmir. Qalan tək bir varlıq ana dilidir".

İçində həqiqət payı olan yanaşma, düşündürücü mülahizədir, deyilmi?

***Vaqif BƏHMƏNLİ***

## Ankarada Azərbaycan və Türkiyənin teatr sahəsində əməkdaşlıq imkanları dəyərləndirilib

**Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva Ankaraya səfəri çərçivəsində Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi Dövlət Teatrlarının baş direktoru, tanınmış aktyor və rejissor Tamer Karadağlı ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinin yalnız siyasi və iqtisadi sahələrdə deyil, eyni zamanda mədəniyyət və incəsənət sahəsində də dərin köklərə malik olduğu vurğulanıb. Qeyd olunub ki, Azərbaycan ilə Türkiyəni birləşdirən bağlar ortaq tarixin, dilin, folklorun, adət-ənənələrin sarsılmaz vəhdətidir.

Günay Əfəndiyeva qeyd edib ki, Azərbaycan və Türkiyənin timsalında bütövlükdə türk dünyası eyni kökdən qidalanan böyük bir mənəvi coğrafiyadır. Tərəflər teatr sənətini türk xalqlarının qardaşlıq münasibətlərinin dərinləşməsində önəmli vasitələrdən biri kimi dəyərləndiriblər.

Görüş iki ölkənin dövlət teatrları arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı qastrol səfərlərinin təşkili, birgə tamaşaların hazırlanması, aktyor və rejissorların mübadiləsi kimi məsələlər ətrafında müzakirələrlə davam edib.

## "İRS-Nasledie" jurnalının yeni buraxılışı mühüm tarixi hadisələrə həsr olunub

**"İRS-Nasledie" jurnalının mühüm tarixi hadisələrə və Azərbaycanın mədəni irsinə həsr olunmuş yeni buraxılışı çapdan çıxıb.**




AZƏRTAC xəbər verir ki, yeni buraxılışın əsas mövzusu 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş məqalədə yer alıb. Məqalədə qurultayın türkologiyanın inkişafı, türk xalqlarının inteqrasiyası və dil siyasəti məsələlərinin müzakirə olunduğu əsas elmi və siyasi platforma kimi əhəmiyyəti təhlil edilir. Qeyd olunur ki, forumda təkcə alimlər deyil, həm də həmin dövrün siyasi rəhbərliyinin nümayəndələri iştirak ediblər və iştirakçıların çoxu sonradan repressiyalara məruz qalıb. Jurnalın yeni sayında həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin Tehrandakı diplomatik missiyasının tarixinə dair silsilə məqalələrin dərc edilməsinə başlanılıb. Birinci məqalədə respublikanın elan edilməsindən tutmuş 1920-ci ilin yazında, süqutundan bir az əvvəl İranda səfirliyin açılmasına qədər olan siyasi və diplomatik proseslər araşdırılır.

Bundan əlavə, Nadir Şah Əfşarın dövlətin möhkəmləndirilməsində mühüm amil olan Xəzər dənizində donanma yaratmaq səylərinə diqqət yetirən məqalələr silsiləsi də tamamlanıb.

Digər məqalələrlə yanaşı, oxucular Xəzər dənizində dünyanın ilk dəniz neft yatağı olan "Neft daşları" haqqında esse-məqalə, eləcə də Azərbaycan xalqının tarixi və mədəniyyətinin müxtəlif aspektlərinə həsr olunmuş materiallarla tanış ola bilərlər.

## Professor İsrafil İsrafilov Çingiz Aytmatov mükafatına layiq görülüb

**Teatr rejissoru, teatrşünas, pedaqoq, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru və professor İsrafil İsrafilov Çingiz Aytmatov adına Beynəlxalq mükafata layiq görülüb. Qırğızıstan paytaxtında mükafatın təqdimolunma mərasimi keçirilib.**



Professor AZƏRTAC-a müsahibəsində bu mükafatın onun üçün əhəmiyyətindən danışıb: "Türkdilli Ölkələrin Dövlət Teatrları Direktorlar Şurasının sədri kimi, mən yuxarıda göstərilən teatrların fəaliyyətlərinin inteqrasiyası istiqamətində ardıcıl iş aparıram. Zənnimcə, Çingiz Aytmatov Beynəlxalq mükafatı son bir neçə ildəki fəaliyyətimə verilən qiymətdir".

O əlavə edib ki, bu cür tədbirlər mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi baxımından çox vacibdir.

"Müxtəlif ölkələrdən və təşkilatlardan bir çox beynəlxalq, o cümlədən fəxri mükafat, medal almışam. Çingiz Aytmatov Beynəlxalq mükafatı müstəsna nailiyyətlərə görə verilir. Sözsüz ki, bu cür mükafatlar respublikamız da daxil olmaqla, türkdilli ölkələr arasında mədəni əlaqələrin daha da inkişafına və yaradıcı inteqrasiyaya töhfə verir", - deyə İ.İsrafilov vurğulayıb.

## Dünya olduğu kimi

# Cəbəllütariqdə gəmi məzarlığı

**İspan arxeoloqları Cəbəllütariq boğazı ətrafında apardıqları araşdırmalar zamanı antik dövrdən İkinci Dünya müharibəsinə qədər uzanan 134 gəmi qəzası aşkar ediblər.**

Kəşf həm bölgənin minilliklər boyu strateji əhəmiyyətini göstərir, həm də iqlim böhranının tarixi irsə yaratdığı təhlükəni gündəmə gətirir.



Tədqiqat zamanı Cəbəllütariq qayası ilə Algeciras körfəzi arasındakı dar dəniz yolunda ümumilikdə 151 arxeoloji sahə müəyyən edilib. Onlardan 134-də müxtəlif dövrlərə aid batmış gəmi qalıqları tapılıb. Bunların arasında qədim ticarət gəmiləri, Orta Əsrlər islam dövrünə aid dəniz vasitələri, erkən müasir Avropa hərbi gəmiləri və İkinci Dünya müharibəsi dövrünün qalıqları yer alır.

Alimlər bildirirlər ki, bölgədə indiyədək yalnız 10 metr dərinliyə qədər araşdırma aparılıb. Halbuki körfəzin bəzi hissələrində dərinlik 400 metrə çatır. Bu isə dəniz dibində hələ çox sayda naməlum qəza qalıqlarının ola biləcəyini göstərir. Lakin mütəxəssislər xəbərdarlıq edirlər ki, bu arxeoloji sahələr ciddi təhlükə altındadır. İqlim dəyişikliyi, liman genişləndirmə layihələri və dəniz dibinin dərinləşdirilməsi işləri tarixi qalıqları sürətlə məhv edir. Buna görə alimlər üçölçülü modelləşdirmə və rəqəmsal sənədləşdirmə üsulları ilə bu izləri qorumağa çalışırlar.

# Ayda mineral kəşfi



Çinli alimlər “Chang’e-5” missiyası çərçivəsində Aydan gətirilən nümunələrdə əvvəllər məlum olmayan iki yeni mineral - “magneziochangisite-(Y)” və “changisite-(Ce)” kəşf ediblər. “Global Times”ın məlumatına görə, nadir torpaq fosfatları kateqoriyasına aid edilən bu minerallar Beynəlxalq Mineralogiya Birliyi tərəfindən rəsmi şəkildə təsdiqlənib.

Bu kəşf Çinin Ay nümunələrində tapdığı ikinci və üçüncü mineral olmaqla yanaşı, Ayda indiyədək aşkar edilmiş ümumi mineralların sayını səkkizə çatdırıb. Daha əvvəl, 2022-ci ildə Çin alimləri “changsite-(Y)” adlı ilk mineralın tapıldığını elan etmişdilər. Xatırladaq ki, 2020-ci ilin sonunda Yerə 1,73 kiloqram nümunə gətirən “Chang’e-5” missiyası ilə Çin, ABŞ və Rusiyadan sonra Ay süxurlarını tədqiq edərək mineral kəşf edən üçüncü ölkə olub.

# Antarktida dərinliyində yeni dünya

**Antarktika buzlaqlarının 1300 metr dərinliyində, okean dibinin ekstremal şəraitində gizlənən sirli dünya ilk dəfə birbaşa müşahidə edilib.**



Koreya Qütb Tədqiqat İnstitutunun "Araon" tədqiqat gəmisi ilə həyata keçirdiyi ekspedisiya çərçivəsində pilotsuz sualtı qayıq vasitəsilə orta okean silsiləsindəki hidrotermal dəliklər araşdırılıb.

Səthdə temperatur mənfi dərəcələrdə olsa da, Yer qabığındakı çatların arasından çıxan hidrotermal mayelər 300 dərəcədən çox qızır. Günəş işığının daxil ola bilmədiyi bu qaranlıq dünyada həyat fotosintez deyil, kemosintez üzərində qurulub. Mikroorqanizmlər kimyəvi maddələri parçalayaraq enerji əldə edir, digər canlılar isə bu bakteriyalarla simbiotik əlaqədə yaşayaraq unikal ekosistem formalaşdırır.

Araşdırmalar zamanı robot qollar vasitəsilə süngərlər, knidaryanlar və exinodermlər daxil olmaqla 12 fərqli orqanizm növü toplanıb. Tədqiqatçılar bu nümunələr arasında əvvəllər elmə məlum olmayan növlərin olduğunu bildirirlər.

# Buğdanın mənşəyi nəzərdən keçirilir



**Tədqiqatçılar Gürcüstan ərazisində aparılan qazıntılar zamanı müasir buğda növlərinin əcdadlarından biri hesab edilə biləcək qədim buğda nümunələri aşkarlayıblar.**

Tapıntılar ölkənin cənub hissəsində yerləşən Qadaçrili-Qora və Şulaveris-Qora adlı neolit dövrünə aid yaşayış məskənlərində əldə olunub.

Radiokarbon analizlərinin nəticələrinə əsasən, nümunələrin yaşı təxminən 7,7-7,9 min il olaraq müəyyən edilib. Aşkarlanan dənələrin bir hissəsi çörəkçilikdə istifadə olunan erkən yumşaq buğda formalarına, digər hissəsi isə vəhşi taxıl növlərinə aiddir.

Alimlər bildirirlər ki, müasir buğda müxtəlif vəhşi və erkən mədəni formaların uzunmüddətli hibridləşməsi nəticəsində yaranıb. Yeni nəticələr isə Yaxın Şərqlə yanaşı, Qafqazın da bu inkişaf mərhələsində mühüm rol oynadığını göstərən nəzəriyyəni gücləndirir.

Araşdırma müəllifləri hesab edirlər ki, son tapıntılar Cənubi Qafqazda erkən əkinçilik mədəniyyətinin yüksək səviyyədə inkişaf etdiyini təsdiqləyir və buğda da daxil olmaqla bir sıra əsas kənd təsərrüfatı bitkilərinin mənşəyi barədə mövcud baxışların yenidən nəzərdən keçirilməsinə səbəb ola bilər.

# Marsda həyat izlərinə dair yeni molekullar aşkarlanıb

**NASA-nın "Curiosity" roveri Marsda indiyədək aşkar olunmuş ən müxtəlif üzvi molekullar qrupunu müəyyən edib. Bu tapıntı Qırmızı Planetin keçmişdə yaşayış üçün əlverişli ola biləcəyinə dair güclü dəlillər təqdim edir.**

Roverin aşkarladığı qrupda Marsda əvvəllər qeydə alınmamış yeddi yeni birləşmə də yer alır. "CNN International"ın məlumatına görə, karbon tərkibli bu maddələr Yer üzündə həyatın yaranmasına şərait yaradan fundamental kimyəvi tikinti blokları ilə oxşar xüsusiyyətlər daşıyır.

Araşdırma Marsda ilk dəfə tətbiq edilən yeni eksperiment əsasında aparılıb. Rover qaya nümunəsi toplayaraq onu kimyəvi məhlulda həll edib və tərkibini analiz edib. Tədqiqat qrupu müəyyən edib ki, qayada aşkarlanan üzvi molekullar Marsda təxminən 3,5 milyard il qorunub saxlanıla bilər. Araşdırmanın aparıcı müəllifi, ABŞ-nin Florida Universitetinin professoru Emi Vilyams bildirib ki, sərt radiasiya şəraitinə baxmayaraq, mürəkkəb üzvi maddələrin Marsda geoloji zaman miqyasında qorunması təsdiqlənib. Bu isə planetdə yaşayış üçün əlverişli mühit axtarışını daha da gücləndirir.



Yeni tapıntılar "Curiosity"nin üzvi birləşmələrlə bağlı əvvəlki kəşflərini tamamlayır və Marsın indiki donmuş səhra görünüşündən fərqli olaraq, milyardlarla il əvvəl yaşana bilən planet ola biləcəyi fikrini gücləndirir. Araşdırma bu molekulların qədim həyatın birbaşa izi olduğunu qəti şəkildə təsdiqləmir. Alimlər hesab edirlər ki, bu maddələr Marsa meteoritlərlə daşına və ya geoloji proseslər nəticəsində yarana bilər. Bununla belə, nəticələr Marsdan Yerə qaya nümunələrinin gətirilməsinin vacibliyini bir daha göstərir.

"Curiosity" roveri 2012-ci ildə Gale kraterinə eniş edib və o vaxtdan Marsın keçmişdə yaşayış üçün yararlı olub-olmadığını araşdırır. Aparat illər ərzində Şarp dağına qalxaraq gil mineralları ilə zəngin təbəqələrə çatıb. Bu gil qatları üzvi molekulları qorumaq qabiliyyətinə görə xüsusi maraq doğurur. Onlar həmçinin Marsda bir zamanlar suyun mövcud olduğunu, sonra yox olduğunu və yenidən ortaya çıxdığını göstərir.

2020-ci ildə "Curiosity" burada gil mineralları olan qumdaşı nümunəsini qazaraq üyüdüb və SAM (Marsda Nümunə Analizi) cihazı vasitəsilə tədqiq edib. Bu cihaz nümunələri qızdıraraq ayrılan qazları analiz edir və Marsın üzvi kimyası ilə bağlı mühüm məlumatlar verir. Tədqiqat zamanı azot tərkibli halqa strukturları da daxil olmaqla 21 fərqli karbon əsaslı molekul müəyyən olunub. Bu strukturlar RNT və DNT-nin ilkin sələfləri hesab edilir.

Professor Vilyams bildirib ki, bu cür birləşmələr daha mürəkkəb molekulların yaranması üçün əsas rol oynaya bilər və onlar indiyədək nə Mars səthində, nə də Mars meteoritlərində müşahidə olunub. Nəticələr həmçinin meteoritlərdə tez-tez rast gəlinən karbon və kükürd tərkibli benzotiofen molekulunun da mövcudluğunu ortaya qoyub. Alimlərin fikrincə, Marsa düşən meteoritlərin daşıdığı bu materiallar Yer üzündə olduğu kimi, həyatın təməl daşlarının formalaşmasına töhfə vermiş ola bilər.

Bu ehtimalı yoxlamaq üçün tədqiqatçılar "Murchison" meteoriti üzərində laboratoriya təcrübələri aparıblar və nəticələr Marsda aşkarlanan maddələrlə güclü oxşarlıq göstərib.

*Hazırladı:*
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20



# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının nəzərinə!

22 iyun 2026-cı il saat 15:00-da "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

**Ünvan: Abşeron rayonu, Göradil kəndi, "Göradil Quşçuluq" ASC-nin inzibati binası.**

***Yığıncağın gündəliyi:***

*1. "Göradil Quşçuluq" ASC-nin 2025-2026-cı illər üzrə maliyyə təsərrüfat fəaliyyəti haqqında.*

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***"Göradil Quşçuluq" ASC***

## "Bakı Rail-Trans" QSC-nin səhmdarlarının nəzərinə!

22 iyun 2026-cı il saat 10:00-da "Bakı Rail-Trans" QSC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsi, ev 137, mənzil 80-nin inzibati binası**

***Yığıncağın gündəliyi:***

*1. "Bakı Rail-Trans" QSC-nin 2025-2026-cı illər üzrə maliyyə təsərrüfat fəaliyyəti haqqında.*

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***"Bakı Rail-Trans" QSC***

## BEYNƏLXALQ HƏYAT

# Ağ Ev yaxınlığında atışma

### Polis əməkdaşı silahlı şübhəliyə atəş açıb

ABŞ Gizli Xidmətinin nümayəndəsi jurnalistlərə Ağ Ev ərazisində qısamüddətli çaxnaşmaya səbəb olan atışma hadisəsini şərh edərkən bildirib ki, polis əməkdaşları Vaşinqtonda Ağ Evin yaxınlığında silahlı kişiyə atəş açıblar.



Verilən məlumata görə, atışma Müstəqillik prospekti ilə 15-ci küçənin kəsişməsində baş verib. Polis silah daşıdığı iddia edilən şübhəliyə atəş açıb. Zərərçəkən yaralı vəziyyətdə xəstəxanaya aparılıb. Rəsmi şəxs yaralı kişinin vəziyyəti ilə bağlı şərh verməkdən imtina edib və yalnız onun gənc olduğunu bildirib.

Bundan əvvəl Ağ Ev ərazisində yerli vaxtla gündüz saatlarında atışma səslərinin eşidildiyi bildirilmişdi. Yaşayış yerindəki jurnalistlər təhlükəsizlik üçün brifinq otağına təxliyə edilmişlər. Heç bir təhlükə aşkarlanmadığı üçün xəbərdarlıq qısa müddət sonra ləğv edilmişdir. Ağ Evdə jurnalistlər tərəfindən lentə alınan və sosial mediada yayımlanan videolarda Gizli Xidmət əməkdaşları tərəfindən görülən gücləndirilmiş təhlükəsizlik tədbirlərinin görüntüləri nümayiş olunub.

# Rusiya Qələbə gününü qeyd etmək üçün may ayının 8-9-da Ukrayna cəbhəsində atəşkəs elan edib

### Ukrayna mayın 6-dan hərbi əməliyyatları dayandırır, təbii ki, Rusiya bu təşəbbüsə qoşularsa

Rusiya sovet xalqının İkinci Dünya müharibəsindəki qələbəsini qeyd etmək üçün 8 və 9 may tarixlərində atəşkəs elan edib. Ölkənin Müdafiə Nazirliyi bu qərarın Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Putin tərəfindən verildiyini açıqlayıb.



"Ümid edirik ki, Ukrayna tərəfi bizim nümunəmizə qoşulacaq", - deyə Müdafiə Nazirliyindən bildirilib. Məlumatda həmçinin deyilib ki, bayram tədbirlərinin təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirlər görüləcək. Öz növbəsində Ukrayna 6 may gecə yarısından Rusiya ilə atəşkəs elan edəcək. Bu barədə məlumatı Ukrayna Prezidenti Volodimir Zelenski açıqlayıb. Dövlət başçısı bunu "Teleqram" kanalında yazıb. "Biz inanırıq ki, insan həyatı istənilən ildönümü qeyd etməkdən müqayisəolunmaz dərəcədə daha dəyərlidir. Bu baxımdan mayın 5-dən mayın 6-na keçən gecə yarısından başlayaraq atəşkəs elan edirik", - deyə Prezident Zelenski qeyd edib.

# İran yenidən BƏƏ və Omana hücum edib

ABŞ-İran atəşkəsindən bəri ilk dəfə olaraq İran dronları və raketləri Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) hücum edib. Bildirilir ki, BƏƏ-nin hava hücumundan müdafiə qüvvələri İrandan atılan 19 raket və PUA-nı zərərsizləşdirib. Bu barədə ölkənin Müdafiə Nazirliyi "X" sosial media platformasında məlumat verib. Nazirliyin məlumatına əsasən, İran BƏƏ-yə 12 ballistik raket, 3 qanadlı raket və 4 dronla hücum edib.

BƏƏ hökumətinin Mətbuat xidməti bildirib ki, İranın dron hücumundan sonra Fucəyrah neft kompleksinin yaxınlığında yanğın baş verib. Hücum nəticəsində Hindistanın 3 vətəndaşı yaralanıb. BƏƏ məktəblərində dərslər 4 günlük onlayn rejimə keçirilib.

BƏƏ hakimiyyəti İranın yeni hücumlarını qətiyyətlə pisləyib və cavab tədbirləri hüquqları olduğunu bəyan edib. BƏƏ-nin Xarici İşlər Nazirliyi hücumu "təhlükəli eskalasiya" adlandırıb və BƏƏ-nin bu hücumlara cavab vermək üçün tam və qanuni hüququnu özündə saxladığını bildirib. İran dövlət televiziyası isə yüksəkvəzifəli bir hərbi məmura istinadən Tehranın BƏƏ-yə hücum etmək planının olmadığını açıqlayıb.

Almaniya Kansleri Fridrix Merz İranın hücumlarından sonra BƏƏ ilə həmrəyliyini bildirib: "BƏƏ bir daha İranın pilotsuz təyyarə və raket hücumlarının hədəfinə çevrilib. Biz bu hücumları qətiyyətlə pisləyirik. BƏƏ xalqı və regiondakı tərəfdaşlarımızla həmrəyliyimizi ifadə edirik. Tehran danışıqlar masasına qayıtmalı, regionu və bütün dünyanı girov saxlamağı dayandırmalıdır. Hörmüz boğazının blokadası sona çatmalıdır. Tehran nüvə silahı hazırlamamalıdır. Tərəfdaşlarımıza qarşı başqa təhdidlər və ya hücumlar olmamalıdır".

Bu arada Oman hakimiyyəti də BƏƏ ilə sərhəd yaxınlığında yerləşən Bukha şəhərinə zərbə endirildiyini bəyan edib. Oman mediasının məlumatına görə, yaşayış binasına ziyan dəyib və iki əcnəbi işçi yaralanıb.

ABŞ lideri Donald Tramp "Truth Social" sosial media platformasında yazıb ki, İran Hörmüz boğazında Cənubi Koreya gəmisi də daxil olmaqla bir neçə gəmiyə zərbə endirib. Ağ Evin məlumatına görə, ABŞ qüvvələri İranın 7 gəmisini məhv edib.

Bir gün əvvəl ABŞ Hörmüz boğazında qalan gəmiləri "Azadlıq layihəsi" əməliyyatı çərçivəsində müşayiət edəcəyini açıqlamışdı. İran cavab olaraq bildirmişdi ki, Amerikanın gəmilərə müdaxiləsi aprelin 8-də qüvvəyə minmiş atəşkəsin pozulması hesab olunacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Anar Qədimova atası

**QƏZƏNFƏR QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3773**
**Sifariş 565**

**Qiyməti 60 qəpik**